Himayədar Humanitar Təşkilatının nəzdindəki Azərbaycanın Neft Sənayesi üzrə İnformasiya və Resurs Mərkəzi

# NEFT VƏ YOXSULLUQ

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Bakı-2006

65.304.13 (5Ə=Az)
N

**Himayədar Humanitar Təşkilatı**
**NEFT VƏ YOXSULLUQ**

Azərbaycanın Neft Sənayesi üzrə İnformasiya və Resurs Mərkəzi layihəsi çərçivəsində Hollandiyanın N(o)vib təşkilatının maliyyə dəstəyi ilə çap olunub.

**Layihənin rəhbəri:** Himayət Rizvanqızı

Kitabda neft gəlirlərinin əhalinin həyat səviyyəsinə təsirindən və iqtisadiyyatın inkişafında oynadığı əhəmiyyətli rolundan bəhs olunur. Neft gəlirlərindən düzgün istifadə olunmasının ölkəmizin gələcəyində müsbət təzahürlərindən bəhs olunmaqla yanaşı, həmçinin gəlirlərin məqsədyönlü istifadə olunmamasının nə kimi ciddi fəsadlara səbəb olacağı bildirilir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**Tərtibatçı müəllif:** i.e.n. Allahyar Muradov

**Redaktor:** İlham Məmmədli

**Korrektor:** E. Qarayev

**Tərtibatçı dizayner:** Elşən Şıxlı



**Kitabın içindəkilər:**

**I FƏSİL.** AZƏRBAYCAN NEFTİ: EHTİYAT, HASİLAT, GƏLİR ........ 5

**II FƏSİL.** AZƏRBAYCAN İQTİSADİYYATINDA NEFT AMİLİ ........ 20

**III FƏSİL.** AZƏRBAYCANDA YOXSULLUQ ........ 43

**IV FƏSİL.** TƏHSİLİN YOXSULLUQLA QARŞILIQLI ƏLAQƏSİ VƏ TƏHSİLİN İNKİŞAFINDA NEFT GƏLİRLƏRİNDƏN İSTİFADƏ STRATEGİYASI ........ 79

**V FƏSİL.** ƏMƏK BAZARI VƏ MƏŞĞULLUĞUN YAXŞILAŞDIRILMASI ........ 107

**VI FƏSİL.** QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASINDA NEFT GƏLİRLƏRİNDƏN İSTİFADƏ ........ 132

## Akronimlər

**ARDNF** – Azərbaycan Respublikası Dövlət Neft Fondu
**ARDNŞ** - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
**ANSİRM**- Azərbaycanın Neft Sənayesi üzrə İnformasiya və Resurs Mərkəzi
**AHİK**- Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası
**AZM**- Azərbaycan manatı
**AZN** – Yeni Azərbaycan manatı
**BVF**-Beynəlxalq Valyuta Fondu
**BƏT**- Beynəlxalq Əmək Təşkilatı
**BMT**- Birləşmiş Millətlər Təşkilatı
**BMTİP**- Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı
**VTC**- Vahid Tarif Cədvəli
**DB**- Dünya Bankı
**DSK**- Dövlət Statistika Komitəsi
**MDB**- Müstqil Dövlətlər Birliyi
**MİS**- Minimum İstehlak Səbəti
**MİB**- Minimum İstehlak Büdcəsi
**MİM**-Minilliyin İnkişaf Məqsədləri
**MƏS**- Minimum Ərzaq Səbəti
**MƏH**- Minimum əmək haqqı
**ETM** – Ev Təsərrüfatlarının Müayinəsi
**İİİ**-İnsan İnkişafı İndeksi
**YAİİDP**- Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı





# I FƏSİL

## AZƏRBAYCAN NEFTİ: EHTİYAT, HASİLAT, GƏLİR

### 1. Neft ehtiyatı

Məlum olduğu kimi, XX əsrdə və XXI əsrin əvvəllərində neft mühüm enerji resursu olaraq dünya iqtisadiyyatının inkişafında ən strateji məhsullardan birinə çevrilib. Məhz bunun nəticəsidir ki, son illərdə bu məhsula tələbat daha sürətlə artıb. Belə ki, əgər XX əsrin əvvəllərində dünyada enerji resurslarının ümumi istehlakında neftin xüsusi çəkisi təqribən 3 faiz təşkil edibsə, əsrin ortalarında bu göstərici 24%, əsrin sonunda isə 70% təşkil edib. Bu da neft sərvətinə malik olan ölkələrin dünya iqtisadiyyatının inkişafında böyük rolu olduğunu göstərir. Buna baxmayaraq, neft ölkələri çox vaxt sosial-iqtisadi çətinliklərlə üz-üzə qalırlar. Yalnız bu sərvətin satışından əldə edilən gəlirlərdən düşünülmüş və məqsədyönlü şəkildə istifadə edən ölkələr dünya iqtisadiyyatının inkişafı ilə ayaqlaşa və yaxud da onu qabaqlaya bilirlər.

Qeyd edək ki, Antarktidadan başqa qalan beş qitənin hamısında neft var. Lakin neft ehtiyatları bu qitələrin bəzisində az, bəzisində isə çoxdur. Dünyanın ən iri neft-qaz hövzələri (dünya neft ehtiyatlarının təqribən 60%-i) Yaxın və Orta Şərq regionlarının payına düşür. Qeyd edilən regionlar arasında ən çox neft-qaz ehtiyatları isə Fars körfəzində və onu əhatə edən bölgədə cəmləşib. Bu regionda ən çox neft ehtiyatına malik olan ölkə Səudiyyə Ərəbistanıdır. Dünya neft ehtiyatlarının 25,0%-i bu ölkənin ərazisindədir. Neft ehtiyatlarının çoxluğuna görə, sonrakı yerləri İraq (11%) və Birləşmiş Ərəb Əmirlikləri (9 %) tutur.

Məlumat üçün bildirək ki, ümumilikdə dünyanın (məlum olan) neft ehtiyatları 1 trilyon 47 mlrd. barrel təşkil edir. Hesablamalara görə, əgər alternativ enerji mənbələri tapılmazsa, bu ehtiyatlar təqribən 41 ilə tükənə bilər.

Cədvəl 1

**Dünyanın neft ehtiyatları (mlrd. barrel)**

| | Ehtiyat mlrd. barrellə | %-lə | İl |
|---|---|---|---|
| S. Ərəbistanı | 262 | (25%) | 86 il |
| İraq | 112 | (11%) | 100 ildən çox |
| Birləşmiş Ərəb Əmirlikləri | 98 | (9%) | 100 ildən çox |
| Küveyt | 96 | (9%) | 100 ildən çox |
| İran | 90 | (9%) | 73 il |
| Venesuella | 78 | (7%) | 74 il |
| Rusiya | 60 | (6%) | 22 il |
| ABŞ | 30 | (3%) | 11 il |
| Liviya | 30 | (3%) | 59 il |
| Nigeriya | 24 | (2%) | 33 il |
| Azərbaycan | 22 | (2%) | 24 il |

Bildiyimiz kimi, Azərbaycan ərazisində neftdən ən qədim zamanlardan istifadə olunub. Ayrı-ayrı vaxtlarda ölkəmizdə olmuş müxtəlif səyyah, tarixçi və coğrafiyaşünaslar öz əsərlərində bu barədə çeşidli məlumatlar veriblər. Onların bir çoxu öz yazılarında konkret olaraq neftin adını çəkməsələr də, «möcüzəli su», «yanan maye» adlandırdıqları bu xammalın sonralar neft olduğu sübut edilib.

Hazırda Azərbaycanın neft və qaz ehtiyatları o qədər böyük olmasa da, neft və qaz ehtiyatlarına malik ölkələr sırasında layiqli mövqe tutur. Proqnozlaşdırılmış hesablamalara görə, Azərbaycanın neft ehitiyatı təqribən 22 mlrd. barrel (bəzi mənbələrdə 25 mlrd. barrel) həcmində qiymətləndirilir.

Göründüyü kimi, Azərbaycan özünün neft ehtiyatına görə dünyanın neft ölkələri arasında elə də aparıcı mövqeyə malik deyil və dünyanın neftə olan tələbatının cüzi bir hissəsini verir. Yeri gəlmişkən bildirək ki, proqnozlara görə, Azərbaycanda neft ehtiyatının tükənməsi 2030-cu ildə baş verəcəkdir. Deməli, indiki şəraitdə neft satışından əldə edilən gəlirlərin səmərəli idarə olunması dövləti, ümumilikdə isə cəmiyyəti düşündürən aktual problemlərdən biri kimi qarşıya qoyulmalı və bu istiqamətdə dərin elmi-tədqiqat işləri aparılmalıdır.





## 2. Neft ehtiyatlarından istifadənin hüquqi aspekti

Qeyd edək ki, təbii sərvətlər üzərində mülkiyyət hüququ ayrı-ayrı dövlətlərdə müxtəlif şəkildə həll olunur. Bu məsələyə belə fərqli münasibət hər şeydən əvvəl, həmin dövlətlərin siyasi-iqtisadi münasibətlərinin hansı prinsiplər əsasında təşəkkül tapması ilə izah edilir. Bir qayda olaraq, təbii sərvətlər üzərində mülkiyyət hüququnun mənsubiyyəti dövlətlərin konstitusiyalarında (əsas qanunlarında) təsbit olunur.

Məsələn, ABŞ, Fransa, İtaliya, AFR, Türkiyə və xüsusi mülkiyyəti əsas mülkiyyət növü kimi qəbul edən digər dövlətlərin konstitusiyalarında təbii sərvətlərin yalnız dövlətin mülkiyyətində olması barədə heç bir norma yoxdur. Həmin dövlətlərin əsas qanunlarında bu məsələ xüsusi olaraq vurğulanmasa da, ümumi şəkildə, yəni bütövlükdə mülkiyyətə münasibət daxilində həll olunur. Belə ölkələr dövlət, xüsusi və bələdiyyə mülkiyyətlərini tanımaqla təbii sərvətlər üzərində də həmin hüquqların mövcudluğunu təsbit edirlər.

Vaxtilə sosialist siyasi-iqtisadi sisteminə malik olan və indi də bu sistemin bu və ya digər formada mövcud olduğu dövlətlərdə isə təbii sərvətlərin hüquqi rejimi ilə bağlı məsələyə yanaşma fərqlidir. Belə ki, dövlət mülkiyyətinin digər mülkiyyət formaları üzərində şəksiz üstünlüyünü qəbul edən bu ölkələrdə təbii sərvətlər dövlətin şəxsində bütün xalqa məxsusdur. Bütün postsovet respublikalarının, habelə digər sosialist təmayüllü ölkələrin müvafiq qanunvericiliyndə təbii sərvətlərə yanaşma məhz bu mövqedən həll olunub. Hətta ictimai-siyasi sistemində, xüsusilə də iqtisadiyyatında xüsusi və sosialist mülkiyyətinin sintezinə malik Çin Xalq Respublikasınının 1982-ci ilin dekabrın 4-də qəbul olunmuş Konstitusiyasının 9-cu maddəsində göstərilir ki, «Yerin təki, meşələr, sular, dağlar, düzlər, xam torpaqlar, sahilyanı yerlər və digər təbii ehtiyatlar dövlət, yəni ümumxalq mülkiyyətidir. Dövlət təbii ehtiyatların səmərəli istifadəsini təminat altına alır». Göründüyü kimi, burada təbii ehtiyatlar üzərində qeyri-məhdud dövlət inhisarı mövcuddur.

Artıq sosialist ictimai quruluşundan digər münasibətlər sisteminə qədəm qoyan dövlətlərin özlərində də indi bu məsələyə eyni deyil, bir qədər fərqli yanaşma mövcuddur. Belə ki, Qazaxıstan Respublikasının

1995-ci il avqustun 30-da qəbul olunmuş Konstitusiyasının 6-cı maddəsinə əsasən «Yer və onun təki, sular, bitki və heyvanat aləmi, digər təbii ehtiyatlar dövlət mülkiyyətindədir.»

Rusiya Federasiyasının 1993-cü il dekabrın 12-də referendum yolu ilə qəbul olunan Konstitusiyasının 9-cu maddəsinə müvafiq olaraq, yazılıb ki, «Torpaq və digər təbii ehtiyatlar xüsusi, dövlət, bələdiyyə və digər mülkiyyət formalarında ola bilər». Beləliklə, Rusiya Federasiyası bu məsələdə daha loyal mövqe tutaraq təbii sərvətlər üzərində mülkiyyətin bütün formalarını tanıyır. Göründüyü kimi, yaxın dövrlərədək eyni iqtsiadi və eləcə də hüquqi siyasi sistemə malik olmuş iki dövlətdə təbii sərvətlərə mülkiyyət münasibəti tamamilə fərqlidir.

Azərbaycan Respublikasında təbii ehtiyatlar, xüsusilə də karbohidrogen ehtiyatları üzərində mülkiyyət hüququ dövlətə məxsusdur. Bu, hər şeydən əvvəl onunla izah olunur ki, ümummilli sərvətlər, o cümlədən də təbii ehtiyatlar və onlardan əldə olunan gəlirlər təyinatı baxımından ayrı-ayrı fərdlərin deyil, dövlətin simasında bütün xalqın mənafeyinin yüksəldilməsinə xidmət etsin. Təbii sərvətlərə münasibətdə ayrı-ayrı fərdlərin bərabər hüququ həmin sərvətlərin dövlətin mülkiyyətinə verilməsi ilə təmin edilsin.

Azərbaycan Respublikasının Konstitusiyasının 14-cü maddəsinə əsasən, təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur. Yəni təbii ehtiyatlar üzərində mülkiyyət hüququ tamamilə dövlətə məxsusdur.

Doğrudur, «Yerin təki haqqında» Azərbaycan Respublikasının 1998-ci il 13 fevral tarixli qanununa əsasən, karbohidrogen ehtiyatlarının yerləşdiyi yerin təkinin istifadəçiləri həm yerli, həm də xarici dövlətlərin fiziki və hüquqi şəxsləri ola bilərlər. Qanunun tələbinə görə, yerin təki geoloji öyrənilmə üçün 5 ilədək müddətə, faydalı qazıntıların çıxarılması üçün 25 ilədək müddətə, geoloji öyrənilmə və faydalı qazıntıların çıxarılması birləşdirildikdə isə 30 ilədək müddətə xüsusi icazə (lisenziya) əsasında istifadəyə verilə bilər. Lakin bu halda da yerin təkinin mülkiyyət hüququ dövlətin əlində qalmış olur və yalnız istifadə hüququ digər hüquqi və ya fiziki şəxslərə verilir.

Bu konstitusion normada «hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirilməməsi» ilə bağlı istisna təbii





ehtiyatların (onların dövlət mülkiyyətində olmasının konstitusion təsbitinə baxmayaraq) məhz hüquqi və fiziki şəxslərin mənafelərinə «xidmət» etdiyini göstərir. Digər tərəfdən isə, bu norma dövlətin təbii ehtiyatlar üzərində mülkiyyət hüququnu həyata keçirərkən hüquqi və fiziki şəxslərin hüquq və mənafelərinə hörmətlə yanaşılmasını vurğulayır. Yəni həmin normaya görə, fiziki və ya hüquqi şəxsin mülkiyyətində olan torpaq sahələrində təbii sərvətlər aşkar edildikdə, onların dövlətin xeyrinə məcburi götürülməsi zərurəti yarandıqda, əvəzi mütləq ödənilməlidir.

### 3. Azərbaycanda neft hasilatı

Azərbaycanda neftdən istifadənin tarixi qədim olsa da, neft sənayesinin inkişafı 130 ilə yaxındır. Belə ki, ən qədim dövrlərdən başlayaraq, XIX əsrin 70-ci illərinə qədər neft əllə az dərinlikdə qazılan quyulardan çıxarılaraq müxtəlif məqsədlər üçün istifadə olunurdu. Məlumat üçün bildirək ki, XVIII əsrin əvvələrində Abşeron yarımadasında 500-ə qədər əllə qazılmış dayaz neft quyusu mövcud olub. XIX əsrin ikinci yarısından başlayaraq, Abşeron yarımadasındakı zəngin neft quyularının fontan vurması ilə Azərbaycan dünyanın ən qabaqcıl neft diyarına çevrilib.

Qeyd edək ki, 1869-cu ildə Balaxanıda və 1871-ci ildə Bibiheybətdə quruda neftin sənaye əhəmiyyətli hasilatına başlanılıb. XX əsrin əvvəlində, daha doğrusu, 1901-ci ildə Azərbaycanda 11,5 milyon ton neft hasil olunub ki, bu da həmin ildə bütün dünyada çıxarılan neftin 50%-dən çoxunu təşkil edib.

O dövrdən başlayaraq, neft sektoru özünün ilk inkişaf mərhələsinə başlayıb. Bu dövrdə onlarla neft milyonçuları da yetişib. Onların Bakıda müasir üslubda binalar tikilməsindən tutmuş müxtəlif xeyriyyəçilik işlərində əvəzsiz xidmətləri olub. Onlardan Hacı Zeynalabdin Tağıyev öz xeyriyyəçilik əməlləri ilə xalq arasında daha çox nüfuz qazanıb.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə ölkəmizin bütün sərvətlərinə, o cümlədən neft ehtiyatlarına sahiblik hüququ əlindən alınıb. Bolşeviklər hakmiyyəti ələ keçirəndən dərhal sonra «ümumxalq sərvəti» kimi neft hasilatını bərpa və inkişaf

etdirməyə başlayıbar. 1922-ci ildən başlayaraq, Azərbaycanda neft hasilatının səviyyəsi yenidən artıb. 1940-cı ildə Sovet İttifaqı üzrə bütün neft hasilatının 71,5 faizi Azərbaycanın payına düşüb. 1941-ci ildə isə neft hasilatı rekord həddə çataraq 23,4 milyon ton təşkil edib. Onu da qeyd edək ki, II Dünya Müharibəsində faşizm üzərində qələbə çalınmasında Azərbaycan nefti olduqca böyük rol oynayıb. 1941-45-ci illərdə SSRİ-də istehsal edilən neftin 63,2%-i Azərbaycanın payına düşüb. Lakin müharibədən sonra Azərbaycanda neft hasilatı aşağı düşməyə başlayıb.

Sonralar, yəni XX əsrin ortalarında quruda neft hasilatı ilə yanaşı, Xəzər dənizində də neft yataqlarının kəşfi və hasilatı Azərbaycanın neft ölkəsi kimi dünyada tanınmasında böyük əhəmiyyəti olub. Həm də Azərbaycan Xəzər dənizində neft hasil edən ən qocaman ölkədir. 1950-ci ildən başlayaraq, dənizdə məşhur Neft Daşları yatağının aşkar edilib, istismara verilməsi və dənizdə axtarış-kəşfiyyat işlərinin genişlənməsi ilə əlaqədar olaraq, Azərbaycanın neft sənayesinin inkişafında növbəti bir mərhələ başlanıb. Bu dövrdə dəniz neft-qaz yataqlarının kəşfi və işlənilməsi üçün dəniz qazma qurğuları, yeni texniki vəsaitlər və texnoloji proseslər inkişaf etdirilib, bir-birinin ardınca dənizdə yeni iri neft və qaz yataqları aşkar edilərək istismara verilib.




Diaqram 1 Neft hasilatının dinamikası



NEFT VƏ YOXSULLUQ

Keçən əsrin 80-90-cı illərində də Xəzər dənizinin cənub hövzəsinin Azərbaycan sektorunda onlarla yüksək perspektivli strukturlar aşkar olunub. Yeri gəlmişkən, qeyd edək ki, hazırda Xəzər dənizində ən böyük neft ehtiyatı «Azəri-Çıraq-Günəşli» yataqlarının payına düşür. «Günəşli» yatağı 1958-64-cü illərdə kəşf edilməsinə baxmayaraq, 80-ci illərin əvvəllərində istismara verilib. Hazırda Azərbaycanda çıxarılan neftin 70%-ə qədəri məhz bu yataqdan hasil olunur. 1985-ci ildə «Çıraq», 1987-ci ildə «Azəri» neft-qaz yataqları, 1988-ci ildə «Kəpəz» yatağı, 1997-ci ildə isə, «Əşrəfi» yatağı kəşf edilib. Lakin 1990-cı ildən başlayaraq ölkə iqtisadiyyatının tənəzzülü və baş verən sosial-iqtisadi çətinliklər adı çəkilən yataqların istismarını məhdudlaşdırıb. Nəticədə 1990-1995-ci illərdə neft hasilatı nəzərəçarpacaq dərəcədə (1990-cı ildəki 12,5 mln. tondan 1995-ci ildə 9,2 mln tona) aşağı düşüb.

Belə bir şəraitdə neft sektorunda ciddi dönüş yaradılması, ölkənin sosial-iqtisadi böhrandan qısa vaxtda çıxması üçün real yol hesab olunub. Beləliklə, 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» bağlandı. Bundan bir neçə il sonra (1997-ci ildən sonra) neft hasilatında dinamik artım müşahidə olundu (bax, diaqram 1-ə).

Əgər 1995-ci ildə Azərbaycanda 9,2 mln. ton neft hasil olunubsa, 2000-ci ildə bu 13,9 mln. ton, 2004-cü ildə 15,5 mln. ton təşkil edib. 2005-ci ildə isə, 1995-ci illə müqayisədə 2,4 dəfə artaraq 22,2 mln. tona çatıb. Proqnozlara görə, 2006-cı ildə Azərbaycanda 30 mln. ton *(o cümlədən **22 mln. tonu Azəri-Çıraq-Günəşlinin**)***,** 2007-ci ildə 46 mln. ton, 2008-ci ildə 61 mln. ton neft hasil olunacağı gözlənilir. 2011-ci ildə neft hasilatı özünün ən yüksək həddinə-təqribən 72 mln. tona çatacaq.

Bakı şəhəri daxil olmaqla, Abşeron regionunda və Azərbaycanın Xəzər dənizindəki sektorunda xeyli mıqdarda neft və qaz ehtiyatları mövcuddur. Məhz bu ehtiyatlar beynəlxalq müqavilələr vasitəsi ilə külli miqdarda xarici investisiyaların bu regiona və neft sektoruna axınına səbəb olub. Bu isə, regionların qeyri-bərabər və iqtisadiyyatın birtərəfli inkişafına gətirib çıxarıb. Belə bir şəraitdə neft gəlirlərinin kənd təsərrüfatının və regionların inkişafına yönəldilməsi optimal bir variantdır.

Bir tərəfdən neft hasilatının sürətlə artması, digər tərəfdən isə, dünya bazarında neftin satış qiymətinin yüksəlməsi, sözsüz ki, ölkədə makroiqtisadi göstəricilərin dinamik artmasında olduqca əhəmiyyətli rol oynayır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2005-ci ildə neft

sazişlərinin həyata keçirilməsindən əldə edilən vəsait 660 milyon yeni manat və ya təqribən 730 milyon ABŞ dolları olub. Bu isə 1995-ci ilin dövlət büdcəsindən təqribən 1,5 dəfə çoxdur. Bundan başqa, 2006-cı ildə xarici neft şirkətlərinin dövlət büdcəsinə ödəyəcəyi mənfəət vergisi 350-450 mln. ABŞ dolları həcmində proqnozlaşdırılır.

Əgər yeni yataqlar istifadəyə verilməzsə, 5-6 ildən sonra Azərbaycanda neft hasilatı aşağı düşəcək. Deməli, bu müddət ərzində neftdənkənar sahələrin kompleks inkişafına, həmin sahələrdə əmək məhsuldarlığının və rəqabət qabiliyyətli məhsul istehsalının artırılmasına, səmərəli və davamlı iş yerləri yaradılmasına nail olunmalıdır. Əks təqdirdə, neftlə bağlı amillərin təsir gücü azaldıqca artım templəri də aşağı düşməyə başlayacaq və iqtisadi tarazlığın pozulması ehtimalı artacaq.

1996-cı ildən başlayaraq, neft hasilatının yüksəlməsi sözsüz ki, ixracının da armasına təsir göstərir. Son illərdə isə, artım daha da sürətlənib.




Diaqram 2. Neft və neft emalı məhsullarının ixracda payı

DSK-nın məlumatlarına görə, xarici ticarət dövriyyəsinin həcmi 2004-cü ildəki 7131,4 mln. AZN səviyyəsindən 20% artaraq, 2005-cü ildə 8558,4 mln. AZN olub. 2005-cü ildə neft amili xarici ticarət dövriyyəsində 136 mln. AZN həcmində müsbət saldonun yaranmasına təsir göstərib. Belə ki, ixracın strukturuna baxdıqda 2005-ci ildə





«Mineral məhsullar» mal qrupu üzrə məhsul ixracı əvvəlki illərdə olduğu kimi, 76,8% olmaqla aparıcı mövqe tutub. Lakin onu da göstərmək vacibdir ki, 2004-cü illə müqayisədə ixracın xüsusi çəkisi aşağı (2004-cü ildə 82,2% olub) düşüb. İxracın əvvəlki illə müqayisədə aşağı düşməsini 2005-ci ildə BTC neft kəmərinin doldurulması ilə əlaqələndirmək olar. Belə ki, 2005-ci ildə kəmərə 8 mln. barrel neft vurulub.

Ümumilikdə, neft hasilatının və ixracının artması ilə yanaşı, dünya bazarında neftin qiymətinin də qalxması neft gəlirlərinin və onun ölkə iqtisadiyyatına təsir gücünün artmasına da təsir göstərib.

### 3. Neft gəlirləri: neft ölkələrinin təcrübəsində

Hələ 1995-ci ildə Cefri Saks və Endri Uorner tərəfindən nəşr olunan «İqtisadi artım və təbii resursların səfərbər olunması» tədqiqat əsərində göstərilib ki, 1971-1989-cu illər ərzində dünyanın 97 ölkəsində iqtisadi artım və təbii resurslar arasında aparılan müqayisəli təhlilin nəticəsi təzadlı olub. Belə ki, nisbətən yuxarı yerlərdə qərar tutan 18 inkişaf etməkdə olan ölkə arasında təbii resurslarla zəngin yalnız iki dövlətin - Malayziya və Mavritaniyanın adına rast gəlinib.

Son illər bir sıra beynəlxalq təşkilatların apardıqları tədqiqatlar da göstərir ki, neft, qaz və başqa təbii resurslarla zəngin ölkələrdə iqtisadi artım templəri belə resursların az olduğu və ya heç olmadığı ölkələrlə müqayisədə, bir qayda olaraq, aşağı olur. Dünya Bankının məlumatlarına görə, 1965-ci ildən 1998-ci ilədək olan dövrdə adambaşına ümumi daxili məhsul (ÜDM) istehsalının orta illik düşmə tempi İran və Venesuellada - 1 faiz, Liviyada - 2 faiz, İraq və Küveytdə – 3 faiz olub. Qətərdə isə, 1970-1995-ci illərdə həmin göstərici 6 faiz təşkil edib. OPEK üzvü olan ölkələrdə ümumilikdə hər nəfər hesabı ilə ÜDM-in həcmi son 30 ildə nəinki artmayıb, əksinə, ildə təqribən 1,3 faiz azalıb. Həm də belə vəziyyət yalnız OPEK ölkələrində deyil. Son 20 il ərzində zəngin təbii resurslara malik ölkələr kateqoriyasına daxil olan 65 ölkədən yalnız 4-ü əsas kapitala yönəldilən investisiyaların həcmini ÜDM-in 25 faizi səviyyəsinə çatdıra və əhalinin hər nəfəri hesabı ilə illik ÜDM-in artım tempini 4 faizdən az olmayan səviyyədə təmin edə bilib. Bunlar Botsvana, İndoneziya, Malayziya və Tailanddır. Qeyd etməliyik ki, ölkələrdən də yalnız İndoneziyanın nisbətən zəngin

neft ehtiyatları var. Eyni zamanda, Cənub-Şərqi Asiyada təbii resursların məhdudluğu ilə seçilən Honq-Konq, Sinqapur, Cənubi Koreya və Tayvan kimi ölkələr isə daha yüksək iqtisadi artım templəri nümayiş etdirib.

Ayrı-ayrı ölkələrdə neft gəlirlərinin vergiyə cəlb olunmasını qiymətləndirmək üçün neft hasilatından gəlirlərdə dövlətin payı göstəricisindən istifadə olunur. Bu göstərici layihə üzrə neft hasilatından dövlətin bütün növ gəlirlərinin (bonuslar, royalti, icarə haqqı, hasilat payı, vergilər) məbləğinin layihənin reallaşdırılması dövründə ümumi gəlirdən bütün məcmu xərclərin çıxılması yolu ilə müəyyən edilir və əsas fəaliyyətin gəlirlərə nisbəti kimi hesablanır.

**Cədvəl 2**

**Ayrı-ayrı ölkələrdə neft hasilatından gəlirlərdə dövlətin payı**

| | Dövlətin payı, % | Orta göstərici |
|---|---|---|
| BƏƏ - Abu-Dabi (OPEK-in şərtləri) | 88 – 91 | 89,5 |
| İndoneziya | 87 – 89 | 88,0 |
| Malayziya | 81 – 86 | 83,5 |
| Çin | 59 – 62 | 60,5 |
| Nigeriya | 82 – 90 | 86,0 |
| Anqola | 82 – 88 | 85,0 |
| Gabon | 75 – 80 | 77,5 |
| Kolumbiya | 63 – 70 | 66,5 |
| ABŞ | 47 – 58 | 52,5 |
| Norveç | 82 | 82,5 |
| Böyük Britaniya | 33 | 33,0 |

Bundan başqa, iqtisadiyyatın neft sektorunda nisbi vergi yükünün qiymətləndirilməsi təcrübəsi də geniş yayılıb. Bu göstərici dövlətin bütün gəlirlərində neft sektorunun payının ölkənin ÜDM-də neft sektorunun xüsusi çəkisinə (payına) olan nisbəti kimi hesablanır.

Məlum olduğu kimi, Azərbaycanda bağlanan neft müqavilələri Hasilatın Pay Bölgüsü sazişlərinə əsaslanır. Bu saziş növü bazar iqtisadiyyatının yenicə formalaşdırıldığı ölkələrdə daha geniş yayılıb. O, ilk dəfə ötən əsrin 60-cı illərində (1966-cı ildə) İndoneziyada tətbiq edilib, sonradan Misirdə, Suriyada və başqa ölkələrdə geniş yayılıb. HPB müqaviləsinin şərtləri adətən ölkənin milli qanunvericiliyində





(əksər hallarda «Hasilatın Pay Bölgüsü» haqqında qanunda) müəyyən edilir. Mahiyyəti baxımından, HPB ilə konsessiya arasında başlıca fərq bundan ibarətdir ki, HPB müqavilələrində dövlətə müəyyən vergi və qeyri-vergi ödənişləri ilə yanaşı, hasil olunan neftin (daha doğrusu, «mənfəət neftinin») bir hissəsi də məhsul formasında çatır. Belə müqavilələrdə bir qayda olaraq, investor kimi çıxış edən xarici neft şirkətlərini hər hansı siyasi, hüquqi və maliyyə sabitsizliyindən qoruyan müddəalar olur. Məlumat üçün bildirək ki, 1994-cü ildə 44 ölkə HPB sazişlərindən istifadə edib. Ancaq ABŞ, Böyük Britaniya və Avstraliya kimi ciddi siyasi sabitliyə malik ölkələrdə belə sazişlər ümumiyyətlə tədbiq olunmur.

Əksər ölkələr layihələrin gəlirlilik səviyyəsindən asılı olaraq vergilərin, yaxud hasilatın bölgüsü qaydalarının proqressiv şkalalarını tətbiq edirlər. Bu zaman layihələrin daxili gəlirliliyi yüksəldikcə dövlətin götürdüyü gəlir, yaxud pay da artır. Belə sistemdə şirkətlərin çəkdiyi ilkin xərclər ödənilməyincə və müəyyən mənfəətlilik təmin olunmayınca, dövlət heç nə götürmür.

Bir çox ölkələr, məsələn, Venesuella, Kolumbiya, Peru, Tunis, Malayziya və başqaları (o cümlədən Azərbaycan) layihənin gəlirlilik göstəricisi kimi R-amildən istifadə edirlər. Bu göstərici yığılmış xalis gəlirin yığılmış məcmu xərclərə nisbəti kimi hesablanır. Məsələn, Tunisdə R-amilin səviyyəsindən asılı olaraq, neft hasilatı şirkətlərinin gəlir vergisinin dərəcələri 3-cü cədvəldəki kimi dəyişir.

**Cədvəl 3.**

**Tunisdə neft hasilatı layihələrinin iştirakçısı olan şirkətlərin gəlirlərinin vergiyə cəlb edilməsinin R-amilin səviyyəsindən asılılığı**

| R-amil | Gəlir vergisinin dərəcələri (faizlə) |
|---|---|
| 1,5-dən aşağı | 50 |
| 1,5 - 2,0 | 55 |
| 2,0 - 2,5 | 60 |
| 2,5 - 3,0 | 65 |
| 3,0 - 3,5 | 70 |
| 3,5-dən yuxarı | 75 |

Azərbaycanda bağlanan müqavilələrdə mənfəət neftinin bölgüsünün bir qədər mürəkkəb mexanizmi nəzərdə tutulub. Həmin mexanizm

belədir: ümumi hasilatdan (bütün xam neftdən) əvvəlcə əməliyyat məsrəflərinin ödənilməsi üçün lazım olan karbohidrogen (neft) həcmi çıxılır; sonra qalan hasilatdan əsaslı məsrəflərin ödənilməsinə ayrılan, habelə yığılmış (yəni, müxtəlif səbəblərdən əvvəllər ödənilməyən) əsaslı məsrəflərin ödənilməsi üçün istifadə edilən karbohidrogen hissələri çıxılır; yerdə qalan xam neft vergidən sonrakı kumulyativ RROR göstəricisinə (yəni, podratçının əvvəlki təqvim rübünün axırına kapital qoyuluşundan əldə etdiyi ən yüksək real səmərəlilik normasına) müvafiq olaraq ARDNŞ (Azərbaycan dövlətinin təmsilçisi kimi) ilə podratçı arasında aşağıdakı kimi bölünür:

1) əgər ümumi nəqletmə xərcləri hər barrel neft üçün 3 ABŞ dollarından azdırsa, yaxud buna bərabərdirsə və əgər podratçı nefti ilkin hasilat sxemi üzrə alırsa, onda:

| R göstəricisinin hədləri | ARDNŞ-ə çatan pay, %-lə | Podratçıya çatan pay, %-lə |
|---|---|---|
| R < 16,75% | 30 | 70 |
| 16,75% ≤ R < 22,75% | 55 | 45 |
| R ≥ 22,75% | 80 | 20 |

2) ümumi nəqletmə xərcləri hər barrel neft üçün 3 ABŞ dollarından çox olduğu və ya podratçı ilkin hasilat sxemi üzrə neft almadığı halda mənfəət karbohidrogenlərinin bölüşdürülməsi qaydası şirkətlərin xeyrinə dəyişir.

Göründüyü kimi, tətbiq edilən mexanizm mürəkkəb olmaqla bərabər, həm də şirkətlərin mənafeyinə daha çox uyğundur. Bu mexanizm şirkətləri kapital qoyuluşunun real səmərəlilik əmsalını artırmağa stimullaşdırmır, daha doğrusu, şirkətlər səmərəlilik əmsalını artırmaqda bir o qədər də maraqlı olmurlar.

Müqavilə şərtlərinə görə, ilk 8-10 il ərzində investisiya xərcləri tam ödənilməlidir. Ona görə ki, investisiya qoyuluşu dünya banklarından götürülən kredit hesabına təmin edilir və bu kreditin illik faizləri də neftdən alınan ümumi gəlirin hesabına ödənilir (yuxarıda qeyd etdiyimiz məlum səbəblərdən həmin kreditləri Azərbaycanın alması və neft hasilatını müstəqil təşkil etməsi mümkünsüz idi). Əgər 8-10 il ərzində dünya banklarından götürülən kreditlər ödənilməsə, kreditin faizi ilbəil artacaq, bu isə Azərbaycanın xeyrinə deyil.





Məhz buna görə də birinci illərdə neftdən alınan ümumi gəlirin çox hissəsi investisiya xərclərinin ödənilməsinə gedəcək. Beləliklə, 8-10 il ərzində ilbəil investisiya xərclərinin ödənilməsi azalacaq, əldə edilən təmiz gəlir isə artacaq. Bu isə o deməkdir ki, ilk illərdə ümumi gəlirin 30%-ə qədəri Azərbaycan dövlətinə və investorlara təmiz gəlir kimi ödəniləcək, sonralar isə neftin hasilatı artdıqca Azərbaycanın payına düşən təmiz gəlir də artacaq.

Hazırda neft sektoru ölkəmizin iqtisadiyyatının həlledici sahəsinə çevrilib. Əvvəldə göstərdiyimiz kimi, neft hasilatı və satışı sahəsində əldə olunan nailiyyətlər ÜDM-ə və büdcə gəlirlərinə, xarici ticarət dövriyyəsinə və s. əhəmiyyətli dərəcədə təsir göstərib. Statistik rəqəmlər bu artımların baş verməsinə neft sektorunun əhəmiyyətli təsir etdiyini göstərir.




AÇG, Şah –Dəniz yataqlarından, BTC və Cənubi Qafqaz boru kəmərinin istifadəsinin I mərhələsində dövlətin gəlirləri:

–40 mlrd.$ - $20/barrel

–86 mlrd.$ - $30/ barrel

–138 mlrd $ - $40/ barrel

–187 mlrd.$ - $50/ barrel

–235 mlrd.$ - $60/ barrel

Qrafik 1. Neft gəlirlərinin proqnozu

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

## Azərbaycanın neft gəlirlərinin proqnozu

Məlumdur ki, Azərbaycan iqtisadiyyatı əsasən neftin üzərində qurulub. Son illərdə dünya bazarındakı qiymət artımı bu asılılığı bir qədər də möhkəmləndirib. Təcrübədən məlumdur ki, dünya bazarındakı kəskin qiymət dəyişiklikləri iqtisadiyyatda təlatüm yaratmaq effektinə malikdir. Dünya bazar qiymətinin beş variantı üzrə hesablanan neft gəlirləri aşağıdakı kimi proqnozlaşdırılır.

Bununla belə, neft gəlirlərinin ictimai təsirindən və istifadəsinin səmərəliliyindən danışarkən ilk növbədə məhz dövlətə çatan gəlirlər və onların istifadəsi istiqamətləri diqqət mərkəzində olur. Burada diqqət tələb edən birinci məsələ ümumiyyətlə neft gəlirlərinin mülkiyyətçi-dövlətlə şirkətlər arasında nə dərəcədə səmərəli və ədalətli bölünməsidir. Növbəti məsələ isə dövlətə çatan neft gəlirlərindən hökumətin ictimai mənafelər naminə nə dərəcədə səmərəli istifadəsidir.

Belə ki, bu gəlirlərdən kiçik bir qrupun deyil, ölkənin bütün əhalisinin və həm də gələcək nəsillərin faydalanması üçün zəruri tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi həm hökumətin, həm də ölkə ictimaiyyətinin qarşısında duran mühüm vəzifə olmalıdır. Hazırda neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafının da təmin edilməsi, yoxsulluq səviyyəsinin azaldılmasında neft gəlirlərinin rolunun artırılması mühüm əhəmiyyətli məsələ kimi qarşıda durur. Bunun üçün ilk növbədə ölkəyə neft gəlirlərinin daxil olması və istifadəsinin şəffaflığı, bu proseslərə ictimai nəzarətin gücləndirilməsi təmin edilməlidir.

Lakin təəssüflə qeyd etmək lazımdır ki, hazırda neft gəlirlərinin iqtisadi-sosial inkişaf üçün istifadəsində bir sıra ciddi çətinliklər mövcuddur. Bunları sosial-siyasi və institusional baryerlər kimi təsnifləndirmək olar.

Sosial-siyasi baryerlərə siyasi-iqtisadi hakimiyyətin eyni əldə cəmlənməsi və şəxsi maraqların ümummilli iqtisadi maraqlardan üstün tutulması aiddir.

Neft gəlirlərinin iqtisadi-sosial inkişaf üçün istifadəsində mövcud institusional baryerlər sırasında isə, dövlət idarəetmə sistemində geniş yayılmış korrupsiya və rüşvətxorluğu, müstəqil məhkəmə hakmiyyətinin olmamasını və s. qeyd etmək olar.





Bununla belə, neft sektorundan əldə ediləcək gəlirlər iqtisadiyyata daxil olduqda, uyğun valyuta məzənnəsinin saxlanılması çox vacibdir. Nəzərə alsaq ki, özəl sektor likvidlik baxımından, məhdud səviyyədədir, onda neft sektorundan əldə ediləcək gəlirlərin uğurla idarə olunmasında istifadə ediləcək əsas taktika vasitəsi fiskal siyasət olacaq. Eyni zamanda, izafi neft gəlirlərinin Neft Fondunda və dolayısı ilə ölkə xaricində akkumulyasiyası nəticəsində fiskal stereliziasiyası (yəni fiskal vasitələrlə artıq maliyyə vəsaitlərindən ölkə bazarının tənzimlənməsi) təmin edilərsə, bu da öz növbəsində valyuta məzənnəsinin izafi revalvasiyasının qarşısını alacaq və ən başlıcası «Holland sindromu»nun inkişaf potensialını zəiflədəcək.

Ölkənin neft ehtiyatlarının istismarından əldə edilən gəlirlərdən dövlətin faydalanma istiqamətləri müxtəlif, həmin istiqamətlər üzrə imkanlar fərqli olduğundan həmin istiqamətlərin hər biri üzrə dövlətin yürütdüyü siyasət də fərqli olmalıdır.

Beləliklə, birmənalı şəkildə demək olar ki, neft gəlirlərinin ölkənin sosial-iqtisadi durumuna təsiri və onun nəticələri ilk növbədə məhz hökumətin səmərəli və peşəkar fəaliyyətindən asılı olacaqdır.

# II FƏSİL

## AZƏRBAYCAN İQTİSADİYYATINDA NEFT AMİLİ

### 1. Azərbaycan iqtisadiyyatında neft amili

Əvvəldə qeyd etdiyimiz kimi neft müqavilələri bağlandıqdan sonra Azərbaycan iqtisadiyyatında neft amilinin rolu artmağa başladı. Bu artım bu gün də davam etməkdədir. Belə ki, 1995-ci ildən başlanan makroiqtisadi artım son illərdə bir qədər də sürətlənib

**Diaqram 1. ÜDM-də neft sektorunun payı %-lə**




2004-cü ildə ÜDM-in həcmi 10,2% (6140,0 mlrd.AZM) artaraq 41872,5 mlrd. AZM olub. 2005-ci ildə isə iqtisadi artım əvvəlki ilin artım tempini 16,2 bənd üstələyərək 26,4% (11 milyard 875.6 milyon AZN, adambaşına həcmi 1517,6 ABŞ dolları) bərabər olub. Yüksək iqtisadi artım tempi dünya bazarlarında 1 barrel neftin qiymətinin 55-70 ABŞ dolları arasında olması və neft hasilatının kəskin artması şəraitində baş verib.








Diaqram 2. Neft və kənd təsərrüfatı sektorunda istehsal olunan ÜDM-in xüsusi çəkisinin dəyişməsi

Onu da qeyd edək ki, kənd təsərrüfatı məhsullarının istehsalı mütləq ifadədə artsa da (2004-ci illə müqayisədə 2005-ci ildə artım 17,1% olub) ÜDM-də xüsusi çəkisi aşağı düşür. Əgər 1998-ci ildə kənd təsərrüfatının ÜDM-də payı 18,7% təşkil edibsə 2004-cü ildə 10,8%-ə, 2005-ci ildə 9%-ə düşüb. Emal sənayesində ÜDM-in payı isə 2004-cü ildəki 8,3%-dən 2005-ci ildə 7,2%-ə qədər azalıb. Bunun səbəbi neft sektorunda inkişaf tempinin kənd təsərrüfatı və emal sənayesini bir neçə dəfə üstələməsi olub. Belə ki, neft sektorunun ÜDM-də payı 1998-ci ildəki 10,5%-dən 2004-cü ildə 30,7%-ə, 2005-ci ildə isə 42%-ə yüksəlib. 2006-cı ildə 43%-ə, yaxın bir neçə ildə isə bunun 70%-ə qədər yüksələcəyi proqnozlaşdırılıb. Proqnozlara görə, yaxın gələcəkdə (2006-2011-ci illər) BTC neft kəmərinin işə düşməsi, AÇG neft və Şahdəniz qaz yatağında hasilatın ən yüksək səviyyəyə çatdırılması ilə ÜDM-in neft və qaz sektorundan asılılığını artıracaq.

DSK-nın məlumatlarına görə, 2005-ci ildə Azərbaycanda hasilat sənayesində istehsal olunan məhsulun həcmi (faktiki qiymətlərlə) 80% yüksəldiyi halda, emal sənayesində 18,9%, kənd təsərrüfatında isə 17,1% artıb. Göründüyü kimi, neft sənayesindəki artım tempi emal sənayesinin artım tempini 4,2 dəfə, kənd təsərrüfatının artım tempini 4,6 dəfə üstələyib.

Proqnozlar göstərir ki, 2006-cı ildə ölkənin makroiqtisadi göstəricilərində sıçrayışlı inkişaf dinamikası (neft amili hesabına) davam edəcək, ümumi iqtisadi artım tempi 30%-i ötəcək. Təkcə neft sektorunda artımın 55% təşkil edəcəyi proqnozlaşdırılır.

Cədvəl 1

| Makroiqtisadi göstəricilər (mln. man) | | |
|---|---|---|
| | 2004-cü il | 2005-ci il |
| Ümumi daxili məhsul | 8374,5 | 11875,6 |
| əvvəlki ilə, %-lə | 110,2 | 126,4 |
| Sənaye məhsulunun həcmi | 5767,0 | 8857,4 |
| əvvəlki ilə, %-lə | 105,7 | 133,5 |
| Əsas kapitala investisiya | 4839,3 | 5424,3 |
| əvvəlki ilə, %-lə | 136,1 | 112,7 |
| Kənd təsərrüfatı məhsulları | 1477,4 | 1731,2 |
| əvvəlki ilə, %-lə | 104,6 | 107,5 |
| Yük dövriyyəsi, mln. ton km | 4683,5 | 5286,2 |
| əvvəlki ilə, %-lə | 105,0 | 113,5 |
| Pərakəndə əmtəə dövriyyəsi | 3729,9 | 4622,2 |
| əvvəlki ilə, %-lə | 113,0 | 113,2 |
| Pulu xidmətlər | 694,6 | 960,7 |
| əvvəlki ilə, %-lə | 116,4 | 126,1 |
| Büdcənin gəlirləri | 1102,4 | 2055,2 |
| əvvəlki ilə, %-lə | 139,7 | 138,8 |
| Büdcənin xərcləri | 1097,5 | 2140,7 |
| əvvəlki ilə, %-lə | 146,3 | 142,6 |
| Büdcə kəsiri(-)/profisiti(+), mlrd. manat | 4,88 | -85,50 |
| ÜDM-da xüsusi çəkisi | 0,1 | 0,70 |
| Əhalinin nominal pul gəlirləri | 6009,5 | 7792,3 |
| əvvəlki ilin müvafiq dövrünə nisbətən, %-lə | 120,7 | 125,7 |
| Əmək haqqı. Manat | 96,7 | 117,9 |
| əvvəlki ilə, %-lə | 126,2 | 121,9 |
| əvvəlki ilin dekabrına nisbətən, %-lə | 110,4 | 105,4 |
| əvvəlki ilə, %-lə | 106,7 | 109,6 |
| əvvəlki ilin dekabrına nisbətən, %-lə | 121,9 | 110,8 |
| əvvəlki ilə, %-lə | 111,9 | 118,6 |





Rəsmi statistikaya görə, 2004-cü illə müqayisədə 2005-ci ildə məşğul əhalinin sayı 1%, yəni 41,1 min nəfər artaraq, 3809,1 min nəfərdən 3850,2 min nəfərə çatıb. Kənd təsərrüfatında məşğulluq 0,4% artıb. Ümumilikdə bu müddət ərzində həm qeyri-dövlət sektorunda (0,7%), həm də dövlət sektorunda (1,7%) məşğul olanların sayında artım müşahidə olunub.

Neft amilinin Azərbaycan iqtisadiyyatına təsirini qiymətləndirərkən bir fakta da nəzər salmaq vacibdir. Belə ki, 2005-ci ildə məşğul əhalinin təqribən 2%-nin çalışdığı neft sektoru ÜDM-in 42%-ni, büdcəyə vergi daxilolmalarının 38% (ümumilikdə büdcə gəlirlərinin 50%-ə qədərini neft və onunla bağlı əməliyyatlardan gələn gəlirlər təşkil edir), ixracın isə 78%-ni (2004-cü ıldə 84,6% təşkil edib.

Neft amili, (və ya neft gəlirləri) həmçinin əvvəlki illərlə müqayisədə xarici borclanmanın artım tempinin aşağı düşməsinə təsir göstərib. Belə ki, 2002-ci illə müqayisədə 2003-cü ildə Azərbaycanın xarici borcu 15,9% artaraq 1575 mln. ABŞ dolları, 2004-cü ildə isə artım 0,8% olmaqla 1588 mln. ABŞ dolları olub. 2005-ci ildə isə artım bir qədər də sürətlənərək 3,9%-ə yüksəlib. Beləliklə, 2005-ci ilə Azərbaycanın xarici borcu 1650 mln. ABŞ dolları olub. 2003-2005-cü illərdə xarici borcun ÜDM-ə nisbəti 21,6%-dən 18,6%-ə, 2005-ci ildə isə 12,8%-ə qədər azalıb. Dünya ölkələrinin təcrübəsinə əsaslanaraq Azərbaycanın xarici borcunun yüksək olmadığını demək olar. 2005-cü ildə adambaşına düşən xarici borcun məbləği 195 ABŞ dolları olub ki, bu da bir çox keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan ölkələrlə müqayisədə xeyli aşağıdır. Azərbaycanda xarici borcun inkişaf etmiş ölkələrlə müqayisədə az olmasına təsir göstərən əsas amil kimi neft gəlirlərini göstərmək olar.

Neft amilinin qeyd edilən müsbət təsirlərinə baxmayaraq, ölkədə qeyri-neft sektorunun inkişaf tempinin neft sektoru ilə müqayisədə bir neçə dəfə geridə qalmasına da təsir göstərib.

Əldə edilən məlumatların təhlili göstərir ki, bu gün daxili bazarda satılan məhsulların böyük əksəriyyətini ixrac məhsulları təşkil edir. Hansı ki, bu məhsulların bir çoxunun Azərbaycanda istehsalı üçün çox yaxşı imkanlar var. Buna baxmayaraq, həmin məhsullar xüsusilə yüngül sənaye, maşınqayırma məhsulları, hətta ən primitiv istehsal üsuluna malik olan məhsullar da kənardan gətirilir. Bunun nəticəsidir ki, bu gün özəl sektorda ticarət üstünlük təşkil edir.

Burada digər fərqli məqam dünya iqtisadiyyatı durmadan inkişaf edir və buna müvafiq olaraq dünya bazarının konyukturası da dəyişir. Əgər neftdən gələn gəlirlər və digər maliyyə vəsaitələri dünya və regional bazarlarda baş verən dəyişiklikləri nəzərə almadan köhnə istehsal sahələrinin və oradakı iş yerlərinin əvvəlki səviyyədə bərpasına yönəldiləcəksə, beynəlxalq rəqabət və iqtisadi səmərəlilik amilləri əlavə vaxt, külli miqdarda maliyyə resursu, texnika və iş yeri itkisinə gətirib çıxaracaq. Bu da neft gəlirlərindən istifadənin effektini aşağı sala bilər. Ona görə də, rəqabət qabiliyyətli və səmərəli fəaliyyət göstərən kənd təsərrüfatının, perspektivli sənaye və xidmət sahələrinin inkişafı üçün əlverişli şəraitin yardılması dövlətin birinci dərəcəli vəzifəsinə çevrilməlidir.

Hesab edirik ki, «Holland sindromu»nun Azərbaycanda baş verməməsi üçün dövlət neft gəlirlərinin bir hissəsini qeyri-neft sektorunda istehsal müəssisələrinin (dünya bazarında, o cümlədən regional bazarda rəqabət apara bilən müəssisələrin) sağlamlaşdırılmasına (və ya yaradılmasına) yönəldə bilər. Qeyri-neft sektorunun inkişafına nail olunmasında dövlət sahibkarlığının inkişaf etdirilməsi də əhəmiyyətli ola bilər. Əvvəldə qeyd olunduğu kimi, küllü miqdarda neft pullarının dövriyyəyə daxil olması inflyasiyanın sürətlənməsi və manatın möhkəmlənməsinə təsir göstərir. Digər bir tərəfdən də ölkədə iri kimya, neftkimya, maşınqayırma və neft maşınyqayırması müəssisələri var ki, onlar hazırda iflic vəziyyətindədir. Onların bərpası üçün külli miqdarda vəsait tələb olunur. Məlumdur ki, bu gün iri zavodların özəlləşdirilərək bərpa edilməsi üçün Azərbaycan sahibkarlarının maliyyə imkanları məhduddur. Belə bir şəraitdə dövlət həmin zavodların bərpasını öz üzərinə götürməli, həmin müəssisələri yeni texnika və texnologiya ilə təmin etməlidir. Beləliklə valyutanın ölkədən kənara çıxması və bunun da əvəzində minlərlə iş yerinin yradılmasına, iqtisadiyyatın neft sektorundan asılılığının aradan qaldırılmasına nail olmaq mümkündür. Bu, indiki şəraitdə dövlətin investisiya siyasətinin tərib hissəsi olmalıdır.

Lakin investisiya üzrə statsitik rəqəmlərə diqqət etdikdə neft sektorunun mütləq üstünlüyə malik olduğunu görmək olar. Bu fərq sənaye sektoruna qoyulan investisiyaların strukturunda özünü daha qabarıq göstərir. Belə ki, 2005-ci ildə bütün mənbələr üzrə iqtisadiyyata investisiya qoyuluşu 6,6 mlrd. ABŞ dolları olub. Qeyd edilən ildə





ümumi investisiya qoyuluşunda xarici investisiyaların xüsusi çəkisi 66,7% təşkil edib. 2004-cü ildə isə bu göstərici 76,3% olub. 2004-cü ildə sənayeyə yönəldilən investisiyaların 92,8%-i neft və qaz sektoruna qoyulub. Bu sırada sənaye sahələrinə istiqamətləndirilən daxili investisiyaların 42,2%-i, xarici investisiyaların isə 99,3%-i neft və qaz sektoruna yönəldilib. 2005-ci ildə də oxşar tendensiya davam edib, hətta bir qədər də artıb. 2005-ci ildə iqtisadiyyata yönəldilən xarici investisiyaların 91,7%-i neft sektoruna ünvanlanıb. Bu dövrdə xarici investisiyaların həcmi əvvəlki illə müqayisədə 97,1% (2,9% azalıb) təşkil edib. Daxili investisiyaların həcmi isə 65,2% artıb.

Beləliklə, 2003-2005-cü illərdə sənaye sahələrinə qoyulan birbaşa xarici investisiyaların 95-98%-i, sənaye sahələrinə qoylan daxili investisiyaların 40-50% neft və qaz sektoruna qoyulub. Yaranmış vəziyyəti sənayenin qeyri-neft sektorunda investisiya cəlbediciliyinin olmaması kimi qiymətləndirmək mümkündür. Bu da öz növbəsində ölkədə istehsal yönümlü sahibkarlıq fəaliyyəti üçün sağlam mühitin olmadığını göstərir. Dünya təcrübəsi qeyri-neft sektorunun inkişafının məşğulluğun təmin edilməsinə sənaye sahələrinin (qeyri-neft sektorunun) inkişafının əhəmiyətli təsir etdiyini göstərir.

ÜDM-in sahələr üzrə artımına baxdıqda burada vəziyyət əksinədir. Belə ki, əvvəlki illərdə oduğu kimi, 2005-ci ildə də iqtisadiyyata yönəldilən sərmayələrin böyük hissəsi neft sektoruna yönəldib. Qeyri-neft sektorunda isə «investisiya böhranı» hələ ki davam edir. Əgər 1990-cı ildə Azərbaycan iqtisadiyyatına yönəldilən sərmayələrin 14 faizi və ya 700 milyon dolları kənd təsərrüfatının payına düşürdüsə, 2004-cü ildə bu göstərici 19 dəfə azalaraq 0,7 faiz və ya 37 milyon dollar təşkil edib. 2005-ci ildə də ciddi dəyişiklik baş verməyib. Mütəxəssislər hesablayıblar ki, yaxın beş ildə Azərbaycanın kənd təsərrüfatına ildə 400-500 milyon AZN səviyyəsində vəsait qoyulmasa, bu sahə «Holland sindromu»nun təsiri ilə ixracın təsirinə məruz qalacaq və getdikcə daralacaq. Bu vəsait qoyulacağı təqdirdə isə 11 növ kənd təsərrüfatı məhsulunun artım tempini yüksək səviyyəyə qaldırmaq, «Holland sindromu»nun təsirini aşağı salmaq olar.

Neft gəlirlərinin istifadəsinin gələcək effektini artırmaq üçün ikinci önəmli sahə insan kapitalının folmalaşmasına (elm, təhsil, və səhiyyə sektoruna) qoyulan investisiyalardır. Bunu nəzərə alaraq Azərbaycanda təhsil səviyyəsinin inkişaf etdirilməsi, müəllim heyətinin attestasiyadan

keçirilməsi, onların əmək haqqının artırılması, elmi-tədqiqat işlərinin istehsalata tətbiqinin sürətləndirilməsi, əhalinin sağlamlığının qorunması və s. məsələlər də öz əksini tapmalıdır. Bu barədə IV fəsildə geniş məlumat veriləcək.

## 2. Neft gəlirlərinin «Holland sindromu» təhlükəsi

Son illər ölkəyə daxil olan neft gəlirlərinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi xüsusi aktuallıq kəsb edən problemlər sırasında durur. Yeri gəlmişkən qeyd edək ki, hazırda neft gəlirlərinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi («holland sindromu»nun baş vermə ehtimalı) ilə bağlı müxtəlif fikirlər səslənməkdədir. Belə ki, bəzi tədqiqatçılar, xüsusilə dövlət qurumlarında çalışanlar və dövlətin vəzifəli şəxsləri neft gəlirlərindən səmərəli istifadə olunduğunu və ölkənin sosial-iqtisadi həyatında heç bir problemin olmayacağını qeyd edirlər. Müstəqil ekspertlərin əksəriyyəti isə artıq neft gəlirlərinin ölkənin sosial-iqtisadi həyatında müsbət təsirlər ilə yanaşı mənfi təsirlərin də yaratdığının müşahidə olunduğunu, başqa sözlə, «holland sindromu»nun baş vermə ehtimalının artdığını və yaxud da artıq baş verdiyini qeyd edirlər.

Dünya təcrübəsində neft və qaz satışından alınan gəlirlərin milli valyutanın mübadilə kursuna, ticarət tarazlığına, daxili istehsala, büdcə gəlirlərinə, ümumiləkdə ölkənin sosial-iqtisadi həyatına arzuolunmaz təsirini qiymətləndirərkən «holland sindromu» anlayışından istifadə edilir. «Holland sindromu» termininin müəllifliyi Britaniyada dərc olunan «The Economist» həftəlik jurnalının adı ilə bağlanır. Belə ki, 1977-ci ildə adı çəkilən jurnalda nəşr edilən yazıların birində Hollandiyada neft və qazın satışından ölkəyə daxil olan valyuta vəsaitlrinin iqtisadiyyatda yaratdığı sosial-iqtisadi problemlər «Holland sindromu» («Holland xəstəliyi») adlandırılıb.

«Holland sindromu»nun baş vermə tarixinə gəldikdə isə bu, keçən əsrin 50-60-cı illərinə təsadüf edir. Belə ki, 1959–cu ildə Şimal dənizinin Hollandiyaya məxsus hissəsində böyük neft və xüsusilə də qaz yataqları aşkar edildikdən sonra onların sürətli istismarına və ixracına başlanıb. Həmin dövrdə dünya bazarında qiymətin sürətlə artması ölkəyə külli miqdarda valyuta axınına səbəb olub. Nəticədə Hollandiyada iqtisadi artım sürətlənib, ÜDM-in və büdcənin formalaşmasında neft və qaz





sektorunun xüsusi çəkisi 50-60%-ə, ixracda isə 70%-ə yüksəlib. İlk baxışdan nəzərə çarpan bu pozitiv meyllər qısa vaxtda təhlükəli fəsadların mənbəyinə çevrilib. «Ölkəyə daxil olan külli miqdarda valyuta vəsaiti bir tərəfdən tədiyyə balansının aktivliyini təmin etsə də, digər bir tərəfdən Hollandiyanın Milli valyutası olan quldenin xeyli bahalaşmasına səbəb oldu».[1] Bu bahalaşma yerli sənaye məhsullarının həm daxili, həm də xarici bazarda rəqabət qabiliyyətini aşağı salıb. Nəticədə müəssisələr arasında (xüsusilə kənd təsərrüfatı sənayesində) müflisləşmə artıb, ixtisar olunan işçilərin neft, qaz və xidmət sektoruna, yaxud da başqa sahələrə axını sürətlənib. Neft və qaz sektorunun gəlirlilik səviyyəsi yüksək olduğundan investorlar bu sektora daha çox maraq göstərməyə başlayıb. Bütün bunlar öz növbəsində ölkənin kənd təsərrüfatı, sənayenin qeyri-neft və digər sektorlarında durğunluğa, eləcə də bu sektorlarda iş yerlərinin azalmasına və iqtisadiyyatın təbii sərvətlərdən, xüsusilə neft və qaz sektorundan daha çox asılılığına, eyni zamanda, yoxsulluğun dərinləşməsinə səbəb olub. Neft və qaz sektorunun inkişafı mövcud investisiya vəsaitlərinin inhisarlaşmasına və bu da iqtisadiyyatın digər sahələrinə yönəldilən kreditlərin dəyərinin artmasına və həmçinin azaldılmasına gətirib çıxarıb. Bütün bu qeyd edilənlər də sonda ölkə iqtisadiyyatının birtərəfli inkişaf etməsinə səbəb olub.

Baş verən proseslə bağlı aparılan çoxsaylı elmi-tədqiqat işlərində: təbii sərvətlərin (xüsusilə neft və qazın) ixracından alınan xarici valyutanın iri axını dövlətin milli valyutasına tələbatı artırması; milli valyutanın mübadilə kursunun yüksəlməsi; yerli istehsalın (məhsulların) bahalaşması; onların həm daxili, həm də xarici bazarda rəqabət qabiliyyətinin aşağı düşməsi; idxalın daha sərfəli olması və bazardan yerli məhsulları sıxışdırıb çıxarması və s. bu kimi mənfi hallar «Holland sindromunun»nin əsas simptomları kimi qeyd edilir. Bütün bunları konkretləşdirərək demək olar ki, ölkənin təbii ehtiyatlarının ixracından alınan valyuta gəlirləri yerli valyutaya çevrilməklə onun dəyərini yüksəltdiyi zaman «Holland sindromu» «inkişafa» başlayır.[1]

Göründüyü kimi, «Holland sindromu»nun klassik simptomu «tədavüldə əlavə pul vəsaitlərinin ortaya çıxması ilə müşahidə olunur

---

[1] Svetlana Tsalik Xəzərin neft gəlirləri: qazanan kimi olacaq? Açıq Cəmiyyət İnstitutu Nyu –York, 2003, səh. 35

ki, bu da öz növbəsində normal maliyyə tarazlığının pozulmasına»[2] və digər sahələrdə arzuolunmaz halların baş verməsinə səbəb olur. Ümumiyyətlə, elmi ədəbiyyatlarda «Holland sindromu»u aşağıdakı 7 əlamətinə görə müəyyən edilir:

1) Neft istehsalı və ixracının artmasından əldə edilən neft gəlirlərinin (xarici valyutanın) valyuta bazarına daxil olması nəticəsində milli valyutanın möhkəmlənməsi;
2) Milli valyutanın möhkəmlənməsi nəticəsində ənənəvi ixrac məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsi və ixracın səviyyəsinin azalması;
3) Ənənəvi ticari məhsulların istər daxili, istərsə də xarici bazarda rəqabət qabiliyyətini itirməsi üzündən həmin sahələrdən əmək, kapital faktorlarının digər sahələrə (xidmət və neft sektoruna) axınının sürətlənməsi;
4) Xam neft hasilatının həcminin sürətlə artımı, sənayenin qeyri-neft sektorunda istehsal məhsullarının rəqabət qabiliyyətinin azalması nəticəsində istər iqtisadiyyatın, istərsə də sənayenin sahə strukturunun dəyişməsi və iqtisadiyyatda birtərəfli inkişafın baş verməsi;
5) Əmək və kapital faktorlarının neft və xidmət sektoruna axını əməyin və kapitalın marginal məhsulunun və iqtisadiyyat üzrə səmərəlilik göstəricilərinin səviyyəsinin azalması;
6) İqtisadiyyatda struktur dəyişiklikləri nəticəsində ölkədaxili tələblə təklif arasında tarazlığın pozulması, iqtisadiyyatın idxaldan asılılığının artması və ölkənin tədiyyə qabiliyyətinin zəifləməsi;
7) Dövlət büdcəsinin gəlirlərinin neftdən asılılığının artması və dünya bazarında neftin qiymətinin aşağı düşməsindən büdcənin qarşılaşa biləcəyi təhlükənin dərinləşməsi;

Sadalanan əlamətlərin hər biri Azərbaycan iqtisadiyyatında bu və ya digər gərəcədə müşahidə olunmaqdadır. Onu da qeyd edək ki, sadalanan əlamətlər ölkədə işsizlik və yoxsulluq kimi qlobal problemlərin meydana çıxmasına aktiv təsir göstərir.

[2] 525-ci qəzet 4 fevral 2006-cı il





### 3. «Hollad sindromu»nun Azərbaycanda təzahür olunan əlamətləri

1995-ci ildən başlayaraq Azərbaycan iqtisadiyyatının birtərəfli inkişafı və ölkəyə daxil olan xarici valyutanın həcminin artması, xüsusilə son illərdə valyuta axınının bir qədər sürətlənməsi «Holland sindromu» üçün «münbit şəarit» yaradıb. Bu günə qədər hökumət neft gəlirlərinin iqtisadiyyata mənfi təsirinin, xususilə inflyasiyanın qarşısını almaq üçün bir qayda olaraq monetar siyasətin ən sadə üsulundan istifadə edib. Qeyd edək ki, 2006-cı ilə qədər ifrat dərəcədə sərt pul-kredit siyasəti yeridilib, büdcə kəsiri süni surətdə (neft gəlirləri hesabına) aşağı səviyyədə saxlanılıb, manatın nominal kursu daha çox inzibati üsullarla sabitləşdirilib. Lakin 2005-ci ilin ikinci yarısı və 2006-cı ilin əvvəllindən neft gəlirlərinin daha sürətli axını qarşısında bu siyasət öz effektini itirməyə başlayıb. Bunun nəticəsidir ki, hazırda manat möhkəmlənməkdə davam edir. Bu isə qısa müddət üçün effektli olur. Ölkəyə daxil olan xarici valyutanın həcmi artdıqca, bu siyasət də öz effektini itirir və iqtisadiyyat üçün təhlükəli hallar meydana çıxır».[3]

Təcrübədə böyük neft gəlirlərinin iqtisadiyyata təsirinin ilk növbədə özünü makroiqtisadi göstəricilərdə büruzə verir. Son bir ildə Azərbaycanın makroiqtisadi göstəricilərində baş verən dəyişikliklərin təhlili «Holland sindromu» təhlükəsinin nəinki yaxınlaşdığını, hətta özünün ilkin «inkişaf» mərhələsində olduğunu göstərir. Avropa Yenidənqurma və İnkişaf Bankının Bakıdakı nümayəndəsi Reymond Konvey də Azərbaycandakı iqtisadi vəziyyətlə bağlı KİV-ə öz fikirlərini açıqlayarkən, «artıq ölkədə «Holland sindromu»nun əlamətlərinin göründüyünü» bildirib.

Beləliklə «Holland sindromunun» əvvəldə sadalanan əlamətlərinin hər biri Azərbaycan iqtisadiyyatında bu və ya digər gərəcədə muşahidə olunmaqdadır. Bu əlamətlərdən 3-ü özünü daha qabarıq göstərir. Bunlara:

1) Neft istehsalı və ixracının artmasından əldə edilən neft gəlirlərinin (xarici valyutanın) valyuta bazarına daxil olması nəticəsində milli valyutanın möhkəmlənməsi;

[3] «Yeni siyasət» qəzeti sentyabr 2005

2) Xam neft hasilatının həcminin sürətlə artımı, sənayenin qeyri-neft sektorunda istehsal məhsullarının rəqabət qabiliyyətinin azalması nəticəsində istər ümumilikdə iqtisadiyyatın, istərsə də sənayenin sahə strukturunun dəyişməsi və iqtisadiyyatda birtərəfli inkişafın baş verməsi;
3) Dövlət büdcəsinin gəlirlərinin neftdən asılılığının artması və dünya bazarında neftin qiymətinin aşağı düşməsindən büdcənin qarşılaşa biləcəyi təhlükənin dərinləşməsi;

Qalan 4 əlamətin təzahürlərinə gəldikdə isə onlar özünü qabarıq göstərməsə də, yaxın gələcəkdə neft gəlirlərinin idarə olunmasında ciddi tədbirlər görülməzsə, bununla da özünü göstərəcək. Ona görə də biz özünü daha çox qabarıq göstərən sadaladığımız 3 əlamətin üzərində dayanmağı məqsədəuyğun hesab edirik. Çünki bu əlamətlərin mənfi fəsadlarının qarşısının alınması, digər əlamətlərin baş vermə ehtimalını azalda bilər.

Ümumiyyətlə neft gəlirlərinin ölkə iqtisadiyyatına təsirinin qiymətləndirilməsi kompleks elmi-tədqiqat işlərinin aparılmasını tələb edir. Bu sahədə tədqiqat işlərinin aparılmasını aktuallaşdıran digər cəhət hər bir ölkənin özünəməxsus xüsusiyyətlərinin (sosial və iqtisadi vəziyyəti, milli xüsusiyyətləri, dövlət quruluşu, idarəetmə sistemi və s.) olmasıdır.

## 4. Azərbaycan manatının bahalaşmasının sosial-iqtisadi nəticələri

Dövlətin pul-kredit siyasəti dedikdə onun pul tədavülü və kredit sahəsində həyata keçirdiyi tədbirlər nəzərdə tutulur. Bu siyasətin əsas məqsədi kredit bazarı və pul tədavülünə nəzarət etməkdən, habelə infilyasiyanın qarşısını almaqdan, mövcud iqtisadi şəraiti tənzimləmək və sağlamlaşdırmaqdan ibarətdir.

Qeyd edək ki, son illərdə neftin ixracından alınan xarici valyutanın iri axını pul-kredit siyasətində problemlər yaranmasına səbəb olub. Belə ki, neftin satışından ölkəyə daxil olan xarici valyuta axını son 1,5 ildə manatın mübadilə kursunun yüksəlməsinə təsir göstərib. Milli Bankın məlumatlarına görə, 2005-ci ilin əvvəlinə nisbətən 2006-cı ilin fevral ayında Azərbaycan manatı 6,8% bahalaşıb. 2006-cı il aprel ayının 20-nə olan məlumata görə, bahalaşma keçən ilin





əvvəlinə nisbətən 7,8% olub. Keçən ilin dekabrı ilə müqayisədə isə 2006-cı ilin aprelində bahalaşma 1,6% olub. Belə vəziyyətdə manatın kəskin möhkəmlənməsinə yol verməmək üçün Milli Bank 2005-ci ilin 11 ayı ərzində valyuta bazarına 40,9 mln. ABŞ dolları həcmində müdaxilə edib. Nəticədə rəsmi valyuta ehtiyatlarının həcmi 13% artaraq 1 mlrd. ABŞ dollarına çatıb. Beləliklə, neft gəlirləri ölkədə yüksək iqtisadi artım sürətinin davamlı xarakter almasına, dövlətin iqtisadi gücünün və ölkədə pula fiziki tələbatın artmasının sürətlənməsinə təsir göstərib.

2005-ci ildə manatın xarici valyutalara nəzərən məzənnəsinin möhkəmlənməsi Neft Fondunun aktivlərinə də təsir edib. Nəticədə aktivlərinin yenidən qiymətləndirilməsi Fonda 88,4 milyon AZN-ə başa gəlib. Məlumat üçün bildirək ki, 2006-cı ilin əvvəlinə olan məlumata görə, Neft Fonduna 1,5 mlrd. ABŞ dolları vəsait yığılıb. 2006-cı ildə Milli Bankın valyuta ehtiyatlarında artım müşahidə olunub. Belə ki, Milli Bankın sərəncamında olan valyuta ehtiyatlarının həcmi 2006-cı ilin ilk rübü ərzində ilin əvvəli ilə müqayisədə (961,71 mln. ABŞ dolları) 6,74 % artaraq 1 026,56 mln. ABŞ dollarına catıb.

Qeyd edək ki, 2006-cı ildə dövlət büdcəsi xərclərinin təqribən 60%-i xarici valyutada olan neft gəlirləri hesabına maliyyələşəcək. Bu isə böyük həcmdə xarici valyuta kütləsinin valyuta bazarına daxil olması deməkdir. Deməli, 2006-cı ildə pula tələbin əhəmiyyətli artması baş verəcək ki, bu da bir tərəfdən manatın möhkəmlənməsinə, digər tərəfdən də inflyasiyanın sürətlənməsinə təzyiq göstərəcək. Belə bir şəraitdə baş verə biləcək «holland sindromu»nun qarşısını almaq üçün dövlətin aidiyyatı orqanları nəyin bahasına olursa-olsun makroiqtisadi sabitliyi qoruyub saxlamağa çalışacaq. Lakin hesab edirik ki, «kölgə» iqtisadiyyatının, inhisarçılığın, rüşvətxorluq və korrupsiyanın yüksək olduğu, azad sahibkarlıq və rəqabət mühitinin olmadığı indiki şəraitdə makroiqtisadi sabitliyin uzun müddət qorunub saxlanması (əgər bu prolblemlər vaxtında aradan qaldırılmazsa) ehtimalı azdır. Çünki «kölgə» iqtisadiyyatı səviyyəsinin yüksək olması makroiqtisadi sabitliyin qorunmasına çəkilən xərclərin effektini aşağı salır.

Ümumiyyətlə, Azərbaycanda milli valyutanın real məzənnəsinin yüksəlməsi iki ssenari üzrə baş verir:
1) Milli Bank aktiv şəkildə ölkəyə daxil olan valyutanı alıb əvəzində dövriyyəyə manat kütləsi buraxır. Nəticədə inflyasiya artır və manatın

nisbi sabit məzənnəsi saxlanılmaqla, eyni zamanda onun real məzənnəsi güclənir.

2) Yaxud da valyuta satışı əvəzində MB ölkədə dollar kütləsinin artımına üstünlük verir ki, bu da sabit qiymət fonunda yenə də Milli valyutanın real məzənnəsinin güclənməsinə gətirib çıxarır.[4]

Hesab edirik ki, Azərbaycan üçün ən təhlükəli məqam manatın möhkəmlənməsi və ölkədə inflyasiyanın sürətlənməsi ola bilər. Bununla yanaşı, ölkəyə daxil olan böyük məbləğdə valyuta bir tərəfdən manatın məzənnəsinin möhkəmlənməsinə gətirib çıxarırsa, digər tərəfdən qeyri-neft sektorunun rentabelli işləməsi üçün maneə törədir. Çünki milli valyutanın möhkəmlənməsi nəticəsində ölkədə istehsal olunan məhsullarla müqayisədə, eyni adlı məhsulların ixracı daha ucuz başa gəlir. Bu səbəbdən istehlakçılar onları almağa, iş adamları da həmin məhsulları istehsal etmək əvəzinə onların ticarəti ilə məşğul olmağa üstünlük verirlər. Nəticədə sənayenin qeyri-neft sektoru tənəzzülə uğrayır, işszlik və yoxsulluğun sayı artır, təhsil səviyyəsi aşağı düşür.

Hazırda Azərbaycanın dünya bazarına çıxardığı sənaye məhsullarının xüsusi çəkisi yüksək olmasa da, yerli bazarda, xüsusilə yeyinti məhsulları üzrə müəyyən paya malikdir. Ölkədə yoxsulluq səviyyəsinin yüksək olduğunu və əhalinin pul gəlirlərinin 50%-dən çox hissəsinin ərzağa xərcləndiyini, eyni zamanda ticarət dövriyyəsinin 60%-dən çoxunu ərzaq məhsulları təşkil etdiyini nəzərə alsaq, Azərbaycandakı vəziyyəti daha təhlükəli hesab etmək olar. Çünki manatın möhkəmlənməsi niticəsində aşağı keyfiyyətli və insan orqanizmi üçün təhlükəli olan ərzaq məhsullarının Azərbaycan bazarına daxil olması sürətlənə bilər ki, bu da əhalinin sağlamlığının qorunması baxımından təhlükəlidir. Bununla yanaşı, yeyinti sənayesinin tənəzzülə uğraması ölkənin kənd təsərrüfatı, istehsalat və digər sektorlarında durğunluğun yaranmasına, müəssisələrin müflisləşməsinə və bunun da nəticəsində iş yerlərinin (ö cümlədən yeni yaradılan) ixtisar olunmasına səbəb bilər. Bu da son illərdə neft gəlirləri hesabına iqtisadiyyata, o cümlədən yeni iş yerlərinin yaradılmasına

[4] Əhmədov İ. Neft gəlirləri və makroiqtisadiyat. Gələcəyə nəzər. Cələcək 10 il. Azərbaycanda demokratik islahatların başlıca istiqamət və məqsədləri. II cild «Adiloğlu» Bakı, 2006 səh. 299-300





yönəldilən investsiyaların effektini aşağı salmaqla iqtisadiyyatın neft sektorundan asılılığını daha da dərinləşdirə bilər.

Qeyd edək ki, 2006-cı ilin 1 yanvar tarixində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pul kütləsinin həcmi 16,5%, nağd pul kütləsinin həcmi 14,5%, nağdsız pul kütləsi isə 21,1% artıb. Manatla pul kütləsinin ÜDM-ə nisbəti 2004-cü ildəki 7,4%-dən 2005-ci ildə 6,5%-ə düşüb.

Təcrübə göstərir ki, keçid ölkələrində dövriyyədə olan pul kütləsinin həcmi ÜDM-in 25%-ni təşkil etdikdə, makroiqtisadi tələblərin ödənilməsi problem yaratmır. Qeyd edək ki, Azərbaycanda pul kütləsində nağd pulun payı digər xarici ölkələrdən xeyli yüksəkdir. Nağd pulun payının yuksək olması Azərbaycanda «kölgə» iqtisadiyyatın miqyasının böyüməsinə münbit şərait yaradır.

Cədvəl 2

**Pul kütləsinin quruluşu və dinamikası (mlrd. manat)**

| | Pul kütləsi (M2), mln manat | | | Pul kütləsinin dəyişməsi tempi, faizlə | |
|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən əvvəlki aya | | Əvəlki aya nisbətən | İlin əvvəlinə nisbətən |
| | | Nağd pul (M0) | Nağdsız vəsaitlər | | |
| **01.01.00** | **1404,3** | **1135,8** | **268,5** | **10,6** | **15,3** |
| **01.01.01** | **1629,1** | **1349,8** | **279,3** | **8,3** | **16,0** |
| **01.01.02** | **1755,6** | **1469,0** | **286,6** | **13,1** | **7,8** |
| **01.01.03** | **405,16** | **333,7** | **71,4** | **-77,7** | **-76,9** |
| **01.01.04** | **518,44** | **408,2** | **110,3** | **10,6** | **28,0** |
| **01.01.05** | **683,6** | **477,8** | **205,8** | **10,6** | **31,9** |
| 01.02.05 | 615,22 | 427,3 | 187,9 | -10,0 | -10,0 |
| 01.03.05 | 634,88 | 440,8 | 194,1 | 3,2 | -7,1 |
| 01.04.05 | 634,9 | 442,4 | 192,5 | 0,0 | -7,1 |
| 01.05.05 | 676,36 | 470,4 | 206,0 | 6,5 | -1,1 |
| 01.06.05 | 726,36 | 497,9 | 228,5 | 7,4 | 6,3 |
| 01.07.05 | 770,26 | 534,7 | 235,5 | 6,0 | 12,7 |
| 01.08.05 | 806,68 | 563,1 | 243,5 | 4,7 | 18,0 |
| 01.09.05 | 827,96 | 572,7 | 255,2 | 2,6 | 21,1 |
| 01.10.05 | 838,74 | 603,3 | 235,5 | 1,3 | 22,7 |
| 01.11.05 | 792,78 | 565,3 | 227,5 | -5,5 | 16,0 |
| 01.12.05 | 768,32 | 529,7 | 238,6 | -3,1 | 12,4 |
| **01.01.06** | **796,7** | **547,4** | **249,3** | **3,7** | **16,5** |
| 01.02.06 | 708,2 | 466,2 | 242,0 | -11,1 | -11,1 |

**Mənbə: Azərbaycan Milli Bankının hesabatı, 2006-cı il**

Bəzi ekspertlərin hesablamalarına görə, Azərbaycanda «kölgə» iqtisadiyyatı»nın ÜDM-ə nisbəti 50%-dən (DSK-nin məlumatlarına görə təqribən 20%) yüksəkdir. Müqayisə üçün deyək ki, əgər 1995-2003-cü illərdə Azərbaycanda nağd pulun pul kütləsində payı 1995-ci ildəki 61,4%-dən müntəzəm artaraq 2003-ci ildə 78,7%-ə çatıbsa, 2004-cü ildən bu istiqamətdə müsbət tendensiya müşhahidə olunur. Belə ki, 2004-cü ildə bu göstərici əvvəlki illə müqayisədə 8,7 bənd azalaraq 70%-ə, 2005-cı ildə isə 4,2 bənd azalaraq 65,8%-ə düşüb. Ümumiyyətlə, dünya təcrübəsinə nəzər saldıqda, inkişaf etmiş ölkələrdə nağd pulun pul kütləsində payının 10-20% arasında tərəddüd etdiyini gösrmək olar. Beləliklə, Azərbaycanda nağd pulun pul kütləsində payı inkişaf etmiş ölkələrdən 3-6 dəfə yüksəkdir. Qeyd edək ki, pul kütləsinin 65,8%-nin nağd şəkildə dövriyyədə olması rüşvətxorluq, korrupsiya, vergilərdən yayınma (xüsusilə iri həcmli alqı-satqı əməliyyatlarında) kimi mənfi halların da genişlənməsinə münbit şərait yaradır. Bu da öz növbəsində gizli iqtisadiyyatın inkişafına yol açır. Bundan başqa nağd pulun çox olması gizli və ya qeyri-rəsmi iqtisadiyyatda əsas ödəmə vasitəsi kimi ondan istifadə edilməsinə imkan verir. Bu da fəaliyyəti gizli saxlamağa, vergilərdən və məsuliyyətdən qaçmağa şərait yaradır. Bu səbəbdən təsərrüfat subyektləri qeyri-rəsmi maliyyə əməliyyatlarını nağd pul şəkilində aparmağa üstünlük verirlər. Ona görə də qeyri-rəsmi iqtisadiyyatın miqyası yüksək olan ölkələrdə pul kütləsində nağd pulun xüsusi çəkisi yüksək olur.

Qeyd edək ki, iqtisadiyyatda pul təzyiqini azaltmaq üçün Milli Bank mərhələlərlə uçot dərəcəsini 7%-dən 9%-ə qaldırıb. 2005-ci ildə ilk dəfə olaraq, uçot dərəcəsi 3 dəfə dəyişdirilib. Uçot dərəcəsinin yüksəldilməsinin indiki şəraitdə iqtisadi tsiklin stabilləşdirməsində rolu o qədər təsirli olmasa da, onun dəyişdirilməsi inflyasiya gözləmələrinin müəyyən qədər azalmasına imkan verib. Üçot dərəcələrinin qaldırılması kommersiya banklarının kredit götürməyə marağını azaldır və ölkədə pul üzrə təklifin aşağı düşməsinə səbəb olur. Üçot dərəcələrinin qartırılması, eyni zamanda, kredit götürən bankların sənaye şirkətlərinə borc verərkən borc faizini yüksəltmək məcburiyətində qoyur və nəticədə börc götürmək imkanı olmayan və ya onun effektsiz olduğunu görən şirkət istehsalı ixtisar etmək məcburiyyətində qalır. Göründüyü kimi, uçot dərəcələrinin qaldırılması bir tərəfdən inflyasiyanın qarşısını





almaqda effektli metod hesab olunsa da, digər tərəfdən istehsalın aşağı düşməsinə, yerli istehsal məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsinə, işçsizliyin artmasına və s. bu kimi mənfi tendensiyaların meydana gəlməsinə səbəb olur.

Qeyd edək ki, 2005-ci ildə manatın revalvasiyası qeyri-neft sektorunun inkişafı baxımından adekvat olmasa da, bu mühüm antiinflyasiya faktoru olub. 2005-ci ildə revalvasiya baş verməsəydi, dövriyyəyə daha çox pul kütləsi daxil olar, daha böyük emissiya baş verər, daha yüksək inflyasiya olardı. Yüksək inflyasiya isə revalvasiyaya nisbətən daha təhlükəlidir, çünki, inflyasiya həm ixracatı, həm də daxili istehsalı birbaşa bahalaşdırır.

Yuxarda aparılan təhlildən də göründüyü kimi Azərbaycanda dövriyyədə olan manatın kütləsi (ÜDM-ə nisbətdə) yüksək deyil. Belə bir şəraitdə manatın kütləsini azaltmaqla inflyasiyaya qarşı mübarizəyə başlansa, qiymətlər yox, Azərbaycan üçün əhəmiyyətli olan bir sıra məhsullar üzrə istehsal aşağı düşəcək. Üstəlik kreditlər bahalaşacaq, qeyri- neft sektorunda yeni istehsal müəssisələrinin və iş yerlərinin yaradılması imkanları məhdudlaşacaq, əmək haqqı və pensiyaların gecikdirilməsi halları artacaq, əhalinin həyat səviyyəsi daha da pisləşəcək. Bununla yanşı iqtisadiyyatın dollarlaşması daha da güclənəcək, qarşılıqlı borclar və idxal artacaq. Belə bir təhlükənin yaranması isə nəticə etibarə ilə heç də inflyasiyadan geri qalmır. Çünki əmək haqqı və pensiyaların verilməsində gecikmələrin yenidən başlanmasından daha çox büdcə təşkilatlarında çalışan az maaşlı təbəqə və pensiyaçılar əziyyət çəkəcəklər ki, bu da sosial partlayışın baş verməsi ehtimalını artırır.

### 5. Əhalinin pul gəlirlərinin artmı və inflyasiya sürəti

Məlum olduğu kimi, neft gəlirləri əhalinin pul gəlirlərinin artmasına birbaşa və dolayısı ilə təsir göstərir. Bu banklar, 2004-cü illə müqayisədə əhalinin nominal pul gəlirlərinin 27% artarq 7792,3 mln. manata, adambaşına düşən pul gəlirlərinin 25,7% artaraq 942 manata çatdırılmasında sözsüz ki, neft gəlitrləriinqin çox böyük rolu olub. Eyni zamanda, neft gəlirləri orta aylıq nominal əmək haqqının da artmasına təsir göstərib. 2004-cü illə müqayisədə 2005-ci ildə orta aylıq nominal əmək haqqı 21,9% artaraq 99,4 AZN-dən 117,9 AZN-ə çatıb. Neft

amilinin büdcə gəlirlərində əhəmiyyətini nəzərə alaraq, əhalinin pul gəlirlərinin artmasında (büdcə təşkilatlarında əmək haqqının artımı. pensiya və sosial müavinətlərin artımı və s.) da mühüm rol oynadığını demək olar. 2003-cü ilin sentyabr ayında minimum əmək haqqı (MƏH) demək olar ki, 2 dəfə artırılıb (27500-dən -45000-ə) və bu artım davam edərək 2004-cü il 1 yanvar tarixində 60000 AZM-ə və 2004-cü ilin iyul ayında 100000 AZM-ə qədər yüksəlib. 2005-ci ilin yanvar ayında isə ifrat yoxsulluq həddinin dəyəri olan 125000 AZM-ə bərabər olub[5][s 39]. Hazırda MƏH 150 min manat təşkil edir. Lakin əhalinin pul gəlirlərinin artması ilə yanaşı inflyasiynın da sürətlənməsi, bu artımları inflyasiyanın yeminə çevirib. Qeyd edək ki, rəsmi olraq 2005-ci ildə inflyasiya səviyəsi 9,7% göstərilir. Reallıqda isə inflayasiya 15%-dən yüksək olub. Ekspertlər bunun hətta 25% olduğunu bildirirlər. Bu da əhalinin pul gəlirlərinin real alıcılıq qabiliyyətini aşağı salır. 2005-ci ildə əhalinin real pul gəlirləri 7109,7 mln. manat (nominal 7792,3), adambaşına real pul gəlirləri 859 manat (nominal 942 manata), real orta aylıq əmək haqqı 107,5 manat (8,5%) artım təşkil edib. Göründüyü kimi, bu dövrdə inflaysiyanın da sürətlənməsi nəticəsində əhalinin real alıcılıq qabiliyyəti aşağı düşüb. Əhalinin yoxsulluq səviyyəsində yaşadığını, pul xərclərinin 60%-dən çox hissəsinin ərzaq məhsulları təşkil etdiyini və inflyasiyanın ərzaq məhsullarında payının 80%-ə çatdığını, eyni zamanda, inflyasiyanın rəsmi göstəriləndən yüksək səviyyədə olduğunu nəzərə alsaq, onda əhalinin pul gəlirlərinin əvvəlki illərlə müqayisədə real artımı 12,3% təşkil edəcək. Deməli, bu artımlar yalnız statistik göstəricilərdə öz əksini tapır. Reallıqda isə əhalinin həyat səviyyəsinə təsiri o qədər də böyük deyil.

Bundan başqa, tədiyyə balansının müsbət saldosu ölkəyə daxil olan valyutanın həcminin ölkədən çıxarılan valyutanın həcmini üstələməsi, bu fərqin daxili valyuta bazarına əlavə təzyiqi deməkdir. 2004-cü ildən başlayan və 2005-ci ildə davam edən, dövlətin mühüm sosial-iqtisadi inkişaf vəzifələrinin həllinə yönələn fiskal siyasət valyuta bazarında dollar təklifinin tələbi xeyli üstələməsi müşahidə olunub. Bununla yanaşı neft gəlirlərindən kütləvi istifadə yaxın perspektivdə inflyasiya təhlükəsi yaradırsa, orta və uzun perspektivdə «Holland sindromu» effekti yaradar.[6] 2004-cü il üçün inflyasiya səviyyəsi 2-3%

[5] YAİİDP icra hesabatı 2003/2004 Bakı 2005

[6] "Gündəlik Azərbaycan" qəzeti, 8 oktyabr 2005,





arasında proqnozlaşdırılsa da onun orta illik səviyyəsi rəsmi 6,7% (2003-cü ildə olduğundan 4,5 bənd yüksək), qeyri-rəsmi isə 10%-dən yüksək olub. 2005-ci ilin əvvəlindən isə inflaysiya daha da sürətlənərək 9,6%-ə (qeyri rəsmi 15%-dən yüksək) yüksəlib.




Qrafik 1. İstehlak qiymətləri indeksi (əvvəlki ilin müvafiq dövrünə nisbətən)

2005-ci ilin noyabr ayında əvvəlki ilin müvafiq ayına nisbətən ərzaq mallarının inflyasiyada iştirak payı 80,7%, o cümlədən çörək, çörək məhsulları və yarmanın payı 3,6%, ət və ət məhsullarının payı 55,9%, meyvə-tərəvəz məhsullarının payı 20,3%, yağ və piy 2,2%, süd və yumurta 2,8%, şəkər və çay 2,2%, içkilər və tütün 0,9% təşkil edib. Qeyri-ərzaq məhsullarının payı 7,7%, xidmətlərin payı 11,6% olub. Qeyri-ərzaq malları və xidmətlərin bahalaşması inzibati yolla tənzimlənən qiymətlərin (qaz, elektrik enerjisi, su, neft və neft məhsulları) artırılması hesabına baş verib.[7] (Bax cədvəl 2).

[7] Milli Bankın inflyasiya prosesləri ilə bağlı hesabatları, 2006.

Cədvəl 3

**2005-ci ilin noyabr ayında əvvəlki ilin müvafiq ayına nisbətən inflyasiyanın istehlak zənbilinin komponentləri üzrə paylanması, %-lə**

| | İstehlak zənbilində xüsusi çəkisi |
|---|---|
| | A |
| İstehlak qiymətləri, cəmi | 100 |
| Ərzaq məhsulları | 53,9 |
| Çörək və yarma | 10,3 |
| Ət, quş əti və balıq | 14,3 |
| Süd və yumurta | 4,1 |
| Yag və piy | 6,2 |
| Meyvə və tərəvəz | 11,0 |
| Şəkər, çay, ədviyyat | 5,4 |
| İçkilər və tütün | 2,6 |
| Qeyri-ərzaq malları | 27,9 |
| Xidmətlər | 18,2 |

**ADSK-nın İQİ üzrə məlumatları və AMB-nin hesablamaları**

Azərbaycanda inflyasiyanın yenidən baş qaldırmasının əsas köklü səbəbi nədir? Fikrimizcə, səbəblər islahatların ləng və yarımçıq həyata keçirilməsi, onun hüquqi, iqtisadi, sosial, institusional və s. səmərəsinin aşağı olması, iqtisadi cinayətkarlığın yüksək olması, eləcə də azad sahibkarlıq, azad qiymətlər və azad rəqabətə əsaslanan və səmərəli fəaliyyət göstərən bazar münasibətlərinin qərarlaşmaması ilə əlaqədardır. Azərbaycan bazarı sivil bazar münasibətlərindən fərqli olaraq, daha çox inhisarçıların bazardakı davranışları, kölgə iqtisadiyyatının strukturları, kriminallaşmış vasitəçilik fəaliyyəti və s. ilə tənzimlənir.

Maraqlıdır ki, 2006-cı il 1 yanvar tarixinə dövriyyədə olan manat kütləsi ÜDM-in çox az hissəsini, yəni cəmi 6,7%-ni təşkil edir. Bu yüksək inflyasiya törədə biləcək həddən 3-4 dəfə azdır və onun inflyasiyanı ikirəqəmli (rəsmi birrəqəmli səviyyə göstərilir) həddə keçməsinə gücü çatmaz. Deməli, bazara çirkli (bu neft pulları da ola bilər) pullar daxil olur. Çirkli pulların bu cür xaotik bazara atılması onun yuyulma tezliyini, sözsüz ki, bu da inflyasiyanın sürətlənməsinə öz təsirini göstərir. Bundan başqa torpağın, tikililərin, mənzilin qiymətinin süni surətdə artırılması digər sahələrdə də qiymətlərə təsir edir.

Beləliklə, «Holland sindromu»nun «müalicə olunması» üçün pul-kredit siyasəti təkmilləşdirilməlidir. Belə ki, özəl sektora verilən





kreditlərin səmərəliliyinin artırılması, dövlət banklarının xüsusi çəkisinin azaldılması, əhalidə əmanət qoyuluşuna inamı artırmaqla cəlb edilən əmanətlərin həcminin artırılması, maliyyə kapitalını ölkədən çıxarıb əvəzində yeni texnika və texnologiyaların gətirilməsi və s. bu kimi tədbirlərin həyata keçirilməsi vacibdir. Bu halda ölkədə məşğulluq səviyyəsnin yüksəldilməsinə və əhalinin məşğulluqdan gələn gəlirlərinin artmasına müsbət təsir göstərə bilər.

## 6. Dövlət büdcəsinin gəlirləri və xərcləri

Qeyd etdiyimiz kimi «Holland sindromu»nun təhlükəli hesab olunan əlamətlərindən biri də dövlət büdcəsinin neft gəlirlərindən asılılığının artmasıdır. Büdcə gəlirlərinin sürətlə artması büdcədən sosial müdafiə xərclərinin də artmasına şərait yaradır. Lakin dünya bazarında neftin qiymətinin kəskin azalması büdcənin sosial təminat xərclərinə təsir göstərə bilər ki, bu da sosial partlayışla nəticələnər.

Statistik təhlil 2003-2005-ci illərdə büdcənin gəlirlərində nəzərəçarpacaq dərəcədə artım baş verdiyini göstərir. Belə ki, 2002-ci illə müqayisədə 2003-cü ildə büdcəninin gəlirləri 34,1% artaraq 6104,5 mlrd. manat və ya 1243,1 mln. ABŞ dolları olub. 2004-cü ildə isə 2003-cü illə müqayisədə büdcə gəlirləri 23,6% artaraq 7547,3 mlrd. manat və ya 1515,6 mln. ABŞ dolları təşkil edib. 2005-ci ildə isə büdcə gəlirləri 38,8% artaraq 2055,2 mln. AZN olub. 2006-cı ilə isə büdcə gəlirləri 2005-ci ilin büdcəsindən 65,7% çox, yəni 3406 milyard manat proqnozlaşdırılıb.

2005-ci ildə büdcəyə vergi daxilolmalarının 38%-i (2711 mlrd. manat) neft sektorunun payına düşüb. Ümumiyyətlə, aparılan hasablamalar büdcə gəlirlərinin 40-50%-nin neft və neft sektoru ilə bağlı olan sahələrin hesabına formalaşdığını göstərir. Yaxın gələcəkdə isə büdcənin neft amilindən asılılığının 70%-ə çatacağı gözlənilir.

Son bir neçə ildə ARDNF-dən büdcəyə edilən transfertlər büdcə kəsirini minimuma endirib, hətta süni şəkildə artırılmasına şərait yaradıb. Belə ki, büdcəyə 2003-cü ildə 100 mln. (büdcə gəlirlərinin 8,1%-i), 2004-cü ildə 132,6 mln. (büdcə gəlirlərinin 8,8%-i) ABŞ dolları olub. 2005-ci ildə isə büdcəyə 150 mln. (büdcə gəlirlərinin 7%-i) ABŞ dolları transfert edilib. Nəticədə 2005-cü ildə ÜDM-in 0,7%-i qədər

büdcə kəsiri yaranıb. Əgər ARDNF-in büdcəyə transfertlərini büdcə kəsinin bağlanması kimi qəbul etsək, onda büdcənin kəsiri 8%-ə qədər yüksələr. Bundan başqa ARDNF-in aktivlərinin istifadəsindən əldə olunan gəlirlərdən ödənilən vergiləri nəzərdən keçirsək, büdəcənin formalaşmasında neft gəlirlərinin əhəmiyyətli rol oynadığını bir daha görmək olar. Qeyd edək ki, başqa Fondun gəlirlərindən mənfəət vergisi şəklində dövlət büdcəsinə vəsait daxil olub. 2006-cı ildə Neft Fondundan büdcəyə transfertlər 585 milyon manat olacaq ki, bu da büdcə gəlirlərinin 17,2%-i, Fondun xərclərinin isə 61,3%-i deməkdir. Hesablamalara görə, 2006-cı ilin büdcə artımında Neft Fondundan transfertlərin payı 43,3%, ARDNŞ-dən vergi daxilolmaları 16,7% təşkil edəcək. Əgər bura dünya bazarında neftin qiymətinin artmasından, BTC-nin işə düşməsindən, mənfəət neftinin artmasından və s. bu kimi əməliyyatlardan gələn gəlirləri də əlavə etsək, onda bu artımın bütövlükdə neft sektoru hesabına baş verəcəyini demək olar. Məlumat üçün bildirək ki, 2006-cı ilin büdcəsində neftin qiyməti 40 dollar müəyyən edilib. Yeni qaydaya görə, Azərbaycan Respublikasında istehsal edilən və qiyməti tənzimlənən məhsulların ixracı zamanı məhsulların satış qiyməti ilə ölkə daxilində topdansatış qiyməti arasındakı fərqin 25%-i dövlət büdcəsinə ödəniləcək.

Dünya bazarında neftin qiyməti 40 dollardan 50 dollara qədər olduqda onun 40 ABŞ dollarından yuxarı hissəsinin 50%-i ARDNF-ə, 25%-i dövlət büdcəsinə, 25%-i isə Neft Şirkətinə ödəniləcək. Əgər neftin qiyməti 50 dollardan yüksək olarsa, onlda 50 ABŞ dollarından yuxarı hissəsinin 75%-i Dövlət Neft Fonduna 25%-i isə Neft Şirkətinə ödəniləcək. Bundan başqa, ABƏŞ bu ildən etibarən Dövlət büdcəsinə mənfəət vergisi ödəyəcək. Mütəxəssislərin hesablamalarına görə, neftin qiyməti indiki səviyyədə qalacağı təqdirdə ABƏŞ dövlət büdcəsinə 220 mln. dollar məbləğində vəsait ödəyəcək. Sözsüz ki, bütün bunlar 2006-cı ildə büdcənin neft gəlirlərindən asılılığını daha da artıracaq. Lakin burada dünya bazarında qiymətin kəskin düşmə ehtimalı az olsa da, Azərbaycan neftinin və neft gəlirlərinin azalma ehtimalı var ki, bu da təhlükəli faktor hesab olunur.

Çox vaxt dövlətin iqtisadiyyatın inkişaf etdirilməsi və yeni iş yerlərinin yaradılması üçün neft və qaz gəlirlərindən kredit kimi istifadə etmək səyləri mənfi nəticə verir. Adətən, kreditlər siyasi üstünlüklər





əsasında verilir və gəlirsiz müəssisələrin inkişafına yönəldilir. Hazırda Azərbaycanda da bu hallar müşahidə olunur.

Fikrimizcə, indiki «neft bumu» şəraitində qeyri-neft saldosu vergi-büdcə siyasətinin əsas hədəfi olmalıdır. Məlumat üçün bildirək ki, qeyri-neft defisiti konsepsiyası ilk dəfə Norveçdə həyata keçirilib. Qeyd edək ki, Norveçdə neft sektorundan daxil olan bütün gəlirlər Dövlət Neft Fonduna (Norvegian State Petroleum Fund), qeyri-neft sektorunun bütün gəlirləri isə dövlət büdcəsinə daxil olur. Dövlət xərclərinin qeyri-neft gəlirlərindən artıq olduğu zaman yaranan büdcə defisiti (struktur defisiti) Neft Fondundan transfert hesabına örtülür. Qazaxıstanda da onun həyata keçirilməsi isçtiqamətində işlər görülür və 2007-ci il yanvarın 1-dən etibarən (tarix hələ təxminidir) respublikanın neft sektorunun bütün gəlirləri birbaşa Milli Fonda daxil olacaq. Sonradan isə bu vəsaitlərin bir hissəsi zərurət yarandığı təqdirdə parlamentin təsdiqindən sonra və investisya layihələrinin maliyələşməsinə - inkişaf proqramına xərclənəcək.

Hesab edirik ki, Azərbaycanda da bu sistemin tətbiq edilməsi qeyri-neft sektorunun inkişafını daha düzgün izləməyə və problemlərin vaxtında aradan qnaldırılmasına imkan verər.

### 7. Holland sindromu ilə Azrbaycan iqtisadiyyatında baş verənlər arasında oxşar və fərqli cəhətlər

Ümumilikdə aparılan tədqiqatın nəticələrinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, neft gəlirlərinin ölkə iqtisadiyyatına təsirində «holland sindromu» ilə müəyən oxşarlıqlar olsa da, eyni zamanda, bu amillər müəyən məqamlarda bir-birindən fərqlənir.

Oxşar cəhətləri:

Birinci əlamət: Neft istehsalı və ixracının artmasından əldə edılən neft gəlirlərinin (xarici valyutanın) valyuta bazarına daxil olması nəticəsində milli valyutanın möhkəmlənməsi;

İkinci əlamət: Xam neft istehsalının həcminin sürətlə artımı, sənayenin qeyri-neft sektorunda istehsal məhsullarının rəqabət qabiliyyətinin azalması nəticəsində istər iqtisadiyyatın, istərsə də sənayenin sahə strukturunun dəyişməsi və iqtisadiyyatda birtərəfli inkişafın baş verməsi;

*Üçüncü əlamət:* Dövlət büdcəsinin gəlirlərinin neftdən asılılığının artması və dünya bazarında neftin qiymətinin aşağı düşməsindən büdcənin qarşılaşa biləcəyi təhlükənin dərinləşməsi;

Bunlarla yanaşı bu əlamətlərin bəziləri var ki, burada vəziyyət Hollandiyadan fərqlənir. Məsələn, ÜDM-in strukturu ilə bağlı onu qeyd etmək olar ki, Holandiyada neft və qaz ixracına başlandıqdan sonra, inkişaf etmiş qeyri-neft sektorlarının tənəzzülü başlayıb. Azərbaycanda isə qeyri-neft sektoru elə müstəqilliyin ilk illərindən tənəzzülə başlayıb. O dövrdə neft sektoru inkişaf etməmişdi. Əksinə, bu sektor da özünün tənəzzül dövrünü yaşayırdı. 1995-ci ildə neft müqavilələrinin bağlanması, Azərbaycana daxil olan investisiyalar, bonusların ödənilməsi və s. neft sektorunun inkişafına səbəb oldu. Neft sektoru ilə müqayisədə isə qeyri-neft sektorunun inkişafı kəskin geri qalırdı. Bu da sonda iqtisadiyyatın birtərəfli inkişafı ilə nəticələndi.

Fərqli cəhətləri:

1) Korrupsiya
2) Kölgə iqtisadiyyatının yüksək olması;
3) İqtisadi və siyasi hakimiyyətin bir əldə cəmləşməsi;
4) Qeyri-neft sektorunda azad sahibkarlıq mühitinin olmaması.

Ona görə də elə bu gün Azərbaycan iqtisadiyyatında baş verənləri «Holland sindromu» deyil «Nolland-Azərbaycan sindromu» adlandırmaq olar.

Beləliklə, yuxarda aparılan statistik və sosioloji sorğu araşdırmalarının nəticələri Azərbaycanda «Nolland-Azərbaycan sindromu»nun baş verdiyini deməyə əsas verir. Əgər əldə olunan neft gəlirlərindən səmərəli istifadə olunmazsa, yaxın gələcəkdə bu daha kəskin xarakter ala bilər.





# III FƏSİL

# AZƏRBAYCANDA YOXSULLUQ

## 1. Minilliyin Bəyannaməsi və Azərbaycanın götürdüyü öhdəliklər

### Minilliyin Bəyannaməsi.

Son dövrlər bütün dünyada yoxsulluq insan inkişafına mənfi təsir göstərən ümumbəşəri problem kimi önə çəkilir. Yoxsulluğu ümumbəşəri problemə çevirən amil insanın yaşaması üçün zəruri olan nemətlərdən məhrum olmasıdır. Başqa sözlə, yoxsulluq insanın yaşaması üçün zəruri olan məhsul (ərzaq və qeyri-ərzaq) və xidmətlərdən (kommunal, təhsil, səhiyyə xidmətləri) məhrum olması deməkdir. Əhalinin əksər hissəsinin bu məhrumiyyətlərlə qarşılaşması ölkədə insan potensialının formalaşması və inkişafına (gözlənilən ömür müddətinin azalmasına, əhalinin təhsil və sağlamlıq səviyyəsinə) mənfi təsir göstərir. Bütün bu amilləri nəzərə alan beynəlxalq təşkilatlar 1990-cı ildən başlayaraq bu istiqamətdə elmi-tədqiqat işləri aparır, hesabatlar hazırlayır və müxtəlif tədbirlər həyata keçirirlər. Belə hesabatlardan biri də «İnsan İnkişafı Haqqında» hesabatdır. İnsan İnkişafı Haqqında ilk beynəlxalq hesabat 1990-cı ildə hazırlanıb. Dünya Bankının (DB) bu hesabatlarında da yoxsulluq bəşəriyyətin qarşısında duran ən vacib problemlərdən biri kimi qiymətləndirilib. Hazırda yoxsulluq dünyanın bir çox ölkələrində, xüsusilə Afrika və Asiya ölkələrinin əksəriyyətində çox ciddi problem olaraq qalmaqdadır.

Dünya Bankının hazırladığı «Dünyanın İnkişafı Haqqında» məruzəyə (2000/2001) əsasən, XXI əsrin başlanğıcında dünya əhalisinin demək olar ki, yarısının (2.8 milyard nəfər) gündəlik gəliri 2 ABŞ dollarından, 1.2 milyard nəfərin gündəlik gəliri isə 1 ABŞ dollarından aşağıdır. Doğulan hər 100 uşaqdan 6-sı bir yaşa, 8-i isə 5 yaşa çatanadək tələf olur. Məktəb yaşına çatmış hər 100 uşaqdan 23-ü təhsil almaq imkanından məhrumdur.

Bunları nəzərə alan dünya ölkələrinin əksəriyyəti, o cümlədən. dünyanın nüfuzlu beynəlxalq təşkilatları 1990-cı ildən başlayaraq yoxsulluq probleminin həllini mühüm məsələ kimi qarşıya qoyaraq

dünyada yoxsulluğun azaldılması istiqamətində səyləri birləşdirməyə çalışırlar. Bu məqsədlə müxtəlif ölkələrdə xüsusi proqramlar qəbul edilir və onların həyata keçirilməsinə yardım göstərilir.

«2000-ci ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının təşəbbüsü ilə 183 millətin və 147 dövlətin nümayəndələrinin iştirak etdiyi Minilliyin Sammiti keçirildi. Sammitdə bütün dünyada yoxsulluğun azaldılması və insan inkişafının təmin edilməsi üçün səylərin birləşdirilməsi məqsədilə Minilliyin Bəyannaməsi qəbul edildi. Buna müvafiq olaraq Minilliyin İnkişaf Məqsədləri (MİM) müəyyənləşdirildi. Bütövlükdə MİM çərçivəsinə 8 məqsəd, 18 hədəf, 48 göstərici daxildir və hədəflərin əksəriyyəti 1990-cı ildən 2015-ci ilə qədər 25 ildən artıq müddəti əhatə edir».[8]

Qeyd edək ki, Minilliyin Bəyannaməsinin əsas məqsədi 2015-ci ilədək insanların həyat şəraitinin yaxşılaşdırılmasıdır.

Bütün dünyada yoxsulların sayını azaltmaq üçün MİM-də aşağıdakı məqsədlər müəyyən edilib:

1. İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq;
2. Ümumi ibtidai təhsilə nail olmaq;
3. Gender bərabərliyini inkişaf etdirmək və qadınların hüquqlarını genişləndirmək;
4. Uşaq ölümü hallarını azaltmaq;
5. Anaların sağlamlığını qorumaq;
6. İİÇV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;
7. Ətraf mühitin qorunmasını təmin etmək;
8. Qlobal tərəfdaşlığı inkişaf etdirmək;

Bu problemləri həll etmək üçün hazırda dünyanın 70-ə yaxın ölkəsində yoxsulluğun azaldılması üzrə strategiyanın hazırlanması və həyata keçirilməsi prosesi gedir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, yoxsulluğun azaldılmasında makroiqtisadi sabitliyin əldə olunması və bazar prinsiplərinə əsaslanan iqtisadiyyatın formalaşmasına yönəlmiş islahatların həyata keçirilməsi həlledici rol oynayır.

[8] «Minilliyin İnkişaf Məqsədləri» Bəyannaməsi





**Azərbaycanın öhdəlikləri.**

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiyasına geniş imkanlar yaranıb. Lakin müstəqilliyin ilk illərində bütövlükdə cəmiyyətdə baş verən sosial-iqtisadi böhran yoxsulluğun dərinləşməsinə səbəb olub. 1995-ci ildə hazırlanan və əsasən keçid dövrünün insanlara göstərdiyi təsirlərin təhlil olunduğu «İnsan İnkişafı Haqqında» ilk hesabatda, eləcə də sonrakı hesabatlarda (1996-2003-cı illərdə) Azərbaycanda dərin yoxsulluq probleminin mövcudluğunu ortaya qoyub.

Məhz buna görə də dünyada yoxsulluğun azaldılması strategiyasını reallaşdırmaq məqsədilə BMT-nin Baş Assambleyasının 2000-ci ildə qəbul etdiyi Minilliyin Bəyannaməsinə Azərbaycan da qoşulub və Minilliyin İnkişaf Məqsədləri (MİM) çərçivəsində ölkədə yoxsulluğun azaldılması və insan inkişafının təmin edilməsi üzrə öz üzərinə öhdəlik götürüb. Bu öhdəlik «dünya ictimayyətinin 2015-ci ilədək insanların həyat şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması ilə bağlı səylərinin bir istiqamətə yönəldilməsini təmin edən 8 məqsədi əhatə edir.

Bundan sonra yoxsulluğun azaldılması Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin başlıca məqsədi hesab edilərək Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 2 mart tarixli sərəncamı ilə Baş nazirin sədrliyi ilə yoxsulluğun azaldılması sahəsində Dövlət Proqramının hazırlanması üçün Xüsusi Dövlət Komissiyası yaradılıb. Komissiyanın hazırladığı aralıq sənəd 2001-cı ilin iyul ayında BVF və DB tərəfindən bəyənilib. Əsas sənədin hazırlanması məqsədilə hökumətin, qeyri-hökumət təşkilatlarının və cəmiyyətin digər təbəqələrinin nümayəndələrindən ibarət 15 sahə üzrə işçi qrupu təşkil olunub. İşçi qruplarının, donorların bu prosesdə fəaliyyətini və iştirakını əlaqələndirmək məqsədilə İqtisadi İnkişaf Nazirliyində yerli və xarici ekspertlərin təmsil olunduğu Katiblik yaradılıb.

Minilliyin Bəyannaməsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 saylı Fərmanı ilə «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı» da təsdiq edilib.

Dövlət Proqramında nəzərdə tutulan bütün tədbirlərin mövcud maliyyə imkanlarına uyğunluğu müvafiq maliyyə mənbələrin Ortamüddətli Xərclər Strategiyasında nəzərə alınıb və tədbirlərin

həyata keçirilməsinə monitorinq nəzarəti üçün göstəricilər müəyyən edilib. Dövlət Proqramının hazırlanması zamanı qarşıya qoyulan məqsədlərin BMT-nin Minilliyin Bəyannaməsində nəzərdə tutulan məqsədlərə uyğunluğu da nəzərə alınıb. Aşağıdakı cədvəldə bu uyğunluq əks olunub.

Cədvəl 1

| Minilliyin Bəyannaməsi üzrə müəyyənləşdirilən məqsədlər | Azərbaycanın götürdüyü öhdəliklər |
|---|---|
| 1.İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq | 1. Yoxsulluğu azaltmaq; |
| 2. Ümumi ibtidai təhsilə nail olmaq | 2. Ümumi orta təhsildə yüksək göstəricilərə nail olmaq; |
| 3. Gender bərabərliyini inkişaf etdirmək və qadınların hüquqlarını genişləndirmək | 3. Gender bərabərliyini inkişaf etdirmək və qadınların hüquqlarını genişləndirmək; |
| 4.Uşaq ölümü hallarını azaltmaq | 4. Uşaq ölümü hallarını azaltmaq |
| 5.Anaların sağlamlığını qorumaq | 5. Anaların sağlamlığını qorumaq; |
| 6.İİÇV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq | 6. İİÇV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq; |
| 7.Ətraf mühitin qorunmasını təmin etmək | 7. Ətraf mühitin qorunmasını təmin etmək; |
| 8.Qlobal tərəfdaşlığı inkişaf etdirmək | 8. Qeyri-neft sektoruna birbaşa xarici investisiya qoyuluşunu artırmaq; |

Dövlət Proqramı 3 illik dövrü (2003-2005-ci illəri) əhatə edir və hər il nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin monitorinqindən və onların səmərəliliyindən asılı olaraq, buraya müvafiq dəyişikliklər edilir.

2003-2005-ci illər ərzində Dövlət Proqramı Katibliyi icra prosesinin əlaqələndirilməsi və monitorinqinin aparılmasını həyata keçirib.





## 2. Proqramın hüquqi mahiyyəti

«Proqram» yunan sözü olub «elan», «sərəncam», «niyyət» mənasını verir. Proqram nəzərdə tutulan fəaliyyət planı, əsas məqsəd və vəzifələrin şərhidir. Proqramlar forma və qarşıya qoyulan məqsədlərə nail olmaq baxımından müddətli olsalar da, strateji hədəflər baxımından sabit ola bilərlər. Proqramlar qəbul edilmə subyektlərindən, güddükləri niyyət və məqsədlərdən, həll etdikləri məsələlərin mahiyyətindən asılı olaraq bir-birindən fərqlənirlər.

İctimai münasibətlərin tam hüquqlu subyekti kimi dövlətin qəbul etdiyi proqramlar özünün spesifik əlaməti - məcburetmə mexanizmi, başqa sözlə, hüquqi qüvvəsi ilə seçilir. Belə ki, Mülki Məcəllənin 43.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikası mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edir. Bu hallarda Azərbaycan Respublikasının səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər. Dövlət adından proqramı təsdiq edən hakimiyyət orqanının aktından asılı olaraq, proqramlar müvafiq hüquqi qüvvəyə malik olurlar.

Konkret problemlər və onların həlli yollarını nəzərdə tutan proqramlar, bir qayda olaraq, müddətli olur. Nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi prosesindən asılı olaraq, proqlamlara vaxtaşırı dəyişikliklər edilə bilər. Həmin dəyişikliklər proqramın təsdiq edilməsi qaydasında həyata keçirilir. Yəni əgər proqram Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunubsa, ona əlavə və dəyişikliklərin edilməsi də Nazirlər Kabinetinin qərarı ilə mümkündür.

Müvafiq normativ hüquqi aktla təsdiq olunduqdan sonra həmin aktın hüquqi qüvvəsini alan və bununla da qanunvericilik sisteminə daxil olan dövlət proqramları tənzimlədiyi münasibətlərin subyektləri üçün məcburi xarakter daşıyır. Normativ xarakterli sənəd olaraq dövlət proqram-larının digər normativ hüquqi aktlarla oxşar və fərqli cəhətləri var.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 saylı Fərmanı ilə «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı» təsdiq edilib. Yəni Dövlət Proqramının prezidentin fərmanı səviyyəsində Azərbaycan Respublikasının qanunvericilik

sistemində müvafiq yer tutması onun normativ hüquqi aktlarla oxşarlığı kimi qiymətləndirilməlidir.

Dövlət Proqramının digər oxşar cəhəti müvafiq dövlət qurumları üçün tapşırıqlar müəyyən etməsidir. Bu tapşırıqların icrası həmin qurumlar və onların vəzifəli şəxsləri üçün məcburedici xarakter daşıyır.

Daha sonra, Dövlət Proqramının normativ hüquqi aktlar qəbul etmək səlahiyyəti verilmiş müvafiq dövlət hakimiyyəti orqanı tərəfindən təsdiq olunması da onun hüquqi mahiyyətinin oxşar cəhətlərindəndir.

- Dövlət Proqramının digər normativ hüquqi aktlardan fərqlərini aşağıdakı kimi səciyyələndirmək olar:

- Dövlət Proqramı konkret vəzifələrdən ibarətdir. Yəni həmin vəzifələrin icrası fərmanın qüvvədən düşməsinə səbəb olacaqdır. Digər normativ hüquqi aktlar isə, onların tənzimlədiyi məsələlər icra olunduqda belə, öz hüquqi qüvvəsini saxlayırlar.

- Dövlət Proqramı digər normativ hüquqi xarakterli aktlardan fərqli olaraq, oxşar münasibətlərin tənzimlənməsində dəfələrlə tətbiq oluna bilmək kimi ümumi xassəyə malik deyildir. Onun tənzimlədiyi münasibətlərin dairəsi konkret vəzifələr baxımından dar çərçivədə başa düşülməlidir.

- Dövlət Proqramı icra müddəti baxımından konkret sərhədlərə malikdir. Normativ hüquqi aktlar onların qüvvədən düşməsi və ya dəyişdirilməsi barədə müvafiq sənəd qəbul edilənədək hüquqi qüvvəsini saxlayır. Dövlət Proqramı isə, hətta onunla nəzərdə tutulan vəzifələrin icra olunmadığı təq-dirdə belə, müddəti başa çatdıqdan sonra qüvvədən düşmüş hesab olunur.

Dövlət Proqramında nəzərdə tutulmuş tapşırıqların dövlət qurumları və onların vəzifəli şəxsləri tərəfindən vaxtında və ya lazımınca icra olunmayacağı təqdirdə birbaşa məsuliyyət müəyyən olunmur. Onu da qeyd etməliyik ki, həmin fərq Dövlət Proqramının qüsuru kimi dəyərləndirilməməlidir. Çünki digər normativ hüquqi xarakterli aktlarda təsbit olunan bu qayda, Dövlət Proqramına münasibətdə qanunun analogiyası metodundan istifadə edilməklə həll olunur.





### 3. Proqramın iqtisadi mahiyyəti

Sosial siyasət- iqtisadi siyasətin tərkib hissəsi olmaqla hansı iqtisadi sistemdə olmasından asılı olmayaraq, bütün dövlətlərdə, (iqtisadi vəziyyətindən, milli adət-ənənəsindən asılı olaraq) bu və ya digər formada həyata keçirilir. Sosial siyasətin əsas məqsədi əhalinin həyat səviyyəsinin fasiləsiz yüksəldilməsinə, sosial bərabərsizliyin aradan qaldırılmasına, sosial rifahın təmin edilməsinə nail olmaqdan ibarət olmalıdır. Bu isə hər şeydən əvvəl keyfiyyətli təhsil, sosial və tibbi xidmətin həyata keçirilməsi mexanizmindən asılıdır. Onu da qeyd edək ki, sosial siyasətin reallaşması mexanizmi hər bir insanın azad və hərtərəfli inkişafına və hakimiyyət orqanlarının səmərəli fəaliyyətinə şərait yaradır.

Sosial siyasət öz mahiyyətinə görə əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, sosial öhdəliklərin yerinə yetirilməsinə və vətəndaşların sosial hüquqlarının möhkəmləndirilməsinə istiqamətlənmiş çox geniş sahəni əhatə edən mürəkkəb mexanizmdir. Bütün bunlar sosial müdafiə sisteminin və ümumilikdə sosial siyasətin konseptual əsaslarını təşkil edir. Hər bir dövlət ölkənin inkişaf səviyyəsindən asılı olaraq, özünün sosial siyasətini sosial ədalət prinsiplərinə uyğun formalaşdırır və həyata keçirir.

İqtisadi siyasətdə iki əsas vəzifənin yerinə yetirilməsi nəzərdə tutulur. Birinci vəzifə, makroiqtisadi sabitliyə nail olmaq üçün fiskal və pul-kredit siyasətindən çevik və ehtiyatla istifadə olunmasıdır. İkinci vəzifə, hökumət tərəfindən tarazlı iqtisadi artım üçün şəraitin yaradılmasından ibarətdir.

Müasir bazar iqtisadiyyatının ən mühüm şərtlərindən biri də dövlətin sosial siyasət tədbirləri vasitəsilə gəlirlərin yenidən bölgüsünün ədalətli şəkildə aparılmasını təmin etməsidir. Bu ölkədə yoxsulların və işsizlərin sayının azaldılması, məşğulluğun təmin edilməsi, əhalinin təhsil və səhiyyə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi və s. bu kimi çox geniş və kompleks tədbirlərin həyata kesirilməsini, səmərəli sosial müdafiə sisteminin yaradılmasını tələb edir.

MİM çərçivəsində qarşıya qoyulan məqsədə çatmaq üçün 2003-cü ildə Azərbaycanda qəbul olunan YAİİDP bu tələblərin təmin olunmasını və ölkədə yoxsulluğun yaranma səbəblərini və səviyyəsini müəyyən

etməklə, onun azaldılması istiqamətində strategiyanın hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur.

Proqramda aşağıdakı strategiyalar müəyyən edilib:

1. Gəlir əldəetmə imkanlarının artırılması üçün əlverişli mühitin yaradılması;
2. Makroiqtisadi sabitliyin qorunub saxlanılması;
3. Əsas səhiyyə və təhsil xidmətləri üzrə keyfiyyətin və həmin xidmətlərdən istifadə üçün bərabər imkanların yaradılması;
4. İnfrastrukturun yaxşılaşdırılması (o cümlədən, yollar, kommunal xidmətlər, rabitə, meliorasiya və s.);
5. Həssas qrupların daha səmərəli müdafiəsi üçün mövcud sosial müdafiə sistemində müvafiq islahatların həyata keçirilməsi;
6. Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasi və s. daxil edilib.

Bu strategiyaların həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

1) əhalinin gəlir əldəetmə imkanı artacaq;
2) sosial müdafiə sistemi təkmilləşdiriləcək;
3) müavinət və yardımlar əhalinin daha çox ehtiyacı olan təbəqəsinə ünvanlı şəkildə çatdırılacaq;
4) təhsilin və səhiyyə xidmətlərinin keyfiyyəti artacaq;.
5) qaçqın və məcburi köçkünlərin həyat şəraiti yaxşılaşacaq.[9]

Proqramda nəzərdə tutulan tədbirlər planında da daha çox həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər öz əksini tapıb. Unutmaq olmaz ki, həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər artıq yoxsulluqdan çıxan ölkələrə, yəni yoxsulluq səviyyəsi nisbətən aşağı olan ölkələrə (məsələn, Şərqi Avropa ölkələri) aiddir. «Həyat səviyyəsi» və «yoxsulluq» anlayışları bir-birinə çox yaxın olsalar da, onlar arasında fərqli cəhətlər var. Belə ki, həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı tədbirlər inkişaf etmiş ölkələrdə də (Almaniya, Fransa, ABŞ və s.) həyata keçirilir. Bu baxımdan, həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı olan tədbirlər, adətən, uzaq perspektiv üçün (məsələn, Minilliyin Bəyannaməsində bu 2015-ci ilə qədər olan dövrü əhatə edir) nəzərdə tutulur. YAİİDP-də də bu amil özünü qabarıq göstərir.

[9] YAİİDP (2003-2005) Bakı, «Qapp-Poliqraf» Korporasiyası, 2003, 288 s (səh.39-40).





Yoxsulluğun azaldılmasına gəldikdə isə, bu, bilavasitə insanın həyatda yaşaması üçün zəruri olan istehlak məhsulları ilə təmin olunması ilə bağlıdır. Başqa sözlə, yoxsulluq həyat səviyyəsinin ən son həddi kimi qəbul edilir və ölkədə sosial gərginliyin olduğunu göstərir. Azərbaycanda da sosial gərginliyin yüksək olduğunu nəzər alaraq, YAİİDP-də ilk növbədə məşğulluq probleminin həlli və əhalinin gəlir əldə etmə imkanlarının genişləndirilməsinə yer verilməsi Azərbaycanın bugunkü reallıqları baxımından daha düzgün olar. Deyilənləri əsaslandarmaq üçün YAİİDP-də həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin maliyyələşməsinə ayrılan vəsaitlərin quruluşuna diqqət edək:

Proqramda göstərilən tədbirlərin həyata keçirilməsinə ümumilikdə 2,2 milyard ABŞ dollar vəsait sərfi nəzərdə tutulub ki, bunun da 63,64%-i (1,4 mlrd. dollar) kommunal xidmətlər və infrastrukturun yaxşılaşdırılmasına sərf olunacaq. Əgər buraya qaçqın və məcburi köçkünlər üçün ev və məktəb binalarının tikilməsinə, bərpa işlərinə ayrılan vəsaitləri də əlavə etsək, onda tikinti və bərpa işlərinə, infrastrukturun yaxşılaşdırılmasına çəkilən xərclər 77,27% (1744,5 mlrd. ABŞ dolları) təşkil edər.

Göründüyü kimi, proqramda ayrılan vəsaitlərin əsas hissəsi infrastrukturun yaxşılaşdırılmasına yönəldilib. Bu qədər vəsaitin tikinti və infrastrukturun yaxşılaşdırılmasına xərclənməsi əhalisinin əksər hissəsi yoxsulluq həddində və ondan da aşağı vəziyyətdə yaşayan, işsizlik səviyyəsi yüksək olan ölkə üçün məqbul hesab edilə bilməz. Digər tərəfdən, əgər yoxsulluq səviyyəsində yaşayan və yaxud işsiz olan hər hansı vətəndaş üçün Avropa standartlarına uyğun kommunal xidmətin göstərilməsi və ya bu istiqamətdə infrastrukturun yaxşılaşdırılmasına yönələn tədbirlər həyata keçirilərsə, onda bu, onun gəlirlərinin çoxalmasına deyil, kommunal xidmətlərə çəkiləcək xərclərinin artmasına gətirib çıxaracaq. Belə bir vəziyyət vətəndaşın yoxsulluğunun daha da dərinləşməsi ilə nəticələnə bilər.

Hesab edirik ki, indiki şəraitdə yoxsulluq səviyyəsi yüksək olan Azərbaycanda daha çox yeni iş yerlərinin yaradılması, məşğulluq problemini həll etməklə əhalinin gəlir əldə eləmək imkanlarının genişləndirilməsinə diqqət yetirilməsi tələb olunur. Yalnız bundan sonrakı mərhələdə proqramda nəzərdə tutulan infrastrukturun yaradılmasına diqqəti artırmaq olar.

NEFT VƏ YOXSULLUQ

YAİİDP-də yoxsulluğun azaldılması məqsədilə həyata keçiriləcək tədbirlərin maliyyələşməsi haqqında məlumatlar 2-ci cədvəldə əks olunub.

Cədvəl 2

**YAİİDP-də nəzərdə tutulmuş xərclərin mənbələr və sahələr üzrə quruluşu**

| | Maliyyələşdirilmə, mln ABŞ dolları ilə | | | |
|---|---|---|---|---|
| | Cəmi mln $ | Daxili maliyyə vəsaitləri | Razılaşdırılmış xarici maliyyə vəsaitləri | Əlavə tələb olunan maliyyə vəsaitləri |
| Fiskal siyasət (mln $) | 8,156 | 166,0 | 7,990 | 0 |
| %-lə | 100 | 2,0 | 98,0 | 0 |
| Pul-kredit siyasəti bank sektorunun inkişaf etdirilməsi (mln $) | 20,090 | 530 | 3,530 | 16,030 |
| %-lə | 100 | 2,64 | 17,6 | 79,8 |
| İnvestisiya siyasəti (mln $) | 22,817 | 10,319 | 10,548 | 1,950 |
| %-lə | 100 | 45,22 | 46,2 | 8,6 |
| Əmək bazarı və məşğulluq (mln $) | 90,772 | 72,965 | 795.0 | 17,012 |
| %-lə | 100 | 80,384 | 0,8 | 18,8 |
| Təhsil siyasəti (mln $) | 59,537 | 28.447 | 12,000 | 21,590 |
| %-lə | 100 | 43,586 | 20,2 | 36,2 |
| Mədəniyyət (mln $) | 30,884 | 14,432 | 4,352 | 12,100 |
| %-lə | 100,0 | 46,7 | 14,0 | 39,2 |
| Səhiyyə (mln $) | 40,799 | 10,273 | 17,393 | 13,133 |
| %-lə | 100,0 | 25,182 | 42,63 | 32,2 |
| İdman (mln $) | 6,430 | - | - | 6,430 |
| %-lə | 100,0 | | | 100 |
| Sosial müdafiə sistemi və pensiya islahatları (mln $) | 36,652 | 6,125 | 2,408 | 28,120 |
| %-lə | 100,0 | 16,71 | 6,6 | 76,7 |
| Qaçqınlar və məcburi köçkünlər (mln $) | 327,411 | 203,787 ARDNF 51,0 | 42,038 | 81,586 |
| %-lə | 100 | 62,243 | 12,8 | 24,9 |
| Kommunal xidmətlər və infrastrukturun yaxşılaşdırılması (mln $) | 1417,197 | 169062,3 | 422,510 | 825,624 |
| %-lə | 100 | 11,869 | 29,8 | 58,3 |
| Kənd yerlərinin inkişaf etdirilməsi: k/t, suvarma sistemi, torpağın mühafizəsi (mln $) | 151729,7 | 6,048 | 73,784 | 71,897 |
| %-lə | 100 | 4,0 | 48,6 | 47,4 |
| Ekoloji təhlükəsizlik (mln $) | 54,880 | 5,365 | 26,455 | 23,060 |
| %-lə | 100 | 9,8 | 48,2 | 42,0 |
| Turizm (mln $) | 1,190 | 120 | 120 | 950 |
| %-lə | 100 | 10,1 | 10,1 | 79,8 |
| Məhkəmə və hüquq islahatları (mln $) | 3,341 | 307 | 1,460 | 1,574 |
| %-lə | 100,0 | 9,2 | 43,7 | 47,1 |
| Yoxsulluq monitorinqi (mln $) | 1,785 | 55 | 760 | 970 |
| %-lə | 100 | 3,1 | 42,6 | 54,3 |
| Cəmi (mln $) | 2273,674 | 533,325 ARDNF 53,5 | 618,322 | 1122,026 |
| %-lə | 100 | 23,4 | 27,2 | 49,4 |

**Qeyd: Cədvəl YAİİDP-nin siyasət matrisinə əsasən tərtib edilib.**

Cədvəldən göründüyü kimi, yoxsulluğun azaldılmasına yönəldiləcək xərclərdə daxili mənbələr (dövlət büdcəsi və ARDNF-dən) 533,3 milyon dollar (23,4%), xarici mənbələr 618,3 milyon dollar (27,2%), tələb olunan əlavə maliyyə mənbələri isə 1122,0 milyon dollar (49,4%) təşkil edır. Daxili mənbələrdən (533,2 milyon ABŞ dolları) sərfi nəzərdə tutulan vəsaitin 53517 milyon dolları (büdcəyə transfertlər istisna olmaqla) ARDNF-in vəsaitlərindən ibarətdir.[10] Əgər bu göstəricilər sırasına əlavə maliyyə vəsaitlərini və alınacaq kreditlərin qaytarılmasını da əlavə etsək, onda YAİİDP-nin reallaşmasında neft gəlirlərinin müstəsna rol oynadığını müəyyən etmək olar. Lakin unutmaq olmaz ki,

[10] Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2003-2005) «QAAP- POLİQRAF» Korporasiyası Bakı, 2003 Səh 185-245

dünya bazarında neftin qiymətinin kəskin düşməsi dövlət büdcəsini ciddi böhranla üzləşdirə bilər. Belə bir vəziyyətin baş verməsi ölkədə sosial-iqtisadi gərginliyin dərinləşməsinə və YAİİDP-nin reallaşma imkanlarının məhdudlaşmasına da gətirib çıxara bilər.

Eyni zamanda, cədvəl məlumatlarından görünür ki, 2003-2005-ci illərdə investisiya mühitinin yaxşılaşdırılması xərclərinin 45,2%-nin, əmək bazarı və məşğulluğun təmin olunması xərclərinin 80,4%-nin, təhsil siyasəti xərclərinin 43,6%-nin, mədəniyyət xərclərinin 46,7%-nin, səhiyyə xərclərinin 25,2%-nin, sosial müdafiə və pensiya islahatları xərclərinin 16,7%-nin, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması xərclərinin 62,2%-nin daxili mənbələrdən maliyyələşdirilməsi nəzərdə tutulub. Büdcə gəlirlərinin 50-60%-nin neft və onunla bağlı olan sahələr təşkil etdiyini nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, yoxsulluğun azaldılmasına yönəldilən daxili xərclərin (Siyasət Matrisi üzrə) yarıdan çoxunu (Neft Fondundan ayrılan vəsaitlər də daxil olmaqla) təqribən 320,1-373,4 milyon dollarını məhz neft gəlirləri təşkil edir. Əgər Siyasət Matrisində həcmi göstərilməyən tədbirlərin (manatın məzənnəsinin saxlanılmasına, əmək haqlarının və sosial müavinətlərin artırılmasına və s.) və əlavə maliyyə vəsaitləri bölməsində nəzərdə tutulan işlərin də maliyyələşdirilməsinə büdcənin və Dövlət Neft Fondunun imkanlarından asılı olaraq vəsait ayrılacağını nəzərə alsaq, onda yoxsulluğun azaldılmasında neft gəlirlərinin rolunun daha da böyük olduğunu söyləmək mümkündür. Lakin YAİİDP-nin Siyasət Matrisinə diqqət etsək görərik ki, daxili mənbələr hesabına həyata keçirilən tədbirlərin maliyyələşdirilməsinə ayrılan vəsaitlərin təqribən 236,4 milyon ABŞ dolları (daxili mənbələrin təqribən 50%-i) təmir və bərpa işləri, infrastrukturun yaxşılaşdırılması, qanunvericilik bazasının möhkəmləndirilməsi, struktur islahatlarının aparılması üçün nəzərdə tutulub. Bu da yaxın gələcəkdə neft gəlirlərinin yoxsulluğun azaldılmasına təsirini azaldır. Belə ki, hər hansı məktəbin, binanın təmiri və yaxud da kommunal infrastrukturun yaxşılaşdırılması yoxsulluğun azaldılmasına birbaşa təsir göstərə bilməz. Xatırlatmaq lazımdır ki, Azərbaycan təhsillə əhatə olunmaq səviyyəsinə görə hətta bir çox inkişaf etmiş ölkələri də qabaqlayır (növbəti fəsillərdə bu barədə ətraflı məlumat veriləcək). Bundan başqa, əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycanda kommunal infrastrukturun yenidən qurulmasına ehtiyac duyulsa da, sosial-iqtisadi çətinliklərin mövcud olduğu indiki





şəraitdə bu sahəyə külli miqdarda vəsait ayrılması yoxsulluğun azaldılması baxımından effektli deyil.

Qeyd edək ki, 2003-2005-ci illərdə YAİİDP-nin həyata keçirilməsinə beynəlxalq donor təşkilatları və dövlətin büdcə vasitəsilə xərclədiyi vəsaitlərin məbləği 2,5 milyard ABŞ dollarından çox olub. Nəzərə almaq lazımdır ki, neft və qaz kimi təbii mineral ehtiyatlarının sürətli istismarına əsaslanan yüksək iqtisadi artım yoxsulluğun azaldılmasına yalnız məhdud şəkildə birbaşa təsir göstərir və əslində ölkədə makroiqtisadi idarəçiliyi çətinləşdirir.

Beləliklə, proqramda nəzərdə tutulan tədbirlərin strukturuna diqqət etdikdə onun Azərbaycan reallıqları ilə uzlaşmadığını və həyat səviyyəsi nisbətən yüksək olan ölkələr üçün hazırlandığını və 2003-2005-ci ildərdə yoxsulluğun azaldılmasına o qədər də böyük təsir göstərmədiyini demək olar.

## 4. Azərbaycanda yoxsulluq həddinin qiymətləndirilməsi

### 2003-cü ildə Azərbaycanda yoxsulluq həddinin qiymətləndirilməsinin monitorinqi.

Adətən, kütləvi yoxsulluq sosial hadisə kimi özünü maddi nemətlərin qeyri- bərabər bölüşdürüldüyü cəmiyyətdə göstərir. Kütləvi yoxsulluğun səbəbləri bu və ya digər dövrlərdə baş verən tarixi hadisələrdən asılı olaraq müxtəlif olur. Qədim dövrlərdə və orta əsrlərdə kütləvi yoxsulluğa əsasən, quraqlıq nəticəsində yaranan məhsul qıtlığı, epidemiya (yoluxucu xəstəliklərin geniş yayılması), daşqınlar, yanğınlar, eləcə də müharibələr və dövlət idarəçiliyində yol verilən nöqsanlar səbəb olurdu. [11] [səh.39]

Bəs, XXI əsrin əvvəllərində Azərbaycanda kütləvi yoxsulluq probleminin yaranmasına hansı amillər təsir göstərib? YAİİDP-də Azərbaycanda yoxsulluq səviyyəsinin yüksəlməsinə təsir göstərən amillər kimi aşağıdakılar qeyd olunur:

[11]. C. Quliyev. Sosial yönümlü bazar münasibətləri şəraitində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasının qlobal problemləri. «Himayədar» jurnalı yanvar 2005 №7.

1) Ermənistanın təcavüzkar siyasəti nəticəsində Qarabağ müharibəsinin başlanması, torpaqların 20%-nin işğal olunması, bir milyona yaxın insanın qaçqın və məcburi köçkün düşməsi;
2) demoqrafik dəyişikliklər;
3) ailə üzvlərinin sayı;
4) təhsil;
5) gender amili;
6) məşğulluq və işsizlik problemi;
7) sağlamlıq;
8) rüşvətxorluq və korrupsiya;
9) sosial ədalətsizlik,
10) vəzifədən sui-istifadə,
11) inhisarçılıq və qeyri-sağlam rəqabət;
12) büdcə vəsaitlərinin müxtəlif yollarla mənimsənilməsi və s.

Sözsüz ki, bu problemlərin aradan qaldırılması üçün ilk növbədə yoxsulluğun səviyyəsi düzgün qiymətləndirilməlidir.

Qeyd edək ki, Azərbaycanda yoxsulluğun qiymətləndirilməsində bir sıra nöqsanlara yol verilib. Bu sıraya:

1) «mütləq» və «nisbi» yoxsulluq həddi anlayışlarının məntiqi baxımdan düzgün seçilməməsini;

2) yoxsulluq həddinin müəyyənləşdirilməsində tətbiq edilən metodologiyanın məqsədəuyğun olmamasını;

3) yoxsulluq həddinin və yoxsulluq səviyyəsinin süni olaraq azaldıldığından real vəziyyəti əks etdirməməsini;

4) 2005-ci ilin hesabatında «nisbi» və «mütləq» yoxsulluq hədləri ilə yanaşı, «ifrat» həddin də daxil edilməsini və s. etmək olar.

**Birincisi,** 2003-cü ildə qəbul edilən Proqramda yoxsulluq həddini ölçmək üçün iki həddən - **«mütləq»** (ayda adambaşına 120.000 manat) və **«nisbi»** yoxsulluq (ayda adambaşına 72.000 manat) hədlərindən istifadə olunub. Hesab edirik ki, bu anlayışların işlənmə yeri məntiqi baxımdan düzgün seçilməyib. Belə ki, dünya ölkələrinin təcrübəsində «nisbi yoxsulluq» dedikdə orta təbəqəyə nisbətən yoxsul olanlar başa düşülür və bu anlayışdan adətən inkişaf etmiş ölkələrdə istifadə olunur. «Mütləq yoxsulluq» isə ifrat yoxsulluq kimi başa düşülməlidir. Bu hədd daha çox yoxsulluq səviyyəsi yüksək olan ölkələrdə tətbiq edilir. Bunu da həmin ölkələrdə ifrat yoxsulların çox olması ilə





əlaqələndirirlər. Bu məntiqə əsaslansaq, fikrimizcə, proqramda ayda adambaşına 120.000 manatın (adambaşına ayda 25,8 ABŞ dolları) «nisbi» yoxsulluq həddi, 72.000 manatın isə (adambaşına ayda 15,5 ABŞ dolları) «mütləq» yoxsulluq həddi kimi (bu hədd də reallığı əks etdirmir) götürülməsi məntiqi baxımdan daha düzgün olardı.

**İkincisi,** 2001-ci il üçün müəyyənləşdirilmiş «mütləq» yoxsulluq həddinin (adambaşına ayda 120.000 min manat) həm adambaşına düşən minimum istehlak xərclərinin dəyəri, həm də (eyni abzasda) minimum ərzaq istehlakı səbətinin dəyəri kimi qəbul olunması da mübahisə doğuran məqamlardandır. Belə ki, proqramda mütləq və nisbi yoxsulluq hədlərinin dəyərləndirilməsi aşağıdakı kimi verilib: «2001-ci ildə, DSK yeni ETM-i aparıb. Yoxsulluq səviyyələrinin təhlili həmin sorğunun ilk ildə əldə edilmiş məlumatlarına əsaslanır. Burada rifah göstəricisi kimi, adambaşına düşən istehlak xərclərinin həcmi götürülüb və iki növ yoxsulluq həddindən istifadə olunub. Bu hədd mütləq yoxsulluq həddi olmaqla, adambaşına ayda 120.000 AZM (25,8 ABD) təşkil edir. Bu hədd gündəlik 2200 kilokalori qida qəbulunu təmin edən minimum ərzaq istehlakı səbətinin dəyərinə əsaslanır. Minimum istehlak səbətində ərzağın çəkisi 70% həcmində götürülüb. Bu, ETM-də əldə edilən nəticələrə uyğun olaraq, ev təsərrüfatlarının istehlak xərclərinin strukturundakı ərzağın mövcud xüsusi çəkisinə uyğundur. Bu yoxsulluq həddindən istifadə edərkən, 2001-ci ildə, bütün ölkə üçün yoxsulluq səviyyəsinin 49% təşkil etdiyi müəyyən edilib». Yoxsulluğun ikinci həddi nisbi hədddir və adambaşına orta istehlak xərclərinin səviyyəsinin 60%-i həddində müəyyən edilib. Bu da 2001- ci il üçün 72.000 AZM (15,5 ABD) təşkil edib.[12]

Göründüyü kimi, 120.000 manat minimum qida qəbulunu təmin edən ərzaq istehlakı səbətinin dəyəri kimi göstərilir. Bu həddin qəbul olunmasında ən böyük qüsur isə burada qeyri-ərzaq və xidmətlərə çəkilən xərclərin nəzərə alınmamasıdır. Buradan belə qənaətə gəlmək olar ki, 120.000 manat əslində ifrat yoxsulluq həddinin göstəricisidir.

Proqramda nəzərə çarpan digər çatışmazlıq minimum ərzaq səbətinin dəyəri kimi qəbul olunan (120.000 manatın) məbləğin 70%-nin nisbi yoxsulluq həddi kimi götürülməsidir. Belə ki, Proqramda adambaşına ayda 120.000 manat Minimum Ərzaq Səbətinin (MƏS)

[12]. YAİİDP (2003-2005) Bakı, «Qapp-Poliqraf» Korporasiyası, 2003, səh. 39-40.

dəyəri kimi qəbul edildiyi halda, 72.000 manatın hansı normalara əsaslanaraq müəyyənləşdirilməsi başa düşülmür. Beləliklə, əvvəldə sadaladığımız amillər bizə Proqramda yoxsulluq həddinin düzgün müəyyənləşdirilmədiyini deməyə əsas verir. Bunu həm Proqramın özünə, həm Dünya Bankının (DB), həm Dövlət Statistika Komitəsinin (DSK), həm Ev Təsərrüfatlarının Müayinəsinin (ETM), həm də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) materiallarına əsaslanaraq müəyyənləşdirmək olar.

**1. Proqrama əsasən yoxsulluq həddinin müəyyənləşdirilməsi.** Əgər Proqramda qəbul edilmiş metodologiyaya əsaslansaq (Minimum İstehlak Səbəti ərzağa çəkilən xərclərin median göstəricisi 60% götürülüb), onda 120.000 manat «nisbi» yoxsulluq həddi olacaq. Bu halda, MİS-in dəyəri (qeyri-ərzaq və xidmətlərə çəkilən xərclər də əlavə olunmaqla) 200.00 manat (gündəlik 1,43 ABŞ dolları) müəyyən olunmalı idi. Bu halda ölkədə yoxsulluq səviyyəsi 66,7%[13] təşkil edərdi.

**2. Dövlət Statistika Komitəsinin materialları əsasında.** Dövlət Proqramında yoxsulluq həddinin müəyyənləşdirilməsi üçün ay ərzində minimum ərzaq səbətinə daxil olan zəruri məhsulların siyahısına 2200 kilokalorinin qəbuluna imkan verən məhsullar daxil edilib. Lakin 2001-ci ilin qiymətləri ilə (tərtib olunmuş siyahı üzrə) hesabladıqda məlum olur ki, yalnız ərzaq səbətinin dəyəri 133.000 manat təşkil edib. Buraya qeyri-ərzaq məhsulları və xidmətlərin də payını (40%) əlavə etsək, yoxsulluq həddi adambaşına ayda 221666 manat (gündəlik 1,58 ABŞ dolları) təşkil edəcək. Bu metodologiyaya əsasən ölkədə yoxsulluq səviyyəsi 70%-dən yüksək olar.

**3. Dünya Bankının qəbul etdiyi normalar əsasında.** Məlumat üçün bildirək ki, Dünya Bankı MDB ölkələri üçün yoxsulluğun minimum həddi kimi adambaşına gündəlik gəlirin 2,5 ABŞ dolları götürülməsini məqbul hesab edir. DB-nin bu normalarına əsaslansaq, onda yoxsulluq həddi 279384 manat, ölkədə yoxsulluq səviyyəsi isə 85,1% təşkil edəcək. DB-nin qəbul etdiyi norma (1 ABŞ dollarının alıcılıq qabiliyyətinin müxtəlif dövlətlərdə, hətta ölkə daxilindəki regionlarda da fərqli olduğunu nəzərə alaraq) bütün ölkələr üçün məqbul olmaya bilər. Məsələn, 2003-cü ildə ABŞ-da illik gəliri 8980 ABŞ dolları (aylıq 748,33 ABŞ dolları), gündəlik gəliri 24,9 ABŞ dolları və ondan aşağı

[13]. DSK. 2001-ci ildə ev təsərrüfatı tədqiqatlarının əsas yekunları.





olan vətəndaşlar yoxsul hesab olunub. Azərbaycanda isə, AHİK-nın və mütəxəssislərin apardığı hesablamalara görə, yoxsulluq həddinin daha real və düzgün müəyyənləşdirilməsi üçün gündəlik gəlirin 2-2,5 ABŞ dolları həcmində götürülməsi məqsədəuyğun olar.

**4. AHİK tərəfindən müəyyənləşdirilmiş göstəricilər əsasında.** AHİK 2001-ci il üçün Minimum İstehlak Büdcəsinin (MİB) dəyərini 332.000 manat müəyyənləşdirib. Proqramda müəyyənləşdirilən yoxsulluq həddi isə, bu məbləğdən təqribən 2,8 dəfə azdır. Əgər yoxsulluq səviyyəsini AHİK-nın hesablamaları əsasında müəyyənləşdirilmiş MİB dəyərinin adambaşına düşən pul xərcləri (ETM əsasında) arasındakı nisbətlə müqayisə etsək, bu halda ölkədə yoxsulluq səviyyəsi 88,4% olacaq.

Əslində yoxsulluq səviyyəsinin süni şəkildə azaldılması dövlətin özünü gələcəkdə ciddi problemlərlə qarşılaşdıra bilər. Yoxsulluq səviyyəsinin yüksək olması dövlət üçün ciddi siqnal olmalı və bu istiqamətdə təxirəsalınmaz tədbirlər görülməlidir. Beləliklə, müxtəlif metodlarla aparılan qiymətləndirmə 2001, 2002 və 2003-cü illər üçün müəyyən edilən hədlərin mövcud vəziyyəti əks etdirmədiyini göstərir.

Nə qədər qəribə olsa da, hökumət rəsmilərinin açıqlamaları da bu fikri təsdiqləyir. Belə ki, rəsmi çıxışlarda əhalinin 3-4%-nin varlı, 20-25%-nin orta, qalan əhalinin isə kasıb təbəqə olduğu qeyd olunur.[14] Buradan da belə bir nəticəyə gəlmək olar ki, əhalinin 23-29%-i varlı və orta təbəqə, 71-77%-i isə kasıb, yaxud da yoxsul və daha yoxsuldur. Bu da bizim əldə etdiyimiz nəticələrlə uyğun gəlir.

Müxtəlif metodlara əsasən aparılan hesablamalar 2001-ci ildə ölkə əhalisinin orta hesabla 70%-nin (əhalinin təqribən 2/3 hissəsinin) yoxsul olduğunu göstərir ki, bu da proqramda yoxsulluq səviyyəsinin düzgün müəyyən edilmədiyini deməyə əsas verir.

**2004-cü il üçün yoxsulluq həddinin qiymətləndirilməsi.** Hesabatda əvvəlki ildə olduğu kimi, yoxsulluq hədlərinin müəyyənləşdirilməsində ciddi nöqsanlara yol verilib. Belə ki, hesabatda minimum istehlak büdcəsinin dəyəri 2002-ci il üçün 175 min manat, 2003-cü ildə 179 min manat, 2004-cü il üçün isə 194 min manat dəyərində hesablanmaqla buna uyğun olaraq, ölkədə yoxsulluğun səviyyəsinin 49%-dən 2003-cü ildə 44,7%-ə, 2004-cü ilin ilkin nəticələrinə görə isə 40,2%-ə endiyi qeyd olunub.

[14]. «Exo» qəzeti, 8 may 2004-cü il.

(Cədvəl 3)

**Yoxsulluq həddinə görə müəyyən edilən yoxsulluq səviyyəsi**

| YAİİDP-də | Mütləq yoxsulluq həddi 178850 AZM | Nisbi yoxsulluq həddi 129684 AZM | İfrat yoxsulluq həddi 124137 AZM |
|---|---|---|---|
| Yoxsulluq səviyyəsi %-lə Ümumi | 44,7 | 12,0 | 9,6 |
| Şəhər | 44,1 | 13,5 | 11,2 |
| Kənd | 45,3 | 10,3 | 7,9 |

*Mənbə: YAİİDP-nin iki illik icra hesabatı 2003/2004, Bakı 2005, səh. 33.*

Aparılan hesablamalar, həmçinin statistik göstəricilərin təhlili bunun reallıqdan uzaq olduğunu göstərir. Bu fikri o dövrdə İqtisadi İnkişaf naziri olan F.Əliyevin icra hesabatı ilə bağlı çıxışında və sonradan televiziya ilə müsahibəsində dediyi fikirlərə əsaslanmaqla da söyləmək olar. F.Əliyev konfransdakı çıxışında «...yoxsulluq həddini müəyyən etmək üçün hazırda istifadə olunan minimum istehlak büdcəsinə təkcə ərzaq deyil, həm də qeyri-ərzaq məhsulları və xidmətlər daxil edilir, eləcə də inflyasiya prosesi nəzərə alınır» - deyib. Televiziya ilə çıxışında isə bildirib ki, «...bundan sonra (yəni növbəti hesablamalarda) yoxsulluq həddinə paltar, qeyri-ərzaq və xidmətlər də daxil ediləcək». Birinci fikrə əsaslansaq, belə nəticəyə gəlmək olar ki, 2001-ci il üçün hesablanan yoxsulluq həddinə qeyri-ərzaq və xidmətlər daxil edilməyib. Deməli, 2001-ci il üçün qiymətləndirmədə hesablanan 120 min manat yalnız ərzaq səbətinin dəyəri olub. Hətta Proqramın özündə 120 min manat bir yerdə ərzaq səbətinin dəyəri, digər yerdə isə ərzaq və qeyri-ərzaq məhsullarının dəyəri kimi göstərilib. Bu arqument onu deməyə əsas verir ki, ilkin qiymətləndirmədə (2001-ci il üçün) yoxsulluq həddi düzgün hesablanmayıb. Sonrakı illərdə isə (2002-2003) mütləq yoxsulluq həddinə qeyri-ərzaq və xidmətlər daxil edilsə də, 2001-ci il üçün müəyyən edilən yoxsulluq həddində yol verilən nöqsan aradan qaldırılmayıb. Deməli, növbəti illər üçün yoxsulluq həddinin dəyəri və bunun da məntiqi nəticəsi olaraq, yoxsulluq səviyyəsi düzgün qiymətləndirilməyib.





Hesabatda 2003-cü il üçün mütləq yoxsulluq həddi hesablanarkən, onun 2002-ci il üçün hesablanmış qiyməti (175000 AZM) əsas götürülüb və istehlak qiymətləri indeksi (inflyasiya) nəzərə alınmaqla indeksləşmə aparılıb. Beləliklə, 2003-cü il üçün «mütləq yoxsulluq həddi»nin qiyməti 178850 AZM kimi müəyyənləşdirilib. Belə olan halda, 2003-cü ilin minimum istehlak səbətinə daxil olan ərzaq məhsulları toplusunun dəyəri 124137 AZM, onun MİB-də payı 69,4%, MİS-ə daxil olan qeyri-ərzaq məhsulları toplusunun dəyəri 22418 AZM, onun minimum istehlak büdcəsində payı 12,5%, MİS-ə daxil olan xidmətlər toplusunun dəyəri 32295 AZM, onun MİB-də payı isə 18,1% təşkil edib.[15] 2003-cü ilin «nisbi yoxsulluq həddi»nin qiyməti 2002-ci ildə olduğu kimi ETM üzrə istehlak xərclərinin median göstəricisinin 70%-i nisbətində götürülüb və 129684 AZM kimi müəyyən olunub.[16]

Qeyd edək ki, bu qiymətləndirmə reallığı əks etdirmir. Bunu bir neçə yanaşma ilə əsaslandırmaq olar.

**Birincisi**, 2002-ci il üçün hesablanan həddin üzərinə əvvəlcə 2001-ci ildə nəzərə alınmayan qeyri-ərzaq məhsulları və xidmətlərin dəyəri (30%) əlavə edilməli idi. Çünki həm proqramın özündə, Katibliyin məlumatlarında, həm də İqtisadi İnkişaf nazirinin çıxışında 2001-ci il üçün müəyyən edilən mütləq yoxsulluq həddində qeyri-ərzaq məhsulları və xidmətlərin dəyərinin nəzərə alınmadığı qeyd olunur. Ona görə də 2002-ci il üçün yoxsulluq həddi müəyyən edilərkən bu nöqsan aradan qaldırılmalı idi. Lakin bunun nəzərə alınması 2001-ci il üçün yoxsulluq səviyyəsinin 49% deyil, daha yüksək (60-70%) olması ilə nəticələnə bilərdi. Buradan belə qənaətə gəlmək olar ki, Katiblik 2001-ci il üçün yoxsulluq həddini düşünülmüş şəkildə azaldıb. Məqsəd isə ölkədə yoxsulluq səviyyəsi göstəricisini süni olaraq azaltmaq olub.

Əgər 2001-ci il üçün müəyyən edilən mütləq yoxsulluq həddinə 40% (qeyd: 2001-ci ildə median göstərici 60%, sonrakı illərdə isə 70% götürülüb) qeyri-ərzaq və xidmətlərin də dəyərini əlavə etmiş olsaq, onda mütləq yoxsulluq həddi 200 min manat olmaqla, sonrakı illərdə inflyasiya nəzərə alınmalı və yoxsulluq həddi məyyən edilməli idi. Bu halda 2002 və 2003-cü illərdə müəyyən edilən yoxsulluq həddindən

[15] YAİİDP-in iki illik icra hesabatı 2003/2004 Bakı 2005 səh.32

[16] YAİİDP-in iki illik icra hesabatı 2003/2004 Bakı 2005 səh. 32

yüksək məbləğ alınardı. Lakin proqramda 2002-ci il üçün müəyyən edilən yoxsulluq həddində 120 min manatın (yalnız inflyasiya nəzərə alınmaqla) 125 min manat (minimum istehlak səbətinin 70%-i və ya nisbi yoxsulluq həddi) götürülməsi və bundan sonra mütləq həddin müəyyən edilməsi qiymətləndirmənin düzgün aparılmadığını deməyə əsas verir.

**İkinci** maraqlı cəhət. MİS-nin ümumi dəyərində ərzaq məhsullarının xüsusi çəkisinin 60%-dən 70%-ə yüksəldilməsidir. Çünki məntiqi baxımdan (bunu dünya təcrübəsi də göstərir) əhalinin pul gəlirləri artdıqca və yoxsulluq səviyyəsi azaldıqca ərzaq səbətinin MİS-dəki payı azalmalı, digər xərclər isə artmalıdır. Lakin yoxsulluq həddinin qiymətləndirilməsində bu, nədənsə nəzərdən qaçırılıb. 2001-ci ildə ərzaq səbətinin dəyəri (median göstərici kimi 60% götürüldüyü halda) sonrakı illərdə yoxsulluq səviyyəsinin azalmasına (hesabata əsasən) və əhalinin pul gəlirlərinin artmasına baxmayaraq, ərzağın xüsusi çəkisi artırılaraq 70% götürülüb. Fikrimizcə, burada əsas məqsəd mütləq (nisbi) yoxsulluq həddini aşağı götürməklə yoxsulluq səviyyəsinin süni olaraq azaldılmasıdır.

**Üçüncü** cəhət, əvvəldə qeyd etdiyimiz kimi, əhalinin ən yoxsul təbəqələrini müəyyən etmək üçün 2003-cü ildə ərzaq məhsullarının minimal toplusunun dəyəri və ya mütləq yoxsulluq həddinin qiymətinin müəyyən faizi nisbətində hesablanan «ifrat yoxsulluq həddi»ndən də istifadə olunmasıdır. 3 saylı cədvəldən göründüyü kimi, hesabatda «ifrat yoxsulluq həddi»nin dəyəri 124137[17] manat olmaqla, 2003-cü il üçün üç hədd (mütləq, nisbi və ifrat) müəyyən edilib. Burada maraq doğuran cəhət «ifrat» yoxsulluq həddi ilə «nisbi»[18] yoxsulluq həddi arasındakı fərqin 55[illegible]7 manat təşkil etməsidir. Bu halda «nisbi» və «ifrat» yoxsulluq hədlərini bir-birindən fərqləndirmək məntiqsiz görünür. Çünki yaranmış fərq kiçik məbləğdir. Bu baxımdan «nisbi yoxsulluq həddini» «ifrat yoxsulluq həddi» kimi qiymətləndirmək olar. Biz «nisbi» (əslində «mütləq», yəni son hədd) yoxsulluq həddini «ifrat» yoxsulluq həddi kimi qiymətləndirmişik.

[17] YAİİDP-in iki illik icra hesabatı 2003/2004 Bakı 2005 səh.32.
[18] Əslində «mütləq» yoxsulluq həddi ifrat yoxsulluq səviyyəsini səciyyələndirən hədd, «nisbi» yoxsulluq həddinin isə orta təbəqəyə nisbətən yoxsul olanlar kateqoriyasına aid edilməlidir.





**Dördüncü** cəhət, AHİK tərəfindən hesablanan minimum istehlak büdcəsinin dəyəri ilə YAİİDP-nin işçi qrupu tərəfindən hesablanan MİB-in dəyəri arasındakı ciddi fərqin olması ilə bağlıdır.

Cədvəl 4

**MİB-in dəyərinin müxtəlif mənbələrin hesablamalarına görə dəyişməsi**

| | Dövlət Proqramında | | Ekspert hesablaması (proqramda müəyyən edilən həddə uyğun olaraq) | | | AHİK-in hesablamaları | |
|---|---|---|---|---|---|---|---|
| | Ərzaq | MİB-in dəyəri | Ərzaq | MİB dəyəri (Ərzaq üçün median götərici 70%+qeyri ərzaq və xidmətlər 30%) | MİB dəyəri (Ərzaq üçün median götərici 60%+qeyri ərzaq və xidmətlər 40%) | Ərzaq | MİB-in dəyəri |
| 2001 | 72 000 | 120000 | 120000 | 171428 | 200000 | 220030 | 332030 |
| 2002 | 125000 | 175 000 | 125000 | 178571 | 208333 | 220100 | 332180 |
| 2003 | 127500 | 178850 | 127500 | 179571 | 212500 | 224440 | 337300 |
| 2004 | 136042 | 194000 | 135800 | 19400i0 | 226333 | 260000 | 408400 |

Bir ölkə daxilində bu (AHİK-lə hökumətin müəyyən etdiyi MİS və ya yaşayış minimumunun dəyəri arasında fərq) necə baş verə bilər? Nəzərə alaq ki, AHİK formal surətdə müstəqil adlandırılsa da, faktiki olaraq müstəqil deyil, hökumətin nəzarətində olan qurumdur. Bununla belə, onların müəyyənləşdirdiyi yaşayış minimumu arasında kəskin fərq var. Bu iki təşkilatın müəyyən etdiyi MİS dəyəri arasında fərq 2001-ci ildə 212030 manat, o cümlədən ərzaq səbətinin dəyəri üzrə 120 min manat, 2002-ci ildə müvafiq olaraq 157000 manat, 95100 manat, 2003-cü ildə 158450 manat və 96940 manat, 2004-cü ildə 217568 manat və 123958 manat olub. Bunların hansı həqiqətə uyğundur? Bir ölkə daxilində iki minimum ərzaq səbəti necə və hansı üsullarla hesablanıb? Buna təsir göstərən amillərdən biri qəbul edilən gündəlik enerji tutumunun fərqli olmasıdır. Belə ki, Proqramda ərzaq dəstlərinin gündəlik enerji tutumu 2200 kkal. olduğu halda, AHİK-də 2590 kkal. müəyyən edilib. Bu da Proqramda mübahisə doğuran məqamdır (Yeri gəlmişkən, onu da qeyd edək ki, cəzaçəkmə müəssisələrində cəza çəkənlər üçün müəyyən edilən gündəlik enerji qəbulu 3200 kkaloridən yüksəkdir).

YAİİDP-nin iki illik icra hesabatında yoxsulluq həddi və yoxsulluq səviyyələrinin monitorinq qiymətləndirilməsi, hər iki göstəricinin müəyyən edilməsində ciddi nöqsanlara yol verildiyini göstərir. Buradan belə nəticəyə gəlmək olar ki, hökumətin qarşıya qoyduğu əsas məqsəd yoxsulluğun real göstəricisini müəyyən etmək və bu kontekstdən də tədbirlər planı hazırlamaq deyil, sadəcə, nəyin bahasına olursa-olsun, «yoxsulluq səviyyəsini» göstəricilərdə azaltmaqdan ibarətdir.

### 5. Yoxsulluğun azaldılmasında neft gəlirlərindən istifadə

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra öz təbii ehtiyatlarından, o cümlədən neft gəlirlərindən ölkənin mənafeyi baxımından sərbəst istifadə etmək imkanı əldə edib. 1994-cü ildə neft müqavilələrinin imzalanmasının nəticəsi olaraq ölkəyə kapital axını sürətlənib, neft hasilatı və ixracı (neft gəlirləri) sahəsində müəyyən nailiyyətlər əldə olunub. Bu nailiyyətlər ölkədə yoxsulluğun azaldılması üçün vasitə rolunu oynaya bilər. Bu isə yalnız o halda reallaşa bilər ki, neftin satışından əldə edilən gəlirlər iqtisadiyyatın digər sahələrinin inkişafına, əhalinin məşğulluq və işsizlik probleminin həllinə yönəldilsin.





Yeri gəlmişkən, qeyd edək ki, 2004-cü ildə ANSİRM tərəfindən aparılan sosioloji sorğuya cəlb edilənlərə ünvanlanan «Yoxsulluğun azaldılması üçün Azərbaycan hakimiyyəti bütün resurslardan səmərəli istifadə edirmi?» sualına rəyi soruşulanların 40,6%-i «xeyr», 32,6%-i «qismən», 8,5%-i «bəli, istifadə edir» cavabını seçib. Respondentlərin 17,8%-i isə bu haqda heç bir məlumata malik olmadıqlarını bildiriblər.

**Bundan başqa «YAİİDP çərçivəsində görülən işlərin hansı mənbələr hesabına maliyyələşdirilməsi daha məqsədəuyğundur»-məzmunlu suala** respondentlərin 51,8%-i bildiriblər ki, YAİİDP çərçivəsində görülən və bundan sonra da görüləcək işlər, ilk növbədə **neftdən əldə olunan gəlirlər hesabına** maliyyələşdirilərsə daha səmərəli nəticə əldə etmək olar. Respondentlərin 15,7%-i isə Proqram çərçivəsində həyata keçirilən tədbirlərin **qeyri-neft sektorunun**, xüsusilə də kənd təsərrüfatının imkanlarından istifadə etməklə maliyyələşdirilməsini münasib biliblər. Respondentlərin 13,5%-i isə proqram çərçivəsində həyata keçirilən tədbirlərin **beynəlxalq maliyyə qurumlarının yardımları və güzəştli kreditləri hesabına maliyyələşdirilməsini** mümkün variant hesab ediblər.

Məlum olduğu kimi, son dövrlər ölkəyə daxil olan və yaxın gələcəkdə daxil olması proqnozlaşdırılan neft (və qaz) gəlirlərini qeyri–neft sektorunun inkişafına yönəltmək və ölkə iqtisadiyyatında birtərəfli inkişafın qarşısını almaqla tarazlı inkişafa nail olmaq, neft və qaz gəlirlərindən səmərəli istifadə olunmasını təmin etmək məqsədilə 27 sentyabr 2004-cü il tarixində ölkə Prezidentinin fərmanı ilə «Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya» təsdiq edilib. Adıçəkilən strategiyada qeyri–neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın, infrastruktur sahələrinin inkişafı yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi, intellektual və texnoloji bazanın yüksəldilməsi, digər sosial problemlərin həllində neft və qaz gəlirlərindən istifadə olunmasının əsas istiqamətləri kimi müəyyənləşdirilib. Yeri gəlmişkən, qeyd edək ki, BVF-in ölkədə yoxsulluğun azaldılması istiqamətindəki əsas tələblərindən biri də məhz qeyri-neft sektorunda iqtisadi artımın təmin edilməsidir.

Bundan başqa, 2003-cü ildə YAİİDP çərçivəsində «2004-2008-ci illər üçün Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi

inkişafı üzrə Dövlət Proqramı» hazırlanıb və 2004-cü ilin fevral ayında müvafiq fərmanla təsdiq edilib. Proqramın əsas məqsədi göstərilən dövr ərzində regionlarda qeyri-neft sektorunun inkişafına şərait yaratmaqla 600 min yeni iş yerinin açılmasıdır.

YAİİDP-nin hesabatında 2004-cü ilin yekunlarına görə sözügedən proqramın icrası nəticəsində respublikada 170 minə yaxın yeni iş yerinin (onlardan 90 mininin daimi iş yerlərinin olması) açıldığı, bunların da 85%-nin regionların payına düşdüyü qeyd olunur.[19] Regionların sosial-iqtisadi inkişaf proqramında da çox ciddi nöqsanların olmasına baxmayaraq, bütövlükdə bu poqram YAİİDP çərçivəsində qeyri-neft sektorunun inkişafına nail olunmasına cəhd göstərilməsi istiqamətində atılmış müsbət addım kimi qiymətləndirilə bilər. Lakin bunların (proqram və strategiyaların) əsas işləmə mexanizminin olmaması (və ya lazımi səviyyədə olmaması), göstəricilərin süni şəkildə «şişirdilməsi» (məsələn, yaradılan yeni iş yerləri ilə bağlı) qarşıya qoyulmuş məqsədin reallaşmasını çətinləşdirir.

Yeri gəlmişkən, onu da qeyd edək ki, hökumət hazırda BMTİP ilə «Qara qızılın insan qızılına çevrilməsi» layihəsi üzərində iş aparır. Bu layihə ARDNF tərəfindən idarə olunan neft gəlirlərinin DİP vasitəsilə insan kapitalının inkişafı üçün istifadəsinin planlaşdırılmasına yardım göstərmək məqsədi güdür. Bu, təhsil sektoruna investisiyaların yönəldilməsini, azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil almasını, həmçinin ölkənin ali təhsil sisteminin gücləndirilməsi üçün beynəlxalq təcrübədən istifadəni əhatə edir.

## 6. Təbii sərvətlə zəngin olan ölkələrdə orta təbəqə problemi

Bazar iqtisadi sisteminin və demokratik dövlət quruculuğunun ən mühüm cəhətlərindən biri də cəmiyyətdə orta təbəqənin formalaşmasıdır. İnkişaf etmiş ölkələrdə cəmiyyət prinsip etibarilə **varlı, orta, yoxsul** təbəqəyə bölünür. Bundan başqa, hər bir təbəqə də öz daxilində qruplara bölünür. Məsələn, varlılar təbəqəsi – varlı və daha varlı, orta təbəqə – yuxarı və aşağı, yoxsullar təbəqəsi isə – yoxsul və

[19] YAİİDP-nin iki illik icra hesabatı 2003/2004 Bakı-2005, səh.91.





daha yoxsullara bölünür.

BMT-nin tədqiqatlarında ölkənin neftdən asılılıq səviyyəsi ilə insan inkişafı indeksi arasında aşağıdakı kimi münasibət ortaya çıxıb.

**Cədvəl 1**

**Neftdən asılı ölkələr və insan inkişafı indeksi (İİİ) reytinqi, 1995-ci il**

| Ölkələr | | Neftdən asılılıq səviyyəsi | İİİ |
|---|---|---|---|
| 1 | Anqola | *68.5* | *160* |
| 2 | Küveyt | *49.1* | *36* |
| 3 | BƏƏ | *46.3* | *45* |
| 4 | Yəmən | *46.2* | *148* |
| 5 | Bəhreyn | *45.7* | *41* |
| 6 | Konqo (Brazzavil) | *40.9* | *139* |
| 7 | Nigeriya | *39.9* | *151* |
| 8 | Oman | *39.5* | *86* |
| 9 | Qabon | *36.1* | *123* |
| 10 | Səudiyyə Ərəbistanı | *34.3* | *75* |
| 11 | Qətər | *33.9* | *42* |
| 12 | Əlcazair | *23.5* | *107* |
| 13 | Papua-Yeni Qveniya | *21.9* | *133* |
| 14 | Liviya | *19.8* | *72* |
| 15 | İraq | *19.4* | *126* |
| 16 | Venesuela | *18.3* | *65* |
| 17 | Norveç | *13.5* | *111* |
| 18 | Suriya ƏR | *8.6* | *91* |
| 19 | Ekvador | *6.8* | *142* |
| 20 | Butan | *6.0* | *134* |
| 21 | Kamerun | *5.8* | *61* |
| 22 | Malayziya | *5.7* | *109* |
| 23 | İndoneziya | *4.9* | *108* |
| 24 | Vyetnam | *3.5* | *154* |

Təbii ehtiyatların həcmi ilə ölkədə iqtisadi artım göstəriciləri arasında əksər ölkələrin təcrübəsində qabarıq müşahidə olunan tərs mütənasiblik asılılığı müxtəlif cür izah olunur.

Məsələnin mahiyyəti bundan ibarətdir ki, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı qeyri-təkmil bazarla, mülkiyyət hüquqlarının dəqiq müəyyən edilməməsi və belə hüquqların zəif qorunması, habelə institusional xarakterli bir sıra başqa problemlərlə səciyyələnir. Bu halda zəngin təbii ehtiyatların mövcudluğu ayrı-ayrı siyasi, biznes və ya kriminal qruplar arasında həmin resurslar uğrunda kəskin mübarizənin yaranmasına gətirib çıxarır. Zəif ölkələrdə belə mübarizə hətta vətəndaş müharibəsinə çevrilir. Buna misal olaraq Afrikanın əksər ölkələrində baş verən daxili müharibələri göstərmək olar: Sudanda 1983-cü, Əlsəzairdə 1991-ci, Anqolada (Kabində) isə 1992-ci ildə neft uğrunda, Konqo DR-da 1997-ci, Anqolada (UNİTA) 1975-ci ildə almaz yataqları uğrunda başlayan vətəndaş müharibələri hələ davam edir. İndoneziya, Papua-Yeni Qvineya və Syerra-Leonedə mis və qızıl ehtiyatları uğrunda tayfalararası müharibələr onillərdir ki davam edir.

Təbii sərvətlərin əldə edilməsi uğrunda mübarizənin başqa bir forması ölkədə siyasi və iqtisadi hakimiyyətin kiçik bir qrupun əlində cəmlənməsi şəklində ola bilər. Bu halda hakim qruplar təbii resurslardan əldə edilən gəlirlərin xeyli hissəsini öz hakimiyyətini qoruyub saxlamaq məqsədlərinə (məsələn, polisin gücləndirilməsi, gizli silahlı dəstələrin saxlanılması, rəqiblərin aradan götürülməsi və s.) sərf edirlər (bu, hazırda Azərbaycan üçün səciyyəvidir).

Zəngin təbii ehtiyatları ilə ölkədə iqtisadi artım göstəriciləri arasında müşahidə olunan tərs mütənasiblik asılılığın başqa bir mexanizmi hasilat sektoru miqyaslarının əhalinin təhsil səviyyəsinə və insan kapitalına mənfi təsiridir. Ona görə ki, əvvələ, təbii resursların mənimsənilməsindən əldə olunan gəlirlərin çox hissəsi əmək haqqı ilə bağlı deyil; ikincisi, hasilat sahələri bir o qədər elmtutumlu deyil və burada yüksək ixtisaslaşmış iş qüvvəsinə tələb çox aşağıdır. Eyni zamanda hasilat sahələri üzrə ixtisaslaşan insanlardan başqa sahələrdə istifadə etmək mümkün olmur.

Ən çox rast gəlinən hal isə təbii sərvətlərlə zəngin olan ölkələrdə təbəqələşmənin dərinləşməsi, gəlirlərin daha çox hissəsinin daha az insanın əlində cəmləşməsidir. Bu da demokratik cəmiyyət quruculuğunun inkişafında əhəmiyyətli rol oynayan orta təbəqənin formalaşmasına imkan vermir. Bu səbəbdən də zəngin təbii sərvətləri olan ölkələrin əksəriyyətində diktatura, və ya monarxiya rejimi





mövcuddur. Deməli, təbii sərvət daha çox ölkədə sosial-iqtisadi problemlərin dərinləşməsi mənbəyi kimi ortaya çıxır.

Bir sıra ölkələrdə isə təbii sərvətlərdən əhalinin mənafeyi naminə istifadə edilməsi ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün ən yaxşı vasitə kimi istifadə olunur. Buna Norveçin təcrübəsini misal gətirmək olar. Təəssüf ki belə hallara az təsadüf edilir.

Gəlirlərin qeyri-bərabər bölgüsünün səbəbləri müxtəlifdir. Qanunsuz (kölgə) iqtisadi əlaqələr, xüsusilə xidmətlərə görə qeyri-rəsmi ödənişlər kimi rüşvətdən istifadə olunması, maliyyə vəsaitlərinin faktiki axınları ilə əlaqədar məlumatların təhrif edilməsi və s. Bu halda həmin resurslardan istifadə hüquqlarını artıq əldə etmiş təsir qrupları (şirkətlər və s.) mövcud institusional sistemin çatışmazlıqlarının saxlanılmasında (dəyişmədən qalmasında) maraqlı olurlar. Başqa sözlə, əgər korrupsiya, bürokratiya, zəif hüquq və məhkəmə sisteminin mövcudluğu hesabına ayrı-ayrı qruplar təbii resurslardan istifadə sahəsində imtiyazlı (əlverişli) hüquqlar əldə edə bilirsə, onda belə qruplar qeyd olunan problemlərin (çatışmazlıqların) qalmasında, hətta artmasında maraqlı olacaqlar. Deməli, zəngin təbii ehtiyatların mövcudluğu sosial bərabərlik və ədalət prinsiplərinin sıxışdırılmasına gətirib çıxarır.

Təəssüflə qeyd etmək lazımdır ki, müstəqilliyimizdən 15 il vaxt keçməsinə və neft gəlirlərinin artmasına baxmayaraq, bu günə qədər orta təbəqə formalaşmayıb. Hətta bunun əksinə, kəskin təbəqələşmə (varlılar və yoxsullar) halları müşahidə olunur. Düzdür, son vaxtlar hökumət rəsmiləri «sürətli iqtisadi artım» və əhalinin gəlirlərinin artması ilə bağlı fikirlər söyləsələr də, bunun real olaraq cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayan orta təbəqənin formalaşmasına təsiri hiss olunmur.

Səbəb kimi gəlirlərin qeyri-bərabər və sosial ədalət prinsiplərinə əsaslanmadan bölüşdürülməsini, əhalinin kiçik bir qrupunun gəlirlərinin sürətlə artmasını, iqtisadiyyatda məşğul olanların əmək haqqının aşağı olmasını, hətta müzdla işləyənlərin özlərinin də əmək haqqı arasında fərqlərin kəskin şəkil almasını, əhalinin sosial səviyyəsinə görə yaranmış böhranın dərinləşməsini və s. göstərmək olar.

Əslində, Azərbaycanda bu gün əsasən iki təbəqə - varlı və yoxsullar təbəqəsi mövcüddür. Bu da Azərbaycanda hökumətin əhalidən deyil, əhalinin hökumətdən asılılığına gətirib çıxarır. Belə bir vəziyyətdə hökumətin əhaliyə «diktəsi» üçün daha əlverişli şərait yaranır.

Yəni, əhalinin böyük əksəriyyətinin dövlətin sosial yardımına kəskin ehtiyacı olur.

İnkişaf etmiş cəmiyyətlərdə isə bu məsələ tamamilə əksinədir. Yəni, dövlət (hökumət) orta təbəqədən asılı olur və məhz bu təbəqə cəmiyyətdə ədalətli qərarların qəbulunda əhəmiyyətli rol oynayır. Təsadüfi deyil ki, bu gün qəbul edilən qanunların, fərman və sərəncamların bir çoxu varlı təbəqənin maraqlarına xidmət edir.

Qeyd edək ki, 2004-cü ildə mədənçıxarma, emal sənayesi, tikinti, nəqliyyat və rabitənin dövlət sektorunda (həmçinin özəl sektorda) nominal orta aylıq əmək haqqının səviyyəsi yüksək olub. Lakin adları çəkilən sahələrdə çalışanların ümumi məşğul əhalinin sayında xüsusi çəkisi də kifayət qədər azdır. Digər tərəfdən, məşğul əhalinin ən çox kənd təsərrüfatı sahəsində cəmləşməsinə baxmayaraq, bu sahədə çalışanların qazancı aşağı olaraq qalmaqdadır. Təhsil və səhiyyə sahəsində çalışan işçilərin orta aylıq nominal əmək haqqı həm özəl, həm də dövlət sektorunda aşağı həddədir.

Araşdırmalar göstərir ki, 2004-cü ildə həm iqtisadiyyatda məşğul olanların (3764 min nəfərin) təqribən 65%-dən çoxunun nominal orta aylıq əmək haqqının, həm də 1292,6 min nəfərə yaxın pensiyaçının (onların çox az hissəsinin pensiyası yüksəkdir) pensiyası yaşayış minimumundan (təyin olunmuş orta aylıq pensiyanın həcmi 119,1 min manat təşkil edir) aşağı olub. Bu da ölkə əhalisinin 60%-ə qədərinin orta gəlirinin yaşayış minimumundan aşağı olduğunu göstərir. Deməli, ölkədə əmək ehtiyatlarının çox böyük bir hissəsi, ölkə əhalisinin isə təqribən 2/3-sının adambaşına gəlirləri minimum istehlak büdcəsinin dəyərindən aşağıdır. Göründüyü kimi, əhalinin mütləq böyük hissəsinin istər gəlirlərinin, istərsə də xərclərinin yaşayış minimumunun səviyyəsindən və ondan aşağı olması vətəndaşların rifah halının yuksəldilməsinə imkan vermir. Belə bir şəraitdə ölkədə orta təbəqənin formalaşması təbii ki, qeyri-mümkündür.

Müxtəlif ekspertlərin hesablamalarına görə, əhalinin təqribən 10%-nin (məmurlar və onlara yaxın olanların) ifrat varlanması, 10-15%-nin (bunlara xarici (neft) şirkətlərdə çalışanlar, bizneslə məşğul olanların bir hissəsi, müxtəlif dövlət qulluğu vəzifəsində çalışanlar, məmurlar ordusu ilə yaxın işbirliyi olanlar) orta gəlirlərə malik olması, 75-80%-nin isə yoxsul və ifrat yoxsul olması müşahidə edilir. Əhalinin 10% varlı və 10% kasıb təbəqəsinin gəlirlərinin fərqi 1989-cu ildə 5 dəfə olduğu halda, 2003-cü ildə bu rəqəm 23 dəfəyə yüksəlib. Qeyd etmək lazımdır ki, bu əmsal 8 olarsa, normal sayılır. Müstəqil ekspertlərin hesablamasına görə, gəlirlərin 67%-i əhalinin 5%-nin payına düşür. Bu faktlar ölkədə gəlirlərin qeyri-bərabər bölüşdürüldüyünü və orta təbəqənin formalaşmadığını deməyə əsas verir.





DSK-nın ev təsərrüfatlarının müayinəsinə əsaslanan məlumatlarında 2003-cü ildə adambaşına istehlak xərclərinin tərkibində ərzaq məhsullarına ayrılan xərclər 54,7% olduğu halda, 2005-ci ilin birinci rübündə 56,7%-ə yüksəlib. Lakin beynəlxalq təcrübəyə görə, əhalinin istehlak xərclərindən ərzaq məhsullarına ayrılan xərclər 50%-dən çoxdursa, bu, həmin ölkədə yoxsulluğun göstəricisinin yüksək olması kimi xarakterizə edilir. Misal üçün, ABŞ-da 4 nəfərdən ibarət ailənin minimal qida rasionu tapılaraq 3-ə vurulur. Burda xərclərin 1/3–i ərzağa, 2/3 hissəsi isə qeyri-ərzaq və xidmətlərin ödənilməsinə yönəlir. Ümumiyyətlə isə normalara əsasən, orta yaşayış səviyyəsində gəlirlərin 15-18 %-i ərzağa, yerdə qalan hissəsi qeyri-ərzağa və digər tələbatların (vergi və rüsumların) ödənilməsinə xərclənir.

Əhalinin gəlirlərinin quruluşuna diqqət yetirsək görərik ki, əhalinin pul gəlirlərinin tərkibində əmək gəlirlərinin xüsusi çəkisi getdikcə aşağı düşür. Belə ki, 1990-cı ildə pul gəlirlərinin tərkibində əmək gəlirlərinin xüsusi çəkisi 69,3 faiz olduğu halda, 2003-cü ildə 30,5 faizə enib. Bu isə əhalinin məşğulluğu sahəsində ciddi problemlərin olduğundan xəbər verir. Müqayisə üçün qeyd edək ki, beynəlxalq təcrübəyə görə əhalinin pul gəlirlərinin tərkibində əmək gəlirlərinin xüsusi çəkisinin 50%-dən azlığı həmin ölkədə işsizlik səviyyəsinin yüksək olduğunu göstərir.

Respublikamızda isə BƏT-in metodologiyası əsasında aparılan müayinə üzrə ölkədə işsizlk səviyyəsi 10,7% müəyyən edilib. Ölkəmizdə işsizlik səviyyəsinin yüksək olması ilə yanaşı, məşğul əhalinin böyük əksəriyyətinin çalışdığı iş yerləri davamlı deyil. Belə ki, bu iş yerlərinin böyük əksəriyyətinin mövsümi xarakter daşıması və əmək haqqının aşağı olması işsizlərin sayının artmasına təsir göstərir.

Ölkə əhalisinin böyük əksəriyyəti kasıb olduğu üçün onların istehlak etdiyi ərzaq məhsulları içərisində çörək və çörək məhsulları, tərəvəz və tərəvəz məhsulları üstünlük təşkil edir. Ət və ət məhsulları, balıq və balıq məhsulları kimi yüksək kalorili məhsulların istehlakı aşağıdır. Qeyd edək ki, qonşu Rusiyada əhalinin istehlak etdiyi ət və ət

məhsulları, balıq və balıq məhsulları ölkəmizə nisbətən 2 dəfə yüksəkdir. Məlumat üçün bildirək ki, Nazirlər Kabinetinin müəyyən etdiyi normalara əsasən 1 nəfərin gün ərzində qəbul etməli olduğu enerji 2200 kkal. olduğu halda, azadlıqdan məhrum edilmiş şəxslər üçün bu norma təxminən 1,5 dəfə (3401 kilokalori) artıqdır. Bu da onu göstərir ki, Nazirlər Kabinetinin nəzərdə tutduğu norma adi vətəndaşların normal həyat fəaliyyətlərini davam etdirmələri üçün kifayət deyil.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, yoxsulluq dərinləşdikcə bu risklərin və təhlükələrin qarşısının alınması daha da çətinləşir və onun aradan qaldırılması üçün daha çox vəsait tələb olunur. Ona görə də dövlət yoxsulluğun dərinləşməsinin qarşısının alınması istiqamətində tədbirlər planını daha geniş şəkildə həyata keçirməyə borcludur. Yoxsulluğun dərinləşməsi doğulanda gözlənilən ömür müddətini azaldır, əhalinin təhsil almasını, səhiyyə xidmətlərindən istifadə etməsini çətinləşdirir ki, bu da son nəticədə insan inkişafına mənfi təsir göstərir. Dövlət əhalinin sosial müdafiəsini öz üzərinə götürməklə fərdləri və ev təsərrüfatlarını riskdən və təhlükədən müdafiə edə bilər.

Yeri gəlmişkən, ABŞ alimi S.Martin Lütset əhalinin rifah halı ilə demokratiyanın dayanıqlığı arasındakı asılılığı öyrənərək maraqlı bir nəticəyə gəlib. O, adambaşına illik gəlirə görə ölkələri dörd qrupa bölüb: 1) 1500 ABŞ dollarına qədər 2) 1500-3000 ABŞ dolları arasında 3) 6000-9000 ABŞ dolları arasında 4) 9000 ABŞ dollarından yuxarı. Onun qənaətinə görə birinci halda demokratik əsaslar 8 il fəaliyyət göstərə bilər. Bu vəziyyətdə hökumət vətəndaşların iradəsindən deyil, təbii ehtiyatlardan asılı olur. Çünki ordu, polis aparatı əhalinin ödədiyi vergilərdən deyil, ölkənin təbii sərvətlərindən gələn gəlirlərlə saxlanılır. İkinci halda bu müddət 16 il göstərilir. Üçüncü halda isə demokratiya daha dayanıqlı surətdə formalaşır və inkşaf edir, hökumət isə vətəndaşların büdcəyə ödədiyi vergilərdən asılı vəziyyətdə olur. Dördüncü halı isə Martin Lütset əbədi demokratiya adlandırır və hökumətin əhalidən tam asılı olduğunu bildirir. Çox təəssüf ki, Azərbaycan birinci qrupa aid olan ölkələr sırasındadır.

İnkişaf strategiyası düzgün müəyyən edilməyən və sosial ədalət prinsipləri pozulan (gəlirlərin ədalətsiz bölgüsü) ölkələrdə yoxsulluğun azaldılması çətinləşir və bu istiqamətdə həyata keçirilən tədbirlər öz əhəmiyyətini itirir.





- Son illərdə ölkəyə daxil olan neft gəlirlərinin ədalətsiz şəkildə bölüşdürülməsi müşahidə olunur. Nəticədə, Azərbaycanda kiçik bir qrupun sürətlə varlanması, əhalinin böyük əksəriyyətinin yoxsullaşması baş verir.

Azərbaycanda əmək haqqının tənzimlənməsi istiqamətində bir qayda olaraq sosial ədalətsizliyə yol verilir. Bu ədalətsizlik daha çox büdcə təşkilatlarında çalışanların əmək haqqının artırılmasında subyektivliyə yol verilməsi ilə izah oluna bilər. Son illərdə dövlət büdcəsindən maliyyələşən müxtəlif təşkilatlarda (baxmayaraq ki, ölkədə VTC tətbiq olunub) əmək haqlarının heç bir elmi əsası olmadan müxtəlif vaxtlarda və müxtəlif faizlərlə artırılması, həmçinin müxtəlif təşkilatlarda eyni funksiyanı yerinə yetirən işçilərin əmək haqqında ciddi fərqlərin olması, VTC-nin öz vahidliyini itirməsi, sosial ədalətsizlik kimi qiymətləndirilməlidir.

Azərbaycan ictimaiyyətində haqlı olaraq yüksək dövləti vəzifə tutan şəxslərin varlı təbəqə (rüşvət, korrupsiya, vəzifədən sui-istifadə hesabına) olması fikri formalaşıb. Bunu «Hesabat» jurnalında dərc olunan «Azərbaycanın ən varlı adamları» siyahısında adları çəkilən insanların böyük əksəriyyətinin yüksək vəzifəli şəxslər olması da təsdiq edir. Ekpertlərin qənaitincə «Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının qanunu», «Dövlət qulluğunda çalışanların pensiya təminatı haqqında Azərbaycan respublikasının qanunu» da məhz bu varlı təbəqənin daha da varlanmasına xidmət edir. Reallıqda da ölkədə nominal orta aylıq əmək haqqının 483,4 min manat (yaşayış minimumu 486,9 min manat) olması, elm, təhsil, səhiyyə, və digər nominal orta aylıq əmək haqqının hətta MƏS-in dəyərindən də az olduğu bir vaxtda dövlət qulluqçularına, həmçinin Milli Məclis üzvlərinə əmək haqqının bundan 10-20 dəfə çox verilməsi (2004-cü il tarixindən) sosial ədalətsizlik kimi qiymətləndirilməlidir.

Ən maraqlısı isə odur ki, cəmiyyətin inkişafında çox böyük rolu olan elm adamlarının, müəllimlərin, səhiyyə işçilərinin əmək haqları heç özlərinin ailələrini dolandırmaq üçün də kifayət etmir. Belə bir şəraitdə dövlət məmurlarının əmək haqlarının ölkə üzrə orta göstəricidən 10-15 dəfə çox olmasına baxmayaraq, onların pensiyaya çıxdıqdan sonrakı həyatı da demək olar ki, tam şəkildə sığortalanıb. Bu da onu göstərir ki, Milli Məclisdə və dövlət aparatında oturanlar əhalinin deyil, yalnız özələrinin bugünkü və gələcək həyatlarını maksimum səviyyədə təmin

etməklə məşğuldurlar. Qəbul edilən bir çox qərar və qanunlar məhz onların lehinə hazrlanır. Bundan başqa, ölkədə inhisarçılıq, rüşvətxorluq, korrupsiya və s. bu kimi neqativ hallar da onların adı ilə bağlıdır.

Əgər dövtət qulluqçularının əmək haqlarının bu dərəcədə artırılması rüşvətxorluğun, korrupsiyanın azaldılmasına «xidmət edirsə», hesab edirik ki, bu öz bəhrəsini verməyəcək. Ən azı ona görə ki, onların aldığı rüşvət (təhsil və səhiyyə işçilərindən fərqli olaraq) və mənimsədiyi dövlət vəsaitləri ailəni dolandırmaq və orta səviyyədə yaşamaq üçün deyil, özlərinə «super» həyat qurmaq, villa və ən bahalı maşınlar yarışına çıxmaq üçündür. Bu gün onlara verilən ən yüksək əmək haqqı belə onların istədiyi həyatı təmin etmək üçün kifayət edə bilməz. Deməli, onlar yenə də öz əməllərindən əl çəkmirlər və beləliklə, ikitərəfli uduş edirlər. Büdcə təşkilatlarında çalışan başqa sahələrin işçiləri isə hətta orta səviyyədə yaşamaqdan da məhrumdurlar. Bu da büdcəyə transfert olunan neft gəlirlərinin ədalətsiz bölgüsü kimi qiymətləndirilməlidir.

Eyni zamanda, siyasi hakimiyyət əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə, ölkədə dayanıqlı orta sinfin formalaşmasında da maraqlı deyil. Çünki bu halda da hakimiyyətin iqtisadi gücü bölünür, cəmiyyətdə demokratiyanın inkişafı üçün iqtisadi baza yaranır. Belə proseslərin qarşısını almağa, onları ləngitməyə çalışan hakimiyyət faktiki olaraq ölkədə kiçik və orta sahibkarlığın inkişafına mane olur, istehsalın dirçəlməsinin qarşısını alır, ölkənin xammal ixracı və ərzaq idxalı yönümündə inkişafına maraqlı olub, həmin sahələri özünün inhisarında və bilavasitə nəzarətində saxlayır. Beləliklə, siyasi və iqtisadi hakimiyyətin vahid əldə cəmlənməsi ölkənin iqtisadi yüksəlişinə və cəmiyyətin demokratik inkişafına əngəl törədir.

Danılmaz həqiqətdir ki, istənilən ölkədə korrupsiyanın və rüşvətxorluğun səviyyəsi iqtidarda olan qüvvələrin siyasi iradəsindən bilavasitə asılıdır. Son illər ərzində ayrı-ayrı beynəlxalq təşkilatların apardıqları bütün tədqiqatlarda Azərbaycandakı korrupsiya səviyyəsinin çox yüksək olması göstərilib. ABŞ-ın Beynəlxalq Şəffaflıq Təşkilatının son bir neçə ildə apardığı tədqiqatlarda (ildə 2 dəfə) ölkəmizin dünyada ən çox korrupsiyalaşmış 5 ölkədən biri olduğu göstərilir.





Korrupsiya və rüşvətxorluğun belə yüksək səviyyədə inkişafı neft gəlirlərinin ölkənin iqtisadi inkişafına yönəldilməsinə əngəl yaradır, onların təyinatına uyğun istifadə olunmasını çətinləşdirir.

Siyasi və iqtisadi hakimiyyəti bütünlüklə öz əlində cəmləşdirən iqtidar məhkəmə hakimiyyətini də özündən asılı vəziyyətə salıb. Ölkədə hələ də müstəqil məhkəmə hakimiyyəti formalaşmayıb, məhkəmə islahatları daha çox formal xarakter daşıyır. Nəticədə məhkəmə sistemi də korrupsiyalaşıb və əsasən siyasi hakimiyyətin mənafelərinə uyğun qərarlar çıxarır. Bu isə ölkədə qanunçuluğun bərpasına imkan vermir. Qəbul olunan qanunların müddəalarının sadə və birmənalı olmaması subyektivizmin güclənməsinə, səhv qətnamələrin çıxarılmasına şərait yaradır. Bu da əhali arasında məhkəmə sisteminə və məhkəmə hakimiyyətinə inamı azaldır.

Müstəqil məhkəmə hakimiyyətinin olmaması neft gəlirlərinin istifadəsi üzərində ictimaiyyətin nəzarətini səmərəsiz və əhəmiyyətsiz edir, siyasi hakimiyyətin və dövlət məmurlarının özbaşınalığına şərait yaradır.

Sosial differensiallaşmanın ən əsas faktorlarından biri sosial siyasətin formalaşdırılmasının müasir tendensiyasıdır. Bu tendensiya inkişaf etmiş ölkələrdə tam tədqiq edilir. Onların təcrübəsi hazırda bizim keçid dövrü üçün də əhəmiyyətlidir.

Bazar iqtisadiyyatına malik ixtiyari ölkələrin əhalisinin gəlirləri diferensiallaşdırılır. Gəlirlərin differensiallaşma dərəcəsini (səviyyəsini) ölçmək üçün qrafik göstəricisi kimi Lorens əyrisindən istifadə edilir[20].

[20] Y.H.Həsənli, R.T.Həsənov "İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi", Bakı 2000, 272 s.




Şəkil 1. Lorens əyrisi.

Gəlirlərin differensasiya dərəcəsini qiymətləndirmək üçün Cini əmsalından (indeksindən), habelə median (*Me*), kvartil (*Q*), desil (*d*), yarımdesil və persentil əmsallarından istifadə edilir[21].

Cini əmsalı *OAE* fiqurunun sahəsinin *OAB* üçbucağının sahəsinə olan nisbətinə bərabərdir (*Bax*: şəkil 1). Cini əmslı sıfırla vahid arasında olur. Cini əmsal sıfra yaxın olduqda sosial bərabərsizliyin (differensiallaşmanın) səviyyəsinin aşağı olmasını, vahidə yaxın olduqda isə sosial bərabərsizliyin (differensiallaşmanın) səviyyəsinin yuxarı olmasını göstərir.

Qeyd edək ki, beynəlxalq təşkilatların (DB, BMT İP, BVF) hesabatlarında son illərə qədər Azərbaycandakı sosial bərabərsizliyi xarakterizə edən Cini və desil əmsallarının qiymətləri verilməyib. Bu tədqiqatda Azərbaycan üçün sosial bərabərsizlik əmsallarının qiymətləri rəsmi statistikanın əhalinin pul gəlirləri və bölgüsü haqqında verdiyi məlumatlar əsasında hesablanıb. Statistika Komitəsinin sonrakı illərdəki hesabatlarında əvvəlki illərin rəqəmlərində etdikləri dəyişikliklər sosial bərabərsizlik ölçülərini xeyli aşağı salır. Belə ki, 1997-ci il üçün verilən əvvəlki məlumatlara görə hesablanmış Cini əmsalı 0,703-ə, desil əmsalı 75-ə, həmin il üçün sonrakı məlumatlara görə hesabladıqda Cini əmsalı 0,372-ə, desil əmsalı 15-ə bərabər olub.

[21] В.Я.Райцин. "Модели планирования уровня жизни", М., "Экономика", 1987 səh 81





Fərq onunla izah edilir ki, ev təsərrüfatlarının gəlirləri və xərclərində rəsmi qeydiyyata düşməyən gəlirlər və xərclər (məsələn, şəxsi yardımçı təsərrüfatdan daxil olan ərzaq məhsullarının dəyəri) nəzərə alınıb.

Qeyd edək ki, hətta anonim şəkildə ev təsərrüfatlarının gəlirləri və xərcləri haqqında aparılan sorğular real vəziyyəti tam əks etdirə bilməz, çünki həmin anketləri yalnız yüksək qeyri-rəsmi gəlirə malik olmayan ev təsərrüfatları düzgün doldura bilər. Ona görə də son illərdə aparılan müayinələrin ancaq yuxarı təbəqəyə malik olmayan ev təsərrüfatlarının gəlir və xərclərini xarakterizə etməsi qənaətinə gəlmək olar.

Dünya Bankının (DB) 1999-cu il üçün hesablamalarına görə Müstəqil Dövlətlər Birliyində (MDB) Cini əmsalının ən yüksək qiyməti Rusiyada - 0,48, Azərbaycanda isə 0,44-ə bərabər olub. Bu onu göstərir ki, Azərbaycan MDB məkanında sosial-bərabərsizliyə görə Rusiyadan sonra ən pis göstəriciyə malik olub. Qeyd edək ki, beynəlxalq təşkilatların hesabatlarında Cini əmsalının qiyməti bəzən faizlə göstərilir. Məsələn, 2001-ci ildə Cini əmsalının 37 olması o deməkdir ki, Azərbaycanda gəlirlərin bölgüsü ideal bərabər bölgüdən 37% kənarlaşıb.

Qeyd edək ki, 2003 və 2004-cü illərdə bəzi büdcə təşkilatlarında əmək haqları 50-100%, bəzilərində isə 1,5-3 dəfə artırılıb. Məsələn, 2003-cü ildə büdcədən maliyyələşən təhsil, səhiyyə, elm, sosial təminat, idman, mədəniyyət, incəsənət, KİV, kənd təsərrüfatı, meşəçilik, balıqçılıq, melorasiya və su təsərrüfatı, ekologiya və hidrometorologiya sahəsində çalışan işçilərin VTC ilə müəyyən edilmiş aylıq vəzifə maaşları 50% artırılıb. 2004-cü ildə də dövlət qulluqçularının, hüquq-mühafizə orqanlarının işçilərinin, hərbiçilərin əmək haqqında 1,5-3 dəfə artımlar edilib. Göründüyü kimi, büdcə təşkilatlarında çalışanların əmək haqqının artırılmasında diskriminasiyaya yol verilib. Bu da Dövlət Büdcəsindən maliyyələşdirilən təşkilatlarda fəaliyyət göstərən eyni qulluq mövqeyinə malik olan peşə sahiblərinin əmək haqlarında ciddi fərqlərin yaranmasına səbəb olub. Belə bölgü bir tərəfdən əhali arasında onsuz da dərin olan sosial təbəqələşməni daha da dərinləşdirir, digər bir tərəfdən də büdcə təşkilatlarında çalışanlar arasında haqlı narazılıq yaradır.

Bundan başqa bu artımların inflyasiyanın «yeminə» çevrilməsi onun yoxsulluq səviyyəsinə təsirini azaldır. Qeyd edək ki, 2004-cü ildə inflaysiya rəsmi 6,7%, qeyri-rəsmi isə 10-15% təşkil edib. 2005-ci ildə isə rəsmi inflyasiya 10%-dən yüksək olub. Qiymət artımının ərzaq məhsulları üzrə daha yüksək olduğunu və əmtəə dövriyyəsinin 66,3%-nin ərzaq məhsulları təşkil etdiyini nəzərə alsaq, onda əhalinin real pul gəlirlərinin bir qədər də azaldığını görmək olar. Deməli, qeyd edilən artımlar orta təbəqənin formalaşhmasına mənfi təsir göstərir.

Bütün bunlarla yanaşı neft gəlirləri 2003 və 2005-ci il 1 yanvar tarixinə qədər MƏH-nin 5 dəfə artırılmasına da imkan yaradıb. Büdcədən investisiya layihələrinin maliyyələşdirilməsinə, kiçik və orta sahibkarlıq subyektlərinin kredit təminatının yaxşılaşdırılması məqsədilə Sahibkarlığa Kömək Milli Fonduna 2004-cü ildə 100, 2005-ci ildə 200 mlrd. manat vəsait ayrılıb. Şübhəsiz bu büdcəyə daxil olan neft gəlirləri (Neft Fondu da daxil olmaqla) hesabına mümkün olub.

Beləliklə aparılan tədqiqatlar göstərir ki, son illərdə ölkəyə külli miqdarda neft gəlirləri daxil olsa da bu gəlirlərin ədalətsiz bölügüsü nəticəsində orta təbəqənin formalaşması mümkün olmayıb.





# IV FƏSİL
# TƏHSİLİN YOXSULLUQLA QARŞILIQLI ƏLAQƏSİ VƏ TƏHSİLİN İNKİŞAFINDA NEFT GƏLİRLƏRİNDƏN İSTİFADƏ STRATEGİYASI

## 1. Təhsilin yoxsulluqla qarşılıqlı əlaqəsi

Məlum olduğu kimi, butun dünyada əhalinin təhsil almaq imkanlarının genişləndirilməsi yoxsulluğun azaldılmasının əsas məqsədlərindən biri kimi qarşıya qoyulub.

Bu inkarolunmaz faktdır ki, insan kapitalı cəmiyyətin başlıca məhsuldar qüvvəsidir. Yüksək təhsilə malik insan yeni maşın və mexanizmlər ixtira edir, qabaqcıl texnologiyalar yaradır, istehsalı səmərələşdirir, elmi kəşflər edir. Digər bir tərəfdən, dünya təcrübəsi iqtisadi artımın əsasən insan kapitalı hesabına formalaşdığını göstərir. Dünya Bankının 192 ölkədə apardığı tədqiqatlar nəticəsində məlum olub ki, «planetimizdə iqtisadi artımın 16%-i fiziki kapital, 20%-i təbii resurslar, 64%-i isə insan kapitalı hesabına baş verir».[22]

Təsadüfi deyil ki, 2001-ci ildə BMT-nin İnsan Potensialının İnkişafı Haqqında hesabatında sənayeləşmiş və informasiyalaşmış cəmiyyətin qurulması şəraitində cəmiyyətin, dövlətin və şəxsiyyətin kompleks halda qarşılıqlı fəaliyyət göstərməsi üçün təhsilin qarşısına aşağıdakı yeni vəzifələrir qoyulduğu qeyd olunub: dəyişən dünyada özü-özünü təsdiq etmək, uğurlu sosiallaşma üçün şərait yaratmaq; təkcə bilik vermək deyil, öyrənməyi öyrətmək, özü-özünü təhsilləndirməyə istiqamətləndirmək; əhalini ümumi orta təhsillə təmin etmək və minimum təhsil səviyyəsini yüksəltmək»[23].

Dünya təcrübəsindən məlumdur ki, zəngin təbii sərvətlərə malik olan ölkələrdə çox vaxt təhsilin səviyyəsi aşağı olur. Bu da bu tip ölkələrdə demokratiyanın olmaması, təbii sərvətlərdən gələn gəlirlərə arxayınlıq, hakimiyyətin əsas diqqətinin təbii sərvətlərin satışına yönəltməsi və əldə edilən gəlirlərdən səmərəsiz istifadə olunması ilə

[22]. Büdcə və Təhsil. «Ekspert» jurnalının əlavəsi. Bakı, 2004.

[23] Доклад ООН о развитии человеческого потенциала, «Независимая Газета», 02 2001 г

əlaqələndilir. Təcrübə göstərir ki, diktaturanın hakim olduğu ölkələrdə hakimiyyət insanların intellektual səviyyəsinin yüksəldilməsinə bir qayda olaraq, maraqlı olmur. Çünki savadsız insanı idarə etmək, daha konkret desək, istismar etmək daha asan olur.

Demokratiyanın nisbətən inkişaf etdirildiyi ölkələrin təcrübəsi isə göstərir ki, təhsil təkcə bu ölkələrin sosial-iqtisadi və sosial-mədəni inkişafında deyil, həmçinin təhlükəsizliyində, davamlı inkişafında, məşğulluğun təmin olunmasında, yoxsulluğun azaldılmasında və s. mühüm yer tutan fəaliyyət sahəsidir. Çünki ixtisaslı kadrların yaratdığı maddi və mənəvi dəyərlə, heç bir ixtisası olmayan insanın yaratdığı dəyər, həmçinin onların gəlirləri arasında ciddi fərq mövcuddur. İxtisaslı kadrlar həmçinin əməyin keyfiyyəti baxımından da ixtisassız işçilərdən əsaslı şəkildə fərqlənirlər. İxtisaslı kadrların hazırlanmasına qoyulan investisiyalar insanın formalaşmasına qoyulan investisiyadır. Başqa formada bu, insana kapital qoyuluşu da adlandırılır və belə investisiyalar insan kapitalı yaradır. Ümumiyyətlə, dünya təcrübəsində insan kapitalı ən çox gəlir gətirən investisiya hesab olunur. Bu baxımdan, indiki dövrdə təhsilin keyfiyyətini yüksəltməyə çəkilən xərclərin səmərəliliyinin artırılması vacib məsələ kimi qarşıya qoyulur.

İnkişaf etmiş ölkələrin təcrübəsindən o da məlumdur ki, təhsil insanın intellektinin inkişafının və cəmiyyətin tərəqqisinin özülü hesab olunur. Başqa sözlə təhsil əhalinin həyat səviyyəsinin yüksəldilməsinin və İnsan İnkişafı İndeksinin ən mühüm amillərindən biri olmaqla, ölkənin sosial və iqtisadi inkişafının sürətlənməsinə hərtərəfli təsir göstərərən mühüm vasitədir. Çünki təhsil, peşə və ixtisasa sahibolma, bilavasitə insanın məşğulluğuna, gəlir əldəetmə imkanlarına və həyat səviyyəsinin yüksəldilməsinə, pul gəlirlərinin artmasına, daha geniş mənada desək, həyatda lazım olan bütün zəruri biliklərin toplanmasına, ağlın inkişafına, yaradıcı və səmərəli təfəkkür metodlarının təkmilləşdirilməsinə, iqtisadi artımın sürətlənməsinə bilavasitə təsir göstərir. Qazanılmış biliklər isə, insanın ömür yolunda onu daim müşaiyət edir və sosial rifahını yaxşılaşdırır.





## 2. Azərbaycanda təhsilin yoxsulluqla qaşılıqlı əlaqəsi

Yuxarıda qeyd etdik ki, təhsil əhalinin pul gəlirlərinin artmasında əhəmiyyətli rola malikdir. Təsadüfi deyil ki, ANSİRM tərəfindən aparılan sorğuda respondentlərə ünvanlanan «Yüksək keyfiyyətli təhsil almaq insanın maddi vəziyyətinin yaxşılaşmasına necə təsir göstərir?» sualına cavab verənlərin 71%-i «yaxşı» cavabını seçib. Respondentlərin 9,8%-i «pis», 13,9%-i «bilmirəm» cavabını verib. Bundan başqa, «Sizcə yüksək keyfiyyətli təhsil məşğulluğun təmin olunmasına təsir edirmi?» sualına cavab verənlərin 45,7%-i «bəli», 14,3%-i «xeyr», 31,5%-i «qismən», 7,8%-i «bilmirəm» cavabını verib. «Sizcə keyfiyyətli təhsil ölkədə yoxsulluğun azaldılmasına təsir edərmi?» sualına cavab verənlərin 53,2%-i «bəli», 9,2%-i «xeyr», 28,3%-i «qismən», 9,3%-i isə, «bilmirəm» cavabını seçib. Sorğunun nəticələrindən də göründüyü kimi, ictimai rəy təhsili həm məşğulluğun təmin olunmasına, həm də yoxsulluq risqinin azaldılmasına müsbət təsir göstərən faktor olaraq qiymətləndirir.

Bu amil indiki bazar iqtisadiyyatı şəraitində ölkədə təhsilin səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilməsinin zəruriliyini qarşıya qoyur.

Son dövrlər DSK hər il ev təsərrüfatlarının müayinəsini aparır. Bu müayinədə gəlirlərin formalaşmasına təhsilin təsiri də öyrənilir. Aparılan müayinənin nəticələrinə görə, ali təhsili olan ailə başçısının gəliri ondan aşağı təhsili (orta ixtisas, peşə təhsili, ümumiorta) olan ailə başçısının gəlirindən yüksəkdir.

Cədvəl 2

| 2003-cü ildə ev təsərrüfatlarının ailə başçısının təhsilinə görə gəlirlərinin ölkə üzrə orta göstəriciyə nisbəti %-lə | Ölkə üzrə Cəmi | Ali | Orta ixtisas, texniki peşə | Ümumiorta | Əsas | İbtidai və ondan aşağı |
|---|---|---|---|---|---|---|
| Gəlirlər-cəmi | 100 | 116,7 | 100,0 | 95,1 | 93,0 | 92,7 |
| Məşğulluqdan gəlirlər | 100 | 184,3 | 96,6 | 81,0 | 58,9 | 49,7 |
| Özünüməşğulluqdan gəlirlər | 100 | 90,0 | 118,4 | 980,1 | 89,3 | 64,6 |
| Kənd təsərrüfatından gəlirlər | 100 | 63,4 | 100,2 | 105,3 | 134,8 | 129,3 |
| İcarədən gəlirlər | 100 | 128,7 | 83,9 | 107,3 | 81,6 | 71,7 |
| Əmlakdan gəlirlər | 100 | 142,8 | 93,7 | 85,0 | 110,8 | 97,4 |
| Alınmış cari transfertlər | 100 | 81,2 | 87,4 | 93,7 | 145,6 | 201,6 |
| Pensiyalar | 100 | 84,0 | 81,2 | 90,1 | 160,3 | 230,7 |
| Müavinət və sosial yardımlar | 100 | 59,9 | 112,6 | 108,8 | 98,3 | 95,5 |
| Naturada sosial transfertlər | 100 | 86,6 | 104,9 | 105,2 | 79,7 | 100,7 |
| Digər gəlirlər | 100 | 103,1 | 92,0 | 106,7 | 86,0 | 101,2 |
| Digər ailələrdən gəlirlər | 100 | 102,0 | 91,2 | 106,8 | 85,8 | 107,5 |

*Mənbə: DSK-nin ev təsərrüfatlarının müayinəsi 2003, Bakı 2004.*

Cədvəldən göründyü kimi, 2003-cü ildə ali təhsilli ailə başçısının gəlirinin adambaşına düşən həcmi, həm ölkə üzrə orta göstəricini, həm də təhsilin növləri üzrə gəlirləri üstələyir. Belə ki, ali təhsilli ailə başçısının gəlirinin adambaşına düşən həcmi ölkə üzrə orta (müvafiq) göstəricidən 16,7% yüksək olub. Aşağı təhsilə malik olan ailə başçısının adambaşına düşən gəliri isə orta ixtisas və peşə təhsilli ailə başçısında ölkə üzrə orta göstəriciyə bərabər, ümumi orta təhsili olanlarda orta





göstəricinin 95,1%-ni, əsas orta təhsili olanlarda 93,0%-ni, ibtidai və ondan aşağı təhsili olanlarda isə, 92,7%-ni təşkil edib.

Qeyd edək ki, ibtidai və ondan aşağı təhsilə malik olan ailə başçısının adambaşına düşən gəliri, ali təhsili olan ailə başçısının adambaşına düşən gəlirinin 79,4%-ni təşkil edib. Bu fərq məşğulluqdan gələn gəlirlərdə özünü daha qabarıq göstərir.

Belə ki, ali təhsilə malik ailə başçısının məşğulluqdan gələn gəlirin adambaşına düşən həcmi ölkə üzrə orta göstəricidən 84,3% yüksək olduğu halda, digər təhsil növləri üzrə gəlirlər isə, ölkə üzrə orta göstəricidən aşağı olub. Bundan başqa ali təhsili olan ailə başçısının hər bir ailə üzvünə düşən gəlirinin orta ixtisas və texniki-peşə təhsili olanların gəlirləri ilə müqayisəsi də rəqəmlərin ali təhsillilərin xeyrinə dəyişdiyini göstərir.

Qeyd edək ki, ali təhsilli ailə başçısının adambaşına düşən gəliri orta ixtisas və texniki-peşə təhsilli ailə başçısının adambaşına düşən gəlirindən 1,16 dəfə, ümumiorta təhsilli ailə başçısının gəlirindən 1,22 dəfə, əsas orta təhsilli ailə başçısının gəlirindən 1,25 dəfə, ibtidai və ondan aşağı təhsilli ailə başçısının gəlirindən isə 1,26 dəfə yüksək olub.

Cədvəl 3

**2003-cü ildə ev təsərrüfatı başçılarının təhsilinə görə gəlirlərinin dəyişməsi**

| | Ali təhsil | Orta ixtisas, texniki-peşə | ümumi orta | Əsas | İbtidai və ondan aşağı |
|---|---|---|---|---|---|
| Gəlirlər-cəmi | 100,0 | 85,7 | 81,5 | 79,7 | 79,4 |
| Məşğulluqdan gəlirlər | 100,0 | 52,4 | 44,0 | 32,0 | 27,0 |
| Özünüməşğulluqdan gəlirlər | 100,0 | 131,5 | 108,8 | 99,2 | 71,8 |
| Kənd təsərrüfatından gəlirlər | 100,0 | 158,2 | 166,2 | 212,7 | 204,1 |
| İcarədən gəlirlər | 100,0 | 65,2 | 83,3 | 63,4 | 55,7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Əmlakdan gəlirlər** | 100,0 | 65,6 | 59,5 | 77,6 | 68,2 |
| **Alınmış cari transfertlər** | 100,0 | 107,5 | 115,4 | 179,2 | 248,2 |
| **Pensiyalar** | 100,0 | 96,6 | 107,2 | 190,7 | 274,6 |
| **Müavinət və sosial yardımlar** | 100,0 | 188,2 | 181,7 | 164,3 | 159,6 |
| **Naturada sosial transfertlər** | 100,0 | 121,1 | 121,4 | 92,0 | 116,2 |
| **Digər gəlirlər** | 100,0 | 89,2 | 103,6 | 83,5 | 98,2 |
| **Digər ailələrdən gəlirlər** | 100,0 | 89,4 | 104,7 | 84,1 | 105,4 |
| Mənbə: Ev təsərrüfatlarının müayinəsinin materialları | | | | | |

Cədvəldən göründüyü kimi, **məşğulluqdan** gələn gəlirlərdə bu fərq daha yüksəkdir. Belə ki, məşğulluqdan gələn gəlirlərdə orta ixtisas və texniki-peşə təhsilli ailə başçısının gəlirinin adambaşına düşən həcmi ali təhsilli ailə başçısının adambaşına düşən gəlirinin 52,4%-ni (təqribən 1,9 dəfə az), ümumiorta təhsili olanların gəlirlərinin 44%-ni, (təqribən 2,27 dəfə az) təşkil edib. Bu fərq əsas orta təhsili olanların gəlirləri üzrə 32% (təqribən 3,12 dəfə az), ibtidai və ondan aşağı təhsili olanların gəlirləri üzrə 27% (təqribən 3,7 dəfə az) olub.

**Özünüməşğulluqdan** gələn gəlirlərdə isə, orta ixtisas və texniki-peşə təhsili olanların gəlirləri ali təhsillilərə nisbətən üstünlük təşkil edib. Bu da peşə və orta ixtisas təhsilinin daha çox fərdilik (məsələn, bərbər, dərzi, sürücü, bənna, dülgər, mexanik və s.) xarakterindən irəli gəlir.

**Kənd təsərrüfatından** gəlirlərdə alınmış cari transfertlər, pensiyalar, müavinətlər və sosial yardımlar, naturada sosial transfertlər və s. üzrə gəlirlərdə ali təhsillilərin gəlirləri digər təhsil növləri ilə müqayisədə aşağı göstəriciyə malik olur.

Göründüyü kimi, təhsilin səviyyəsi yüksəldikcə, əhalinin məşğulluq imkanları genişlənir və məşğulluqdan gələn gəlirlər də buna müvafiq olaraq artır.

Təhsil növləri üzrə gəlirlərin quruluşuna nəzər saldıqda da ali təhsilli ailə başçısının gəlirinin 48,1%-ni məşğulluqdan gələn gəlirlər təşkil etdiyi halda, orta ixtisas texniki-peşə təhsilində bu 29,4%, ümumi





orta təhsillidə 25,9%, əsas orta təhsildə 19,3%, ibtidai və ondan aşağı təhsillidə isə 16,3% təşkil etmişdir.

Cədvəl 4

**2003-cu ildə ev təsərrüfatı başçısının gəlirlərinin təhsil növünə görə quruluşu**

| | Ölkə üzrə cəmi | Ali | Orta ixtisas, texniki peşə | Ümum i orta | Əsas orta | İbtidai və ondan aşağı |
|---|---|---|---|---|---|---|
| **Gəlirlər-cəmi** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| Məşğulluqdan gəlirlər | 30,5 | 48,1 | 29,4 | 25,9 | 19,3 | 16,3 |
| Özünüməşğulluqdan gəlirlər | 22,8 | 17,6 | 27 | 23,5 | 21,9 | 15,9 |
| Kənd təsərrüfatından gəlirlər | 15,5 | 8,4 | 15,5 | 17,2 | 22,5 | 21,6 |
| İcarədən gəlirlər | 1,6 | 1,7 | 1,3 | 1,8 | 1,4 | 1,2 |
| Əmlakdan gəlirlər | 0,3 | 0,4 | 0,3 | 0,3 | 0,4 | 0,3 |
| Alınmış cari transfertlər | 11,6 | 8,1 | 10,1 | 11,4 | 18,1 | 25,2 |
| Pensiyalar | 9,1 | 6,5 | 7,4 | 8,6 | 15,7 | 22,6 |
| Müavinət və sosial yardımlar | 1,8 | 0,9 | 2 | 2 | 1,9 | 1,8 |
| Naturada sosial transfertlər | 0,7 | 0,5 | 0,7 | 0,7 | 0,6 | 0,7 |
| Digər gəlirlər | 17,8 | 15,7 | 16,3 | 19,9 | 16,4 | 19,4 |
| Digər ailələrdən gəlirlər | 14 | 12,3 | 12,8 | 15,7 | 12,9 | 16,3 |
| Mənbə: Ev təsərrüfatlarının müayinəsinin materialları | | | | | | |

Cədvəldən göründüyü kimi, alınmış cari transfertlər ali təhsilli ailə başçısının gəlirdərinin 11,6%-ni təşkil etdiyi halda, ibtidai və ondan aşağı təhsili olanların gəlirlərinin 25,2%-ni təşkil edib. Alınmış çari transfertlərin özünün də tərkibinə baxdıqda, pensiyadan gələn gəlirlər ali təhsilli ailə başçısının gəlirlərində 9,1% olduğu halda, bu, ibtidai və ondan aşağı təhsillilər arasında 22,5% olub. Bu göstəricidə fərqin böyük olmasına təsir göstərən əsas səbəb kimi, ali təhsillilərin pensiya yaşına çatdıqdan sonra (müəllim, elmi işçi, mühəndis, həkim və s.) işləmək imkanının olmasıdır. Hazırda işləyən pensiyaçıların böyük əksəriyyəti məhz ali təhsili olanlardır.

Qərb tədqiqatçıları apardıqları araşdırmalardan belə nəticəyə gəliblər ki, tam orta təhsili olan şəxslər natamam orta təhsillilərə nisbətən texnikanı 2 dəfə tez mənimsəməklə yanaşı, onların əmək məhsuldarlığı 20-30% yüksək olur. Bundan başqa, Amerika alimlərinin araşdırmalarına görə, ötən əsrin 80-90-cı illərində onların ölkəsində ən yüksək əmək haqqı alan 10% yüksəkixtisaslı işçi qüvvəsinin real əmək haqqı 40% artdığı halda, ən az məvacib alan 10% aşağı ixtisaslı işçi qüvvəsinin məvacibi cəmi 5% artıb[24].

Beləliklə, aparılan tədqiqatlar və beynəlxalq təcrübə təhsilin həm ölkə iqtisadiyyatının inkişafında, həm də ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsində, məşğulluq imkanlarının genişləndirilməsində və yoxsulluq risqinin azaldılmasında əhəmiyyətli yerlərdən birini tutduğunu göstərir.

ETM-dən və dünya təcrübəsindən əldə olunan nəticə ailə başçısının və fərdin təhsili ilə yoxsulluq riski arasında əlaqə olduğunu göstərir. Yəni təhsil səviyyəsi daha yüksək olduqda, ailənin yoxsul olmaq ehtimalı az olur. Bu, qismən daha yaxşı təhsil alanların əmək bazarında daha çox rəqabət qabiliyyətli olması ilə izah olunur. Ona görə də keyfiyyətli təhsil almaq imkanının olması əhalini yoxsulluğa həssaslıqdan müdafiə edə biləcək bir amildir.

[24] Büdcə və Təhsil. «Ekspert jurnalı»nın əlavəsi, Bakı-2004.





### 3. Azərbaycan əhalisinin təhsil səviyyəsi və bu sahədə mövcud vəziyyət

Məlumdur ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, xüsusilə də müstəqilliyin ilk illərində bütövlükdə cəmiyyətdə baş verən sosial-iqtisadi böhran, digər sahələrə olduğu kimi, təhsil sisteminə də (xüsusilə təhsilin maliyyə təminatına) öz mənfi təsirini göstərdi və bu sahədə ortaya ciddi problemlər çıxardı.

Əgər statistik rəqəmlərə müraciət etsək, Azərbaycanda təhsilin səviyyəsinin aşağı olmadığını görmək olar. Belə ki, Azərbaycan da 15 və yuxarı yaşlı əhalinin həm savadlılıq, həm də təhsillə əhatə olunma səviyyəsinə görə dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə olunan göstəricilərə malikdir. Azərbaycan bu sahədə hətta bəzi göstəricilərə görə, bir sıra inkişaf etmiş ölkələri də geridə qoyur. 1999-cu ilin siyahıya alınması zamanı 10 və yuxarı yaşda olan əhalinin sayı 6322,6 min nəfər olub ki, onların da yalnız 65,6 nəfəri, yəni 1 faizi savadı olmayanlardır. Məlumatlara görə, hazırda Azərbaycanda əhalinin savadlılıq səviyyəsi 97% təşkil edir. Bu da beynəlxalq təcrübədə yüksək göstərici hesab olunur. Etiraf etməliyik ki, belə bir göstəriciyə Azərbaycanın 70 il sovet imperiyasının tərkibində olması güclü təsir göstərib. Qeyd edək ki, sovet təhsil sistemi inkişaf etmiş kapitalist ölkələri ilə müqayisədə heç də zəif hesab olunmurdu. Lakin təəssüfləndirici haldır ki, Azərbaycanda təhsilin səviyyəsini əks etdirən göstəricilər bir sıra MDB ölkələrinin müvafiq göstəriciləri ilə müqayisədə aşağıdır. Xususilə son illərdə təhsil sahəsində ciddi problemlərin meydana çıxması bu fərqi daha da dərinləşdirib. Qeyd etmək lazımdır ki, İnsan İnkişafı İndeksinin üç əsas göstəricisindən biri olan təhsil indeksinə görə, Azərbaycan MDB ölkələri arasında xeyli geri qalıb. 2003-cü ildə Azərbaycanın Təhsil İndeksi 0,88 olmaqla, yalnız Moldavanı (0,87) qabaqlayıb. Bu da 2003-cü ildə Azərbaycanın İnsan İnkişafı İndeksinə görə 87-ci yerdən 91-ci yerə düşməsinə gətirib çıxarıb. Çünki Azərbaycan gözlənilən ömür müddətinə, ÜDM-in indeksinə görə MDB ölkələri arasında orta mövqedə durur.

Cədvəl 1.

**MDB ölkələrində insan potensialının inkişafı indeksi**

| Sıralanma yeri | Dövlətlər | Gözlənilən ömür müddətinin indeksi | Təhsil səviyyəsi indeksi | ÜDM indeksi | İnsan potensialının inkişafı indeksi |
|---|---|---|---|---|---|
| 57 | Rusiya | 0,69 | 0,95 | 0,74 | 0,795 |
| 62 | Belarus | 0,75 | 0,95 | 0,67 | 0,790 |
| 70 | Ukrayna | 0,74 | 0,94 | 0,65 | 0,777 |
| 78 | Qazaxıstan | 0,69 | 0,93 | 0,68 | 0,766 |
| 82 | Ermənistan | 0,79 | 0,90 | 0,57 | 0,754 |
| 86 | Türkmənistan | 0,70 | 0,93 | 0,63 | 0,752 |
| ***91*** | ***Azərbaycan*** | ***0,78*** | ***0,88*** | ***0,58*** | ***0,746*** |
| 97 | Gürcüstan | 0,81 | 0,89 | 0,52 | 0,739 |
| 107 | Özbəkistan | 0,74 | 0,91 | 0,47 | 0,709 |
| 110 | Qırğızıstan | 0,72 | 0,92 | 0,46 | 0,701 |
| 113 | Moldava | 0,73 | 0,87 | 0,45 | 0,681 |
| 116 | Tacikistan | 0,73 | 0,90 | 0,38 | 0,671 |

*Mənbə: «Himayədar» jurnalı, iyun, 2004, №2, səh. 41*

Xatırladaq ki, 1989-cu ildə yaşı 15 və ondan yuxarı olan əhalinin hər min nəfərinə 878 nəfər, 1999-cu ildə 909 nəfər, 2004-cü ildə isə, 911 nəfər, 2005-ci ildə 912 nəfər ali və orta (tam və natamam) təhsilli əhali düşüb. Bu dövrdə əhalinin hər 1000 nəfərinə düşən ali təhsillilərin sayı 105 nəfərdən 113 nəfərə və ümumiorta təhsillilərin sayı isə, 417 nəfərdən 522 nəfərə qədər artıb. Orta ixtisas təhsillilərin sayı 144 nəfərdən 119 nəfərə düşüb. Əhalinin hər 1000 nəfərinə düşən orta ixtisas təhsillilərin sayının azalmasına bir tərəfdən orta ixtisas təhsili müəssisələrinin bir çoxunun ləğv olunması (və ya fəaliyyətini dayandırması), digər bir tərəfdən də, istehsal müəssisələrinin fəaliyyət göstərməməsi və bunun nəticəsində bir çox ixtisaslara tələbatın aşağı düşməsi təsir göstərib. Ümumilikdə ölkə üzrə əhalinin hər 1000 nəfərinə düşən ali və orta (tam və natamam) təhsili olan əhalinin sayının artmasına gəldikdə isə, bu, ali təhsillilərin və ümumiorta təhsillilərin sayının artması hesabına baş verib.

Qeyd etmək lazımdır ki, 2004-2005-ci tədris ilində Azərbaycanda təhsil növləri üzrə bütün təhsil alanların sayı 1 milyon 862 min nəfər olmaqla,





əhalinin təqribən 22,3%-ni təşkil edir. 1990-cı ildə bu göstərici 27,9 % olub.

1990-2004-cü illərdə əhalinin ümumi sayı 15,6% artsa da, ümumilikdə təhsil alanların sayı 6,2% azalıb. Buna 1990-2004-cü illərdə əhalinin hər 1000 nəfərinə görə doğulanların sayının azalması (25,9-dan 10,7-yə) və nəticədə təbii artım əmsalının aşağı düşməsi (19,8-dən 10-a) təsir göstərib.(Yeri gəlmişkən: AMEA İqtisadiyyat İnstitutunun bu sahədə apardığı tədqiqatlarda doğum əmsalının azalmasına yoxsulluğun da kifayət qədər təsir göstərdiyi qeyd edilir).

1990-cı illə müqayisədə 2004-ci ildə ümumtəhsil məktəblərində təhsil alanların xüsusi çəkisi 70,9%-dən 87,7%-ə, ali təhsil müəssisələrində təhsil alanların xüsusi çəkisi isə 5,3%-dən 6,8%-ə yüksəlib.

Cədvəl 5

***Azərbaycan Respublikasında təhsilin bütün növləri üzrə təhsil alanların quruluşu və dinamikası (nəfər)*[25]**

| | 1990/1991 | 1995/1996 | 2000/2001 | 2003/2004 | 2004/2005 |
|---|---|---|---|---|---|
| Təhsil alanlar (nəfər) | 1985 | 1726 | 1892 | 1908 | 1862 |
| %-lə | 100 | 100 | 100 | 100 | 100 |
| O cümlədən | | | | | |
| Ümumtəhsil məktəblərində[1] (nəfər) | 1408 | 1511 | 1690 | 1690 | 1634 |
| %-lə | 70.9 | 87.5 | 89.3 | 88.6 | 87.8 |
| Peşə məktəbləri və liseylərdə[2] (nəfər) | 84[3] | 28 | 23 | 22 | 22 |
| %-lə | 3.6 | 5.1 | 4.7 | 4.6 | 4.7 |
| Orta ixtisas təhsili müəssisələrində[4] (nəfər) | 59 | 34 | 42 | 54 | 56 |
| %-lə | 3.0 | 2.0 | 2.2 | 2.8 | 3.0 |
| Ali təhsil müəssisələrində[4] (nəfər) | 105 | 99 | 120 | 121 | 127 |
| %-lə | 5.3 | 5.8 | 6.3 | 6.3 | 6.8 |
| Yeni peşələr öyrən-miş və öz ixtisaslarını müəssisə və təşkilatlarda artırıblar, ha-belə təhsilin başqa növləri ilə əhatə olunmublar (nəfər) | 329 | 54 | 17 | 21 | 23 |
| %- lə | 16.6 | 3.1 | 0.9 | 1.1 | 1.2 |

*Mənbə: «Azərbaycanın statistik göstəriciləri 2005» Statistik məcmuə, «Səda» nəşriyyatı, Bakı- 2005 səh. 197*

[25]. «Təhsilin statistikası 2004». Bakı- 2004, səh. 27.

[1] *2002-2003-cü dərs ilindən qeyri-dövlət ümumtəhsil məktəbləri də daxil edilib.*
[2] *İlin sonuna olan məlumat*
[3] *Baza peşə məktəbləri daxil edilib*
[4] *1995-1996-cı dərs ilindən qeyri-dövlət təhsil müəssisələri də ümumi saya daxil edilib.*

Bu dövrdə peşə məktəbləri və litseylərdə təhsil alanların xüsusi çəkisi 4,2%-dən 1,1%-ə, orta ixtisas təhsili müəssisələrində təhsil alanların xüsusi çəkisi 3%-dən 2,8%-ə, yeni peşə öyrənənlər və öz ixtitsaslarını müəssisə və təşkilatlarda artıranların, habelə təhsilin başqa növləri ilə əhatə olunanların xüsusi çəksi isə 16,6%-dən 1,4%-ə düşüb. Göründüyü kimi, son 10 il ərzində orta təhsil müəssisələri, peşə məktəbləri və litseylərdən fərqli olaraq ali məktəblərdə təhsil alanların sayında artım müşahidə olunub. Buna da özəl ali məktəblərin sayının çoxalması və ali məktəblərə qəbul planının artırılması təsir göstərib. Ali məktəblərdən fərqli olaraq orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alanların sayının ildən-ilə azalması müşahidə edilir.

Qeyd edək ki, 2003-cü ildə Azərbaycanda əhalinin hər 10 min nəfərindən 66-sı orta ixtisas təhsili müəssisələrində oxuyub. Ermənistanda bu rəqəm 97, Belarusda 165, Qaxzaxıstanda 167, Rusiyada 181, Ukraynada 125, Qırğızstanda 54, Moldavada 52 və Tacikstanda 44 nəfər olub.[26] Göründüyü kimi, Azərbaycan bu sırada axırıncı yerlərdən birini tutur. 2004 və 2005-ci illərdə bu məktəblərdə oxuyan tələbələrin sayı sabit qalıb. Bu illərdə əhalinin sayında artım olduğunu nəzərə alsaq, deməli bu göstərici bir qədər də aşağı düşüb.

Ali təhsil müəssisələrində oxuyan tələbələrin sayına gəldikdə isə vəziyyət daha acınacaqlı görünür. Belə ki, Azərbaycanda əhalinin hər 10 min nəfərindən 149-u ali təhsil müəssisələrində oxuyur. Rusiyada isə onların sayı 447 nəfərdir (**Qrafikə bax**).

[26]. Təhsilin statistikası 2004». Bakı- 2004. səh. 169.








*Qeyd: Qrafik DSK-nın məlumatları əsasında hazırlanıb.*

Göründüyü kimi, Azərbaycanda əhalinin hər 10 min nəfərinə düşən ali təhsil müəssisələrində təhsil alanların sayı MDB ölkələri ilə müqayisədə aşağıdır (qrafik 1-ə bax).

1-saylı cədvəl də Azərbaycanın Təhsil indeksinə görə MDB ölkələri ilə müqayisədə axırıncı yerlərdən birini tutduğunu göstərir. Azərbaycanın axırıncı yerdə olmasına təsir göstərən səbəblər sırasına aşağıdakıları daxil etmək olar:

- təhsilə ayrılan maliyyə vəsaitlərinin səmərəli idarə olunmaması;
- əhalinin hər 10 min nəfərinə düşən ali və orta ixtisas təhsil məktəblərində təhsil alanların sayının az olması;
- təhsil üzrə yeni qanunvericilik bazasının olmaması;
- təhsil islahatlarının kortəbii şəkildə aparılması;
- əhalinin yoxsul təbəqəsinin təhsil almaq imkanlarının məhdud olması;
- ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbuluna məhdudiyyətlər qoyulması;
- ali və orta ixtisas təhsili müəssisələrinə qəbul mexanizminin mürəkkəbliyi;
- peşə və orta ixtisaslı kadrlara tələbatın azalması (sənaye və kənd təsərrüfatı sahəsində) və bunun nəticəsində orta ixtisas və peşə təhsilinə marağın azalması;

- korrupsiya və rüşvətxorluq (bu məsələ ilə bağlı yüksək dövlət rəsmilərinin çıxışlarında və KİV-də də fikirlər səslənir) hallarının yüksək olması;
- təhsilin keyfiyyətinin aşağı olması və s.

Bütün qeyd edilənlər ölkədə əhalinin təhsil və bilik səviyyəsinin aşağı düşməsinə, son nəticədə isə onların məşğulluğuna, gəlir əldə etmək imkanlarına mənfi təsir göstərir.

Qeyd edək ki, son 10 il ərzində ölkədə yaranmış sosial-iqtisadi problemlər, təhsil müəssisələrində yaranmış maliyyə çətinlikləri, əmək haqqının aşağı olması, cihaz və avadanlıqların mənəvi cəhətdən köhnə olması təhsilin ikişafına öz mənfi təsirini göstərib. Tədris müəssisələrində əmək haqqının aşağı olması müəllimlər arasında rüşvətxorluğun (həm orta təhsil məktəblərində, həm də ali tədris ocaqlarında) kütləvi xarakter almasına gətirib çıxarıb. Nəticədə məktəbi bitirən gənclər öz ixtisaslarına lazımi səviyyədə yiyələnmirlər. Bu da çox vaxt onların iş tapmasına çətinlik törədir.

Beləliklə, ölkədə ixtisaslı kadrlar deyil, «diplomlu»lar ordusu yaranır. və belə gənclər kiçik bizneslə, alverlə məşğul olmaq məcburiyyətində qalırlar. Bir çox hallarda öz ixtisasına mükəmməl yiyələnən gənclər də iş tapmaqda çətinlik çəkirlər. Bu da onların passivləşməsinə və qazandıqları bilikləri tədricən itirmələrinə gətirib çıxarır.

Əslində təhsil alanların sayının çox olması ölkə üçün o qədər də mənfi hal deyil. Bu baxımdan özəl təhsil müəssisələrinin də sayının çox olması ölkə üçün təhlükəli hesab oluna bilməz. Təəssüflər olsun ki, dövlət orqanları özəl təhsil sektoruna qısqanclıqla yanaşırlar. Hesab edirik ki, dövlətin əsas diqqəti onların bağlanmasına və yaxud da fəaliyyətinin məhdudlaşdırılmasına deyil, təhsilin keyfiyyətinin artırılmasına yönəltməsi daha məqsədəuyğun olardı. Çünki vətəndaşa ən azı onun öz vəsaiti ilə təhsil hüququ verilməlidir. Bunun üstün cəhəti isə vətəndaşın dövlətdən heç bir pay almadan ali təhsil əldə etmə imkanını genişləndirməsidir. Təkrarən qeyd etmək istərdik ki, burada dövlətin üzərinə düşən əsas vəzifə təhsilin keyfiyyətinə nəzarət etməkdən ibarət olmalıdır.

Göstərmək lazımdır ki, hazırda yalnız özəl təhsil müəssisələrində deyil, dövlət təhsil müəssisələrində ali və orta təhsil alanların da bir





hissəsi öz vəsaiti hesabına təhsilini davam etdirir. Belə ki, təhsil haqqını tam ödəmək əsasında müqavilə ilə oxuyan tələbələr dövlət orta ixtisas müəssisələrində təhsil alanların 36,7%-ni, dövlət ali məktəblərində təhsil alanların isə 53,1%-ni təşkil edir.

Qeyd edək ki, yoxsulluq səviyyəsinin yüksək olduğu indiki şəraitdə əksər ailələrin pullu təhsil almaq imkanları məhduddur. Bu da çox vaxt yoxsul ailələrdən olan istedadlı gənclərin yüksək peşə və ixtisasa yiyələnmək imkanlarını məhdudlaşdırır.

Digər tərəfdən təhsil müəssisələrində tədrisin keyfiyyətinin aşağı olması hazırlanan kadrların mütəxəssis kimi yetişdirilməsini məhdudlaşdırır. Beləliklə, ölkədə intellektual səviyyənin aşağı düşməsi baş verir. Azərbaycanda təhsilin keyfiyyətinin aşağı olmasını və təhsil sisteminin ümumi vəziyyətinin qənaətbəxş olmadığını ekspertlər də öz cavablarında təsdiq ediblər. Belə ki, ekspertlərin 60%-i **«Azərbaycanda təhsilin indiki vəziyyəti Sizi qane edirmi?»** məzmunlu sualı «xeyir» cavablandırıb. **«Siz ölkədə təhsil sisteminin ümumi vəziyyətini necə qiymətləndirirsiniz?»** sualına respondentlərin 7,5%-i «yaxşı», 40,7%-i «orta», 45,4%-i isə «pis» qiymətləndirib. Bu da Azərbaycanda təhsilin keyfiyyətinin aşağı səviyyədə olduğunu göstərir.

Qeyd etdiyimiz kimi, təhsil insanların gələcəkdə yoxsul olmaq risklərini məhdudlaşdırmaq və ya yoxsulluqdan çıxa bilmək üçün öz potensiallarından və imkanlarından istifadə edə bilmək qabiliyyətlərinin formalaşdığı həlledici bir dövrdür. Bu, həmçinin, gənclərin müxtəlif təhlükələrə - narkotik maddələrin qəbuluna və digər sağlamlığa zidd vərdişlərlə bağlı, ətraf təsirlərə açıq və meyilli olduğu olan bir dövrdür.[27] Bu baxımdan yeniyetmələrə boş vaxtlarında daha faydalı işlə məşğul olması üçün şərait yaradılmalıdır. Əgər bunun qarşısı vaxtında alınmazsa, gələcəkdə daha böyük fəsadlar törədə bilər.

Həmçinin son illərdə dünya miqyasında elm və texnikanın inkişafı, yeni texnologiyaların meydana gəlməsi ixtisaslı kadrlar bazarında işçi qüvvəsinə daha böyük ehtiyac yaradıb. Buna görə də hamıya orta ixtisas peşə təhsili və ali təhsil almaq imkanları yaradılmalıdır. Bu da ali və orta ixtisas məktəblərinə qəbulun sadələşdirilməsi yolu ilə həyata keçirilə bilər. Çünki gənclər nisbətən dinamik, təcrübəsiz və cəmiyyətdə stabil sosial-demoqrafiq qrupdur.

---

27. Yenə orada səh. 95.

Dövlətin yaxın gələcəyinin bilavasitə onlardan asılılığı bu problemə dövlətin diqqətinin artırılmasını tələb edir. P.Sorokin və V.Franklin ölkədə, xüsusilə gənclər arasında mənəvi-bərabərlik böhranının olmasını demoqrafik və başqa müvəfəqiyyətsiz (uğursuz) hadisələrin baş verməsinin əsas amili hesab edirlər.[28]

Hazırda 18-24 yaşlı gənclərin sayı 1098,8 nəfərə çatır və onların da cəmi 20,3% -i təhsilini davam etdirir. 1990-cı idə isə 18-24 yaşında olanların sayı 1117,5 min nəfər, onlardan təhsil alanların sayı isə 576,9 min nəfər (51,6%) olub. Göründüyü kimi, son illərdə gənclərin peşə və ixtisasa yiyələnmək imkanları əvvəlki illərlə müqayisədə məhdudlaşıb.

Ölkədə iş yerlərinin olmaması da bu problemi dərinləşdirən amillərdən biri hesab oluna bilər. Ona görə də indiki şəraitdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşları, xüsusilə gəncləri işlə təmin edən və ya onlara peşə kursları təşkil edən işəgötürənləri həvəsləndirmək, gənclərin peşə və ixtisasa yiyələnməsi və məşğulluğu baxımından üstün inkişaf etdirilən regionlarda iş yerlərinin artırılmasını həvəsləndirmək məqsədilə qanunvericilik normalarına müvafiq dəyişikliklərin edilməsi vacibdir.

Təhsilin keyfiyyətinə mənfi təsir göstərən amillərdən biri də təhsil haqqında yeni qanun qəbul edilməməsidir. Bu amil təhsil sahəsində köklü islahatların aparılmasını qeyri-mümkün edir. Onu da qeyd edək ki, bütün MDB ölkələrində «Təhsil haqqında» yeni qanun və bundan irəli gələn onlarla fərman və sərəncamlar imzalanıb. Hesab edirik ki, Azərbaycanda da təhsil haqqında yeni qanun yaxın vaxtlarda qəbul edilməli və təhsil sahəsində ciddi islahatlar aparılmalıdır. Təhsil sferasında hüquqi bazanın olmaması bu sahədə meydana çıxan problemlərin ilkin mənbəyi kimi qiymətləndirilə bilər.

Xatırladaq ki, 1992-ci ildə qəbul edilən qanunun bir çox müddəaları, demək olar ki, işləmir, yenisi isə yoxdur. Dövlət birinci növbədə təhsil sahəsində müasir qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi qayğısına qalmalıdır. Çox təəssüf ki, Azərbaycanda qanundan irəli gələn normativ hüquqi aktlar qəbul edilir, lakin qanunun özü hələ qəbul olunmur. Baxmayaraq ki, bu qanunun müzakirəsi uzun müddətdir davam edir.

[28] Сорокин П. Человек. Цивилизация. Общество. М., 1992. (пер. с англ.) səh 102





Yeri gəlmişkən, qeyd edək ki, cəmiyyətin inkişafında mühüm rol oynaya biləcək iki qanundan heç biri Azərbaycanda qəbul edilməyib. Onlardan biri «Elm və elmə xidmət haqqında» qanundur ki, 1999-cu ildə layihə şəklində Milli Məclisin müzakirəsinə çıxarılıb və oradan da arxivə göndərilib. İkncisi isə «Təhsil haqqında» qanundur. Onun da qəbul olunması hələ ki ləngidilir.

Əslində təhsil sahəsindəki problemlərin həlli üçün ilk növbədə qanunun qəbul edilməsi lazımdır. Əks halda aparılan islahatların heç bir əhəmiyyəti olmayacaq və təhsildə daha ciddi problemlərin meydana çıxmasına şərait yaranacaq.

Bundan başqa, əmək bazarı siyasətinin həyata keçirilməsi istiqamətlərində də bir sıra tədbirlərin həyata keçirilməsi tələb olunur. Bunlara aşağıdakıları daxil etmək olar:

- gənclərin peşə və ixtisasa yiyələnməsi və münasib işlə təmin olunması üçün axtarış informasiya sisteminin təkmilləşdirilməsi;
- əmək şəraiti və əməyin ödənilməsi baxımından yeni iş yerlərinin yaradılması və mövcud iş yerlərinin səmərəliliyinin artırılması;
- kadrların peşə hazırlığı, yenidən hazırlıq və ixtisaslarının artırılması sisteminin təkmilləşdirilməsi yolu ilə kadr potensialının inkişaf etdirilməsi;
- neft sektorunun inkişafı nəticəsində əldə olunan gəlirlərin insan kapitalının yüksəldilməsinə doğru istiqamətləndirilməsi;
- sahibkarlığın, kiçik və orta biznesin inkişafının, eləcə də, fərdi əmək fəaliyyəti ilə məşğul olanların (xüsusilə də, əmək bazarında gərginlik olan ərazilərdə) iqtisadi həvəsləndirilməsinin təmin edilməsi;
- məktəbdən sonrakı peşə təhsilinin əmək bazarının dəyişən tələbinə uyğunlaşdırmaq məqsədilə peşə təhsili sahəsində yeni ixtisas və ixtisaslaşma təsnifatının hazırlanması;
- əmək bazarında yaranmış vəziyyəti təhlil etmək və dəqiq proqnozlaşdırma aparmaqla müxtəlif ixtisaslı kadrlara olan tələbatın müəyyənləşdirilməsi;
- iş yerində təhsilin davam etdirilməsi, öz-özünə təhsil imkanlarının inkişafı da daxil olmaqla, fasiləsiz peşə təhsili sisteminin daha da təkmilləşdirilməsi, mütərəqqi təhsil formalarının (məsafədən təhsil, modul tədrisi) tətbiq edilməsi;

- gənclərin işlə təmin olunması üçün müəssisə və təşkilatlara qanunamüvafiq qaydada kvota üzrə iş yerlərinin müəyyən edilməsi və işəgötürənlər tərəfindən bu tələbin yerinə yetirilməsinə nəzarətin gücləndirilməsi;
- hərbi xidmətə çağırılması ilə əlaqədar əmək müqaviləsinə xitam verilmiş gənclərin ordu sıralarından tərxis olunduqdan sonra həmin müəsissələrdə yenidən işlə təmin olunması üçün qanunvericilikdə müvafiq dəyişikliklər edilməsinin təmin olunması;
- ordudan tərxis olunan gənclərin məşğulluğunun təmin edilməsi, peşə hazırlığı və yenidən hazırlıq işinin gücləndirilməsi, onlara sahibkarlıq fəaliyyətinin təşkili sahəsində kömək göstərilməsi;
- yeniyetmələrin, gənclərin mövsümü və ictimai işlərə cəlb olunmasına əlverişli şəraitin yaradılması;

### 4. Azərbaycanda təhsil islahatları və təhsilə çəkilən xərclər

Dünya təcrübəsindən məlumdur ki, insan kapitalına qoyulan investisiya gəlirlilik nöqteyi nəzərindən ən səmərəli investisiyadır.

Beynəlxalq təcrübə öz təhsil sistemini yüksək səviyyədə quran, zəngin biliyə (intellektə) və əmək bazarının tələbatına uyğun ixtisaslı kadrlar hazırlayan, onların tam və səmərəli məşğulluğunu təmin edən ölkələrin (müəssisə və təşkilatların) böyük uğur əldə etdiklərini göstərir. Qeyd olunanları nəzərə alaraq indiki şəraitdə Azərbaycan əhalisinin təhsil almaq imkanlarının genişləndirilməsi və eyni zamanda təhsilin keyfiyyətinin yüksəldilməsi mühüm amil kimi qarşıya qoyulmalıdır. Çünki təhsil ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması və ölkədə yoxsulluq riskinin aşağı salınmasında əhəmiyyətli rol oynayan mühüm amildir.

Məlumdur ki, insan potensialının formalaşdırılması sahəsində əsas ağırlıq təhsil sisteminin üzərinə düşür. Burada söhbət təkcə ali təhsil sistemindən deyil, təhsilin bütün növlərindən (əsas, orta, peşə, otra ixtisas və ali təhsil) gedir.

Qeyd olunanları nəzərə alaraq, hökumət tərəfindən bir sıra mühüm addımlar atılmışdır. Belə ki, «Təhsil sistemində islahatlar üzrə Dövlət Komissiyası» yaradılmış və komissiyanın təhsil islahatları üçün





hazırlıq Proqramı 1999-cu ilin iyun ayında Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunmuşdur. Lakin bu Komissiyanın gördüyü işlərin nəticələri hələ ki müşahidə olunmur.

Azərbaycanın çoxşaxəli fəaliyyət sistemi olan ümumi və peşə təhsili, yenidən hazırlıq və kadrların ixtisaslarının artırılması özünün mürəkkəb yenidənqurma dövrünü yaşayır. Lakin qeyd etmək lazımdır ki, təhsil sistemində aparılan islahatlar heç də həmişə əmək bazarındakı dəyişikliklərlə əlaqələndirilmir.

Məşğulluq sisteminin ardıcıl inkişafı birbaşa kadrların peşə hazırlığı və yenidən hazırlığı sisteminin təkmilləşdirilməsindən asılıdır. 1995-2003-cü illər ərzində məşğulluq xidməti orqanları 15,4 min nəfəri peşə hazırlığı və yenidən hazırlıq kurslarına cəlb ediblər. Son iki il ərzində məşğulluq xidməti orqanları bu sahədə aparılan işləri aktivləşdirib və 2003-cü ildə 2206 nəfər iş-axtaran vətəndaşı peşə təlimi kurslarına cəlb ediblər. Peşə təliminə cəlb olunanların 52,4%-i-qadınlar, 80,2%-i-gənclər, 29,9%-i orta məktəb məzunları və 19,6%-i-qaçqın və məcburi köçkünlər olub. Əvvəlki illərdə olduğu kimi peşə təliminə cəlb olunanlar arasında ilk dəfə hazırlananlar üstünlük təşkil edir (91,9%). Bu isə heç bir peşə və ixtisası olmayan işsizlərə qısa bir zamanda, müəyyən peşəyə yiyələnib, iş tapmaqda köməklik göstərir.

Yaxın gələcəkdə iqtisadiyyatın inkişafında nəzərdə tutulan müsbət dəyişikliklər nəticəsində bütün sahələrdə məşğul olanların sayının artacağı gözlənilir. Eyni zamanda, yüksək ixtisaslı kadrlara olan tələbat da artacaq. İqtisadiyyatın müəyyən sahələri üzrə (biznes və kommersiya, marketinq, kompüter texnologiyası, beynəlxalq əlaqələr və sair) yüksək ixtisaslı kadrlara ehtiyac yüksələcək. Bütün bunlar isə ilk növbədə əmək bazarının tələbləri ilə təhsil siyasətinin uyğunlaşmasını tələb edir.

Azərbaycan Respublikasının iqtisadi rayonlarının daxili potensialından səmərəli istifadə edilməsi, iqtisadi rayonlar üçün xüsusi əhəmiyyət kəsb edən sahələrin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsi, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarlığın inkişaf etdirilməsi yolu ilə regionlar üzrə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

«Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli Fərmanına əsasən «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» hazırlanıb və 11 fevral 2004-cü ildə təsdiq olunub. Proqramın əsas məqsədi Azərbaycan Respublikasının regionlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə, gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

Yeni iş yerlərinin açılmasının həlledici şərtlərindən biri ölkədə həyata keçirilən investisiya siyasəti ilə bağlıdır. Ölkə iqtisadiyyatına investisiya qoyuluşunu artırmaq məqsədilə əhəmiyyətli tədbirlər görülüb, dövlət investisiyalarının səmərəliliyini yüksəltmək üçün investisiya layihələrinin qiymətləndirilməsi və seçilməsi mexanizmi təkmilləşdirilib. Eyni zamanda, investisiya siyasəti məşğulluq səviyyəsinin artmasına, gənclərin peşə və ixtisasa yiyələnmək imkanlarının genişləndirilməsinə yönəldilməlidir.

Azərbaycanda həyata keçirilən proqramlarda,xüsusən də YAİİDP-də təhsilin inkişafına xüsusi yer ayrılır. Belə ki, YAİİDP -nin siyasət matrisində təhsil siyasətinin həyata keçirilməsi, təhsil müəsisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, məktəblərin yeni dərs vəsaitləri ilə təmin olunması və s. məsələlərə bütövlükdə 59 mln. 537 min ABŞ dolları vəsait xərclənməsi nəzərdə tutulub. Bunun 43,6%-i (25,9 mln. ABŞ dolları) daxili (əsasən Dövlət Büdcəsi hesabına), 20,2%-i (12,0 mln. ABŞ dolları) xarici (razılaşdırılmış xarici maliyyə vəsaitləri), 36,2%-i (21,5 mln. ABŞ dolları) isə əlavə maliyyə mənbələri vasitəsilə həyata keçiriləcək. Sözsüz ki, bu işlərin görüləməsində neft gəlirləri də önəmli rol oynayır.





**Cədvəl 4**
**YAİİDP çərçivəsində təhsil sahəsində görüləcək işlər və onların həyata keçirilməsinin maliyyə mənbələri**

| | Min ABŞ dolları | | |
|---|---|---|---|
| | Razılaşdırılmış xarici maliyyə vəsaitləri | Daxili maliyyə vəsaitləri | Əlavə tələb olunan maliyyə vəsaitləri |
| 1. Şagirdlərin pulsuz dərsliklərlə təmin olunması vasitəsilə ibtidai və orta təhsil əldə etmək üçün bərabər imkanların genişləndirilməsi: | | | |
| *Dövlət məktəblərinin 1-5-ci sinif şagirdləri və 1-11-ci siniflərdə oxuyan qaçqın və məcburi köçkün uşaqlarının pulsuz dərsliklərlə təmin olunması;* | | 1,500 | |
| *Dövlət məktəblərinin 1-7-ci sinif şagirdləri və 1-11-ci siniflərdə oxuyan qaçqın və məcburi köçkün uşaqlarının pulsuz dərsliklərlə təmin olunması,* | | 1,500 | |
| *Dövlət məktəblərinin 1-11-ci sinif şagirdlərinin pulsuz dərsliklərlə təmin olunması;* | - | 1,500 | - |
| 2. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması: | | | |
| *Tədris proqramlarının və təhsil standartlarının təkmilləşdirilməsi;* | - | 90,0 | 100,0 |
| *Fəal təlim metodlarının tədris müəssisələrində yayılması;* | - | - | 200,0 |
| *Müəllimlərin ixtisasartırma kurslarının təkmilləşdirilməsi;* | | | 120,0 |
| *Müəllimlərin əmək haqqının artırılması.* | - | - | - |
| *Peşəkarlığa əsasən mükafat sisteminin təkmilləşdirilməsi;* | - | - | - |
| 3. Təhsilin maddi texniki bazasının təkmilləşdirilməsi və orta təhsildə bərabər imkanların təmin edilməsi: | - | - | - |
| *1296, 844, 694, 422 və 300 şagird yerlik 28 orta ümumtəhsil məktəbinin tikintisi (Bakıda 8, digər rayonlarda 20)* | 11,500 | 13,020 (bundan 2,511AR DNF | |
| *200 ümumtəhsil məktəbin təmir olunması (100-ü Bakı şəhərində, 100-ü digər rayonlarda)* | | 8,000 | |
| 4. Yoxsul ailələrdən olan uşaqlara geyim məsələlərində kömək göstərmək vasitəsilə ibtidai və orta təhsil əldə etmək üçün imkan bərabərliyinin genişləndirilməsi: | | | |

| | | | |
|---|---|---|---|
| *Xüsusi Yardım Fondlarının yaradılması;* | | | 19.200 |
| 5. Təhsil sahəsində yeni texnologiyaların tətbiq olunması | | | |
| *Məktəblərin təhsil sistemində informasiya texnologiyası infrastrukturunun yaradılması;* | | 300 | 1.420 |
| 6. Yeniyetmələrin həyat təcrübələrinin genişləndirilməsi üzrə təhsilinin yaxşılaşdırılması: | | | |
| *Təhsil sistemində reproduktiv sağlamlıq və həyat vərdişləri üzrə məsələlərin, gender fənninin, tədris proqramına daxil edilməsi;* | | | 200 |
| *Məktəbdənkənar müəssisələrə köməklik göstərilməsi, yeniyetmə və gənclər üçün resurs mərkəzinin yaradılması;* | | | 200 |
| 7. Məktəbəqədər yaşda olan uşaqlara qayğı və onların inkişafa həvəsləndirilməsi | 250 | | |
| *İcma tipli məktəbəqədər tərbiyə ocaqlarının yaradılmasının həvəsləndirilməsi;* | | | |
| *Ailə tipli məktəbəqədər tərbiyə ocaqlarının yaradılmasının həvəsləndirilməsi;* | | | |
| *Məktəbəqədər tərbiyə ocaqları üçün yeni tədris modellərinin tətbiq olunması,* | | | |
| *İcma və ailə tipli məktəbəqədər tərbiyə ocaqları işçilərinin təlim keçməsi;* | | | |
| *Erkən uşaqlığa qayğı və inkişafın əhəmiyyəti haqqında valideyinlərin maarifləndirilməsi;* | | | |
| 8. Məktəb kitabxanalarının maddi-texniki bazasının gücləndirilməsi vasitəsilə tədris materialları əldə etmək üçün bərabər imkanların genişləndirilməsi: | | | 150 |
| *Yeni latın qrafikalı ədəbiyyatın hazırlanması;* | | | |
| *İnformasiya texnologiyalarının tətbiq olunması;* | | | |
| 9. Təhsil sahəsində büdcə idarəçiliyinin səmərəliliyinin təmin edilməsi | 250 | 37 | |
| 10. Təhsilin keyfiyyəti və onu əldə etmək imkanlarının monitorinqinin yaxşılaşdırılması: | | | |
| *Şagird və tələbələrin biliklərinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi;* | | | |
| *Məktəblərin gender üzrə dezaqreqasiya olunmuş real davamiyyət səviyyəsinə dair məlumatların müntəzəm toplanması və nəşr olunması;* | | | |

*Mənbə: «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)». Bakı- 2003, səh. 205-208.*





Belə ki, daxili mənbələrdən ayrılan vəsaitlərin 2,5 mln. dolları ARDNF-in payına düşür. Bundan başqa dövlət büdcəsinin, həmçinin ARDNŞ-in vəsaitlərindən də istifadə olunması nəzərdə tutulur. Lakin bu vəsaitlər təhsil sisteminin inkişafı üçün kifayət deyil. Çünki inkişaf etmiş ölkələrlə müqayisədə əhalinin hər bir nəfərinə çəkilən təhsil xərcləri çox aşağıdır. 2002-ci ildə Azərbaycanda büdcədən təhsilə çəkilən xərclərin adambaşına düşən həcmi 24 ABŞ dolları olub. 2003-cü ildə bu rəqəm 28,8 ABŞ dollarına, 2004-ci ildə 43,2 ABŞ dollarına qədər artıb. Müqayisə üçün deyək ki, XX əsrin sonlarında dünya üzrə əhalinin hər nəfərinə təhsil xərcləri orta hesabla 230 dollar, o cümlədən Amerikada 600 dollar, Avropada 800 dollar təşkil edib. Bu ölkələr təhsilin insanların həyat səviyyəsində böyük rol oynadığını dərk edərək təhsinin inkişafına xüsusi diqqət yetirirlər.

Təhsil sahəsinə ayrılan büdcə vəsaitlərinin səmərəli idarə olunması təhsilin keyfiyyəti baxımından xüsusi əhəmiyyət daşıyır. YAİİDP-nin 2004-cü ildəki illik hesabatında bu məqsədilə DB-nın krediti hesabına «İnstitusional quruculuğa dair texniki yardım» layihəsi həyata keçirilir. Bu layihəyə təhsilin maliyyə sistemi, təhsil xərcləri, onun səmərəliliyinin artırılması və hökumətin təhsil prioritetinin təhlil edilməsinə kömək məqsədilə beynəlxalq məsləhətçi cəlb olunub. Maliyyə Nazirliyində xərclərin təhlil üsulları üzrə təlimlər keçirilib və hazırda təhsil xərclərinin təhlili üzrə müvafiq iş aparılır.[29]

Keçən əsrin 70-ci illərində alimlər təhsillə bağlı maraqlı bir hesablama aparmışdı. Həmin hesablamaya görə, 100 il ərzində biliklərin həcmi 100 dəfə, informasiya-telekommunikasiya sistemləri (informasiya ötürülməsi) isə 10 milyon dəfə artacaq. 70-ci ildən bu günə qədər elm sahəsində baş verən sürətli inkişaf prosesi bunu artıq reallığa çevirməkdədir. Bu sürətli inkişaf qazanılmış yeni biliklərin, peşə və ixtisasların da yaşama dövrünü qısaldır. Bunu nəzərə alaraq, sənayecə inkişaf etmiş ölkələrdə ixtisas artırma, ixtisas dəyişmə və s. məsələlərə çəklən xərclərin həcmi sürətlə artır və bu müasir dövrdə ali təhsilə çəkilən bütün xərclərlə uyğunluq təşkil edir. Mütəxəssisələrin fikrincə «bilik cəmiyyətində» iqtisadi fəal əhalinin 60-90%-i ali təhsilli mütəxəssis olmalıdır.

[29]. Yenə orada. səh. 65.

Ölkə prezidentinin sərəncamı ilə dövlət büdcəsindən maliyyələşən təhsil müəssisələrinin 320 min nəfərə yaxın işçisinin Vahid Tarif Cədvəli (VTC) üzrə müəyyən edilmiş aylıq vəzifə maaşları 2003-cü il iyunun 1-dən 50% artırılıb və bu məqsədlə 230,8 milyard manat əlavə vəsait ayrılıb. 2004-cü ilin 1 iyul tarixindən isə yeni VTC qüvvəyə minib. Yeni VTC üzrə müəllimlərin ən yüksək dərəcə üzrə aylıq vəzifə maaşı 310 min manat müəyyən edilib. Nəzərə almaq lazımdır ki, ən yüksək dərəcə üzrə əmək haqqı alanların sayı (hər məktəbdə bir neçə nəfər olmaqla) çox azdır. Pedaqoji fəaliyyət göstərənlərin böyük əksəriyyəti 10-17-ci dərəcələr üzrə əmək haqqı alırlar. Onların VTC üzrə vəzifə maaşı isə 128-247 min manat arasındadır. Bu da tələb olunan MİS-in dəyərindən 2 dəfə azdır. Xatırladaq ki, 2003 və 2004-cü illərdə ölkədə gedən inflyasiya da bu artımların real alıcılıq qabiliyyətinin aşağı düşməsinə təsir göstərib. Təbii ki, bu cür artımlar təhsil işçilərinin yoxsulluqdan çıxarılması üçün kifayət deyil. Deməli, təhsil sahəsində çalışanlar məşğul əhali olmalarına baxmayaraq, yoxsul əhali qrupuna daxildir. Bu da təhsilin keyfiyyətinə bilavasitə təsir göstərən amildir. Müəllim öz ailəsini dolandırmaq üçün ya enerjisini başqa sahələrə (çox vaxt qeyri-tədris sahəsinə) sərf edir, yaxud da öz biliyini şagirdlərə dərs prosesində vermək istəmir və valideyndən əlavə pul alaraq şagirdləri hazırlaşdırır. Bəziləri isə daha xoşagəlməz yol seçərək şagirdlərdən (tələbələrdən) rüşvət almaqla qiymət yazırlar. Təsadüfi deyil ki, ANSİRM-in keçirdiyi sorğu zamanı ekspertlərə ünvanlanmış **«Azərbaycanın təhsil müəssisələrində yüksək səviyyəli mütəxəssis hazırlığına hansı amillər mane olur?»** sualına onların 52,5%-i müəllim və pedaqoji kardrlar arasında cərəyan edən korrupsiya və rüşvətxorluğu, 35%-i maddi-texniki bazanın zəif olmasını və maliyyə çatışmazlığını, 10%-i orta məktəb məzunlarının bilik səviyyəsinin aşağı olmasını, 2,5%-i isə başqa amillərin təsir etdiyini göstərib. Respondentlərə ünvanlanmış **«Sizcə, Azərbaycanda təhsil sisteminin inkişafına daha çox hansı amillər mane olur?»** sualına cavab verərkən onların 10,3%-i tədris təhsil bazasının aşağı səviyyədə olmasını, 11,8%-i peşəkar təhsil işçilərinin azlığını, 59,3%-i təhsildə rüşvətxorluğu, 11,8%-i biliyin düzgün qiymətləndirilməməsini göstərib. Göründüyü kimi, korrupsiya və rüşvətxorluğu həm ekspertlər, həm də respondentlərin böyük əksəriyyəti təhsil sisteminin inkişafana mane olan amil kimi qeyd ediblər. Korrupsiya və rüşvətxorluğa yol açan əsas amil isə





pedaqoji fəaliyyət göstərənlərin əmək haqqının aşağı olması hesab edilir.

Xatırladaq ki, dövlət büdcəsindən 2004-cü ildə təhsilə çəkilən xərclər 1541,2 milyard manat olub ki, bu da ümumi xərclərin 19,6%-ni təşkil edib. 2005-ci ildə isə bu vəsaitlərin ümumi həcmi 1782,2 milyard manata qədər artsa da, xüsusi çəkisi 17,8%-ə düşüb. Keçən illə müqayisədə isə bu rəqəm 15,6% artıb. Məlum olduğu kimi, təhsilə ayrılan xərclər əvvəllər o qədər də böyük olmadığından müəyyən artım da faktiki tələbatı ödəyə bilmir. Həm də təhsilə çəkilən xərclərin demək olar ki, əsas hissəsi əmək haqlarının ödənilməsinə gedir.

Sorğu zamanı «Sizcə, təhsil sistemini inkişaf etdirmək üçün dövlət ilk növbədə hansı maliyyə mənbələrinin vəsaitlərindən istifadə edə bilər?» sualına ekspertlərin 37,5%-i büdcədən böyük ayırmalar hesabına, 47,5%-i Dövlət Neft Fondunun imkanlarından, 15%-i beynəlxalq maliyyə qurumlarından alınan qrantlar və uzunmüddətli kreditlər hesabına həyata keçirilməsini məqsədə müvafiq hesab edib. Bununla yanaşı ekspertlərin 70%-i indiki şəraitdə ARDNF-in vəsaitlərindən lazımınca istifadə olunmadığını qeyd edib. «Sizcə təhsilin keyfiyyətini yüksəltmək üçün bütün maliyyə ehtiyalarından, xüsusilə neft gəlirlərindən kifayət qədər səmərəli istifadə edilirmi?» sualına cavab verən respondentlərin 65,4%-i kifayət qədər istifadə edilmədiyini, 22,5%-i qismən istifadə edildiyini, 3,9%-i istifadə edildiyini, 7,9%-i isə «bilmirəm» cavabını verib. Sorğunun nəticələri bizə indiki şəraitdə təhsil sisteminin inkişafı üçün bütün maliyyə mənbələrindən, xüsusilə Neft Fondunun vəsaitlərindən səmərəli istifadə olunmadığını deməyə əsas verir.

Maliyyə mənbələrindən səmərəli istifadə olunmamasının nəticəsi olaraq, bu gün təhsil sistemində orta aylıq nominal əmək haqqı respublika üzrə orta aylıq əmək haqqının səviyyəsindən aşağı düşüb. Əgər 1990-cı ildə təhsil sistemində çalışanların orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricinin 90,8%-ni təşkil edirdisə, 2003-cü ildə bu rəqəm 54,6%-ə düşüb. Başqa sözlə desək, təhsil sistemində nominal orta aylıq əmək haqqının həcmi iqtisadiyyat üzrə orta göstəricidən 1,8 dəfə azdır. 1995-ci ildə isə bu göstərici 74,3% olub. Sorğuya cəlb olunan ekspertlərin «YAİİDP çərçivəsində təhsil işçilərinin normal əmək haqqı ilə təmin edilməsi istiqamətində hər hansı bir irəliləyiş hiss edirsinizmi?» sualına cavablar belə olub: 27,5%

«bəli», 32,5% «xeyr», 32,5% «qismən», 7,5% «bilmirəm». Onu da qeyd edək ki, bu məbləğ qeyri-dövlət sektoru üzrə orta göstəricinin 58,3%-ni təşkil edib. İnkişaf etmiş ölkələrdə orta məktəb müəllimlərinin əmək haqqı sənaye üzrə orta göstəricidən yüksəkdir. Məsələn, ABŞ-da bu göstərici 1,8 dəfə, Almaniyada 2,1 dəfə yüksəkdir. Qazaxstanda orta məktəb müəllimlərinin əmək haqqı 100 ABŞ dollarından (2002-ci il) yuxarı olub. Azərbaycanda isə orta məktəb müəllimlərinin böyük əksəriyyəti 30- 65 ABŞ dolları əmək haqqı alır.

BMTİP-in maliyyə yardımı və BƏT-in «Azərbaycanda əmək statistikası və regional inkişaf sahəsində texniki yardım» layihəsi çərçivəsində əhalinin sosial iqtisadi müdafiəsinə dair müayinə aparılıb. Müayinəyə cəlb olunmuş respondentlərin fikrincə, 4 nəfərdən ibarət olan ailə üçün minimum pul gəlirlərinin orta miqdarı 1.657.000 manat (340$ ABŞ) təşkil etməlidir. Bununla belə respondentlərin 4%-i bu rəqəmin 650 min manatdan bir milyon manata qədər, 46,2%-i bir milyon manatdan iki milyon manata qədər, 49,8%-i isə iki milyon manatdan çox təşkil etməli olduğunu bildirib. Beləliklə, respondentlərin fikrincə, normal yaşayışa zəmanət verən ailənin bir üzvü üçün minimum orta aylıq gəliri 415 min manat (85$) olmalıdır.[30]

Ölkədə pedoqoji ixtisasa malik kadrların sayının tələb olunan səviyyədən bir neçə dəfə çox olmasına baxmayaraq, təhsil sahəsində əmək haqqının aşağı olması ölkənin ümumtəhsil məktəblərində kadr çatışmazlığına səbəb olub. Belə ki, Təhsil Nazirliyinin 2004-cü ilə olan məlumatına görə, hazırda ölkədə, xüsusilə regionlarda, 6000 müəllim yeri boşdur. Çox vaxt bu boşluq qeyri-ixtisas müəlimlərinin hesabına doldurulur ki, bu da təhsilin keyfiyyətinə bilavasitə mənfi təsir göstərir.

**«Təhsilin keyfiyyətinin yaxşılaşdırılması və təhsil sisteminin inkişafına hansı amillər birbaşa təsir göstərir?»** -Bu sualı cavablandıran ekspertlərin 50%-i Azərbaycanda təhsil sistemini inkişaf etdirmək üçün dövlət təhsil müəssisələrində işləyən müəllim və pedaqoji işçilərə yüksək əmək haqqı verilməsinin vacib olduğunu bildirib. Onların yalnız 25,0%-i bütün təhsil müəssisələrinin müasir maddi-texniki baza ilə təmin edilməsinə üstünlük verib. İnkişaf etmiş ölkələrin təcrübəsindən geniş istifadə edilməsini məğbul hesab edənlər isə 17,5% olub.

30. Yenə orada səh. 22-23.





Hazırda təhsil müəssisələrinin, xüsusilə orta ümumtəhsil məktəblərinin maddi-texniki bazasının vəziyyəti beynəlxalq səviyyədə qəbul edilmiş standartlara və tələblərə uyğun deyil. Büdcə vəsitlərinin çatışmazlığı səbəbindən Azərbaycanda son 10 ildə məktəblərə kifayət qədər inventar, texniki avadanlıq və zəruri təchizat alınması mümkün olmayıb. Nəticədə, bir çox məktəblərdə, xüsusilə kənd yerlərində yerləşən məktəblərdə vəziyyət daha da acınacaqlı olub.

Ölkə prezidentinin 21 avqust 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və telekommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)» ölkədə yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən, dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyır. Həmin Proqrama görə 3 il müddətində 4521 məktəb kompüter avadanlığı ilə təchiz olunacaq, ölkənin ümumtəhsil məktəblərində hər 33 şagirdə 1 müasir kompüter düşəcək. Bu, həmçinin şagirdlərin məsafədən təhsil almaq imkanları genişləndiriləcək. Bu Proqramın həyata keçirilməsində əsas məqsəd həm də tədris prosesində Azərbaycan dilində istifadə olunan müasir elektron tədris materiallarının, elektron dərsliklərin, kitabxanaların, rəqəmli tədris resurslarının işlənib hazırlanması, yayılması, təhsil sisteminin informasiya infrastrukturunun yaradılması, informasiyalaşdırma prosesinin elmi-metodiki təminatı, şagirdlər üçün məsafədən təhsil xidmətinin, təhsil saytlarının yaradılması, milli təhsil sisteminin inkişafına yönəldilən bir çox tədbirlərin reallaşdırılmasıdır. Hazırda bu istiqamətdə müəyyən işlər də görülür. Belə ki, DB-nın maliyyələşdirdiyi «Təhsil sistemində islahatlar» layihəsi çərçivəsində Naxçıvan MR-da, Bakıda, Gəncədə, Sumqayıtda və Lənkəranda seçilmiş 20 pilot məktəbin kompüter avadanlığı və təlim üçün digər texniki vasitələrlə təchizatı 2003-cü ildə başa çatdırılıb və məktəblərdə informasiya texnologiyasını gücləndirmək məqsədilə Əli-Bayramlı, Ucar və İmişli rayonlarında da müvafiq işlər aparılır.

Sözsüz ki, bu işlərin görülməsi üçün maliyyə vəsaiti tələb olunur. Əgər bir neçə il əvvəl təhsilin inkişafı üçün maliyyənin çatışmazlığı problemləri yaşanırdısa, bu gün əldə edilən neft gəlirləri bu problemi aradan qaldırıb. İndi bu gəlirlərin təhsilin inkişafına, daha

geniş mənada desək, insan kapitalının inkişafına yönəldilməsi mexanizminin işlənilməsi problemi qarşıda durur. Yeri gəlmişkən, qeyd edək ki, 2004-cü ildə ölkə Prezidenti tərəfindən «Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya»da insan kapitalının inkişafı strateji məqsəd kimi qarşıya qoyulur. Lakin hesab edirik ki, indiki şəraitdə neft və qaz gəlirlərindən insan kapitalına investisiya qoyulması üçün konkret mexanizm və ya proqram hazırlanmasına ehtiyac var.





# V FƏSİL

# ƏMƏK BAZARI VƏ MƏŞĞULLUĞUN YAXŞILAŞDIRILMASI

## 1.Əmək bazarı və məşğulluğun sosial-iqtisadi mahiyyəti

Cəmiyyətin inkişafının bütün mərhələlərində məşğulluq əhalinin sosial rifahının yaxşılaşmasında əhəmiyyətli yer tutur. Bu baxımdan əvvəlcədən demək olar ki, məşğulluqla rifah halının yaxşılaşdırılması arasında birbaşa asılılıq var. İnkişaf etmiş ölkələrin təcrübəsi məşğulluğun təmin edilməsinin dövlətin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla əhalinin rifah səviyyəsini və iqtisadi artım sürətini əks etdirən mühüm amillərdən biri hesab olunur. Bu iqtisadi kateqoriyanın zəruriliyi, ona iqtisadi hadisə və proseslərin adi olmayan müstəqil bir təzahür forması kimi baxılmasına imkan verir

İnsan cəmiyyətinin inkişaf dinamikasında insanların işləmək qabiliyyətinə malik olmasının təbii proses olduğu göstərilir. Belə ki, işləmək qabiliyyətinə malik olan hər bir insan özünün maddi rifah halını yaxşılaşdırmaq üçün mövcud resurslardan istifadə edərək faydalı əməklə məğul olmaq, maddi nemətlər istehsal etmək məcburiyyətində qalır Bunun üçün ilk növbədə iş qüvvəsi (əhalinin işgörmə qabiliyyətinə, bacarığına iş qüvvəsi deyilir), torpaq, yeraltı və yerüstü sərvətlər tələb olunur. Lakin təcrübə göstərir ki, sadalanan amillərin hamısının olması (səmərəli istifadə olunmadıqda) istehsalın artımına, məşğulluğun təmin olunmasına və ümumilikdə ölkədə sosial-iqtisadi inkişafa təsir etmir. Belə ki, zəngin təbii sərvətlərə malik olan şərq ölkələri özünün inkişaf səviyyəsinə (həmçinin yoxsulluq səviyyəsinə) görə təbii sərvətlərlə o qədər də zəngin olmayan Yaponiya və Avropa ölkələrindən geri qalırlar. Buna əsas səbəb kimi həmin ölkələrdə elmin, təhsilin inkişafını, mövcud sərvətlərdən səmərəli istifadə olunduğunu göstərmək olar.

Məşğulluq prosesində insanlar arasında yaranan münasibətlər sosial-iqtisadi xarakter daşımaqla, təkcə əmək prosesində deyil, həm də məşğulluq prosesinin özünün formalaşmasını əhatə edir. Məşğulluq zahirən əmək kimi təzahür etsə də sinonim deyil, onlar bir –birindən fərqlənirlər. Belə ki, əgər əmək insanların şüurlu, məqsədəuyğun

fəaliyyətidirsə, məşğulluq müəyyən iş yerlərində işçinin konkret əmək kooperasiyasına qoşulmaq üzrə mövcud olan ictimai münasibətdir.[31]

Əmək qabiliyyətli əhalinin əmək fəaliyyətinə cəlb edilməsi məşğulluğun ilk mərhələsi və ya başlanğıc mərhələsini təşkil edir. İkinci mərhələdə bilavasitə əmək prosesi baş verir. Üçüncü mərhələdə isə cəlb edilənlərin işdən azad edilməsi prosesi baş verir. Beləliklə, məşğulluq-cəlbetmə, əmək fəaliyyəti və azadedilmə kimi üç mərhələni özündə əks etdirən sosial-iqtisadi prosesdir. Çünki birinci mərhələdə məşğulluq imkanları və məşğulluq səviyyəsi genişlənir. İkinci mərhələdə insanların əmək fəaliyyəti nəticəsində pul gəlirləri artır, yoxsulluq səviyyəsi aşağı düşür, rifah halı yaxşılaşır. Üçüncü mərhələdə isə işsizlik kimi sosial-iqtisadi problemin ortaya çıxması halları baş verir.

Məşğulluğun sosial funksiyası əhalinin hərtərəfli inkişafının təmin edilməsindən ibarətdir. İnsanlar cəmiyyət həyatında təkcə istehsal amili, iqtisadi və ya siyasi vəzifələrin yerinə yetirilməsi aləti deyil, hər şeydən əvvəl yüksək həyat səviyyəsi və mənəvi dəyərdir. Məlumdur ki, məşğulluğun təmin edilməsi yoxsulluğa təsir göstərən mühüm amillərdəndir. Bu baxımdan indiki bazar münasibətləri şəraitində bu sahədə vəziyyəti öyrənmək, məşğulluğa təsir göstərən amilləri və onun yoxsulluq səviyyəsinə təsirini, habelə məşğulluq səviyyəsinin yüksəldilməsində neft gəlirlərindən istifadə imkanlarının müəyyənləşdirməsi mühüm əhəmiyyət daşıyır.

Beynəlxalq təcrübə «məşğulluq və işsizlik problemi»nin əhalinin həyat səviyyəsinə bilavasitə təsir etdiyini göstərir. Hesab edirik ki, neftdən əldə olunan gəlirlərin bir hissəsini qeyri-neft sektorunun inkişafına yönəltməklə səmərəli məşğulluğun təmin olunmasına, əhalinin gəlir əldə etmə imkanlarının genişləndirilməsinə, yoxsulluğun azaldılmasına və nəhayət, ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaq mümkündür.

Məşğulluq əmək bazarı və işsizlik problemlərinin həllində və ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan amillərdən hesab olunur. Ölkədə səmərəli məşğulluq səviyyəsinin aşağı olması yoxsulluğun yüksəlməsinə, cəmiyyətdə bir çox xoşagəlməz hadisələrin (aclıq, xəstəlik, oğurluq, quldurluq və s.) meydana çıxmasına təsir göstərir.

[31] Ş.M.Muradov İnsan protensialı: əsas meyllər, reallıqlar, perspektivlər Bakı «Elm» 2004, 660 səh. 162





Ümumiyyətlə, məşğulluq anlayışı altında əmək qabiliyyəti olan və işləmək istəyən hər bir şəxsin işlə təmin edilməsi imkanı başa düşülür. Başqa sözlə, məşğulluq ölkədə mövcud olan bütün yararlı reurslardan səmərəli istifadə etməklə əmək qabiliyyətinə malik olanların işlə təmin olunması deməkdir.

Əmək bazarı isə əmək qüvvələrinin hərəkəti, ictimai istehsala qoşulması, istifadə olunması, paylanması və təkrar paylanması, azad olunması prosesi, başqa sözlə məşğulluğun təmin edilmsində əsas rolu oynayan vasitədir. Əmək bazarı peşəkar olmayan fəhlələr, sahibkarlar, firma rəhbərləri də daxil olmaqla bütün işləmək istəyənlərə xidmət göstərmək məqsədilə meydana çıxıb. Bu bazarda hər bir fərd bazarın tələbindən asılı olaraq öz iş qüvvəsini satmaq imkanına malik olur və bu zaman onlar öz iş qüvvəsinin alıcısını seçməkdə müstəqil qərar vermək hüququ qazanırlar. Əmək bazarının fəaliyyət göstərdiyi şəraitdə iş qüvvəsi əmtəə kimi çıxış edir. Fərdin öz iş qüvvəsini satması digər əmtəə növlərində olduğu kimi, bazar qanunlarına əsaslanan alqı-satqı üsulu ilə həyata keçirilir.

Tələb və təklif əmək bazarının əsas prinsiplərindən biri hesab olunur. «Məşğulluq Haqqında Azərbaycan Respublikasının Qanunu»nun 1.0.8 bəndində «əmək bazarı iş qüvvəsinə olan tələb və təklifin məcmusu» kimi göstərilir[32].

Əmək bazarı əhalinin məşğulluq səviyyəsi, dinamikası, peşə-ixtisas, sahə və demoqrafik xüsusiyyətlərinə görə məşğulluq quruluşunda baş verən başlıca dəyişiklikləri və meylləri, iş qüvvəsinin mobilliyi, işsizliyin miqyası, dinamikası və ona təsir edən amilləri özündə əks etdirir.

Əmək bazarı müxtəlif üsullarla tənzimlənir. Bu halda tənzimləmə minimal əmək haqqının təyini, ictimai iş sahəsinin yaradılması, kasıblara dövlət yardımı proqramları, həmkarlar ittifaqlarının işini reqlamentəşdirən qanunvericilik aktları və s. yolu ilə gedir. Görüündüyü kimi əmək bazarının tənzimlənməsində əmək haqqı mühüm yet tutur. Ümumiyyətlə, aparılan araşdırmalar onu göstərir ki, əmək haqqı həqiqətən də ölkənin iqtisadi inkişafında, məşğulluğun təmin olunmasında, əhalinin rifahının yaxşılaşdırılmasında əhəmiyyətli yet tutur.

[32] Məşğulluq haqqında sənədlər toplusu Bakı 2002 74 s

Əmək bazarının formalaşmasında əmək resursu kimi insanın həyat fəaliyyətinin təmin olunması funksiyası diqqəti daha çox cəlb edir. Əmək bazarı şəraitində əmək resurslarından istifadənin sosial-iqtisadi xüsuiyyətlərinin əsası kimi müasir əmək bazarının formalaşması probleminə, onun növləri və modellərinə baxmaq lazımdır. Əmək bazarında bazar münasibətlərinin bərqərar olması mövcud anlayış və kateqoriyalardan istifadə olunmasını tələb edir.[33]

Beləliklə, məşğulluğun təmin edilməsi hər bir dövlətin sosial-iqtisadi inkişaf strategiyasının başlıca şərtlərindən biri hesab olunur. Bu baxımdan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr məşğulluq probleminin həllinə, yoxsulluğun azaldılmasına daha çevik təsir göstərən amil kimi baxır və bu sahəyə xüsusi diqqət yetirirlər. YAİİDP-nin qarşıya qoyduğu 4 funksional qrupdan birinin də məhz «iqtisadi inkişaf və məşğulluğun artımı» ilə bağlı olması təsadüfi deyil. Bu qrupa daxil olan 5 siyasət istiqamətindən biri «əmək bazarı və məşğulluq» problemlərinin həll edilməsi ilə bağlıdır. Bu problemi həll etmək üçün

1)qeyri-neft sektorunda regionlar üzrə tarazlı məşğulluğun həvəsləndirilməsi vasitəsilə işçi qüvvəsinə tələbin stimullaşdırılması;

2)əmək haqqı sistemində islahtların aparılması;

3)əmək bazarının tənzimlənməsi;

4)əmək münasibətlərinin tənzimlənməsi və s. məsələlər öz həllini tapmalıdır.

Qeyd edilənləri ümumiləşdirərək belə qanaətə gəlmək olar ki, bazar münasibətləri şəraitində əmək bazarı və məşğulluğun sosial nəticələri çox ziddiyyətlidir. Belə ki, bazar münasibətləri bir tərəfdən ictimai istehsalda məşğulluğun səmərəliliyinin yüksəldilməsi, stimullaşdırılması, əmək qabiliyyətli əhalinin gəlir əldə etmək imkanlarını genişləndirir, digər bir tərəfdən də bazarın tələbləri ilə ayaqlaşaraq insanların işə düzəlmək imkanlarını çətinləşdirir. Bu baxımdan əmək bazarının tənzimlənməsi və məşğulluğun təmin edilməsi dövlətin sosial siyasətinin strateji məqsədlərindən biri hesab olunur.

İnvestisiya fəaliyyətinin müsbət nəticələrindən biri də bazar iqtisadiyyatı şəraitində məşğulluq probleminin həlli ilə bağlıdır. Məşğulluq haqqında qərb alimlərinin (C. Seyin, C. Keynsin) fikirlərinə tam uyğun olaraq qeyd etmək lazımdır ki, investisiya ilə məşğulluğun

[33] В.И. Ведяпин «Общая экономическая теория», Москва, 1995 г. 489 с. səh. 56





son dərəcə sıx və qarşılıqlı əlaqəsi mövcuddur. Belə ki, investisiya qoyuluşunda son məqsəd maksimum mənfəət əldə etməkdirsə, buna nail olmağın başlıca vasitəsi ölkədə məşğulluğun tənzimlənməsidir. Bunun üçün ölkənin malik olduğu milli sərvətlərdən tam və səmərəli istifadə edilməsi lazımdır. Cəmiyyətə istənilən həcmdə maddi nemətlər istehlak etmək və onun müqabilində xidmətlər göstərmək kimi problemlər investisiya qoyuluşlarının həcmindən və strukturundan bilavasitə asılıdır. Güclü iqtisadi potensiala malik olan ölkələrin təcrübəsi göstərir ki, istehsalın genişləndirilməsi, onun artım tempinin sürətləndirilməsi, bu sahədə çalışanların sayının getdikcə azalmasına, xidmət sferasında isə çalışanların sayının artmasına gətirib çıxarır. Məhz buna görə də ölkədə daxili və xarici investisiya qoyuluşlarının artırılması əsasən iki istiqamətdə həyata keçirilməlidir. Birinci növbədə istehsal strukturu bazar tələbatına səmərəli uzlaşdırılmalı, idxal azaldılmalı və ixracı isə çoxaldılmalı, digər tərəfdən isə istehsalın hər bir mərhələsində müvafiq sosial infrastrukturun inkişafı təmin edilməlidir. Aydındır ki, hər bir sahibkar öz fəaliyyətində lazımi qazanc-mənfəət əldə etmək fikrindədirsə, o, istər-istəməz istehsal heyətinin sosial vəziyyətini, xüsusilə əmək şəraitinin getdikcə yaxşılaşdırılmasını təmin etməlidir.

**2. Əmək bazarı və məşğulluq sahəsində müasir vəziyyətin təhlili**

Məlumdur ki, bu gün Azərbaycan iqtisadiyyatı əsasən iki sektora - **neft** və **qeyri-neft** sektoruna bölünüb. Yeri gəlmişkən qeyd edək ki, **neft sektoru** ölkə iqtisadiyyatında aparıcı yerlərdən birini tutur. Qeyri-neft sektorunun isə çox geniş bir sahəni əhatə etməsinə baxmayaraq, iqtisadiyyatın inkişafında rolu neft sektoruna nisbətən çox aşağıdır. Bu da iqtisadiyyatda «birtərəfli inkişaf» kimi mənfi tendensiyanın daha da genişlənməsinə şərait yaradır.

Statistik təhlil neft və qeyri-neft sektorları üzrə istehsal faktorlarından istifadə olunmasında da ciddi fərqlərin oduğunu göstərir. Neft sektoru daha çox kapital və texnologiya tutumlu olduğu halda, qeyri-neft sektoru kapital, material, əksər sahələri isə əmək tutumlu olur. Burada əsas diqqəti çəkən məsələ qeyri-neft sektorunun əmək tutumlu olmasıdır. Qeyri-neft sektorunun bu xüsusiyyəti ölkədə

məşğulluğun təmin olunmasına, əhalinin gəlir əldə etmək imkanlarının artırılmasına, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə əhəmiyyətli təsir göstərə bilər. Bu baxımdan neft və qeyri-neft sektorlarında istehsal faktorlarının payının müəyyənləşdirilməsi indiki bazar iqtisadiyyatı şəraitində xüsusi aktuallıq kəsb edir.

Məlumdur ki, Azərbaycan da zəngin təbii sərvətlərə malik olan ölkələr sırasında təkcə təbii sərvətlərinin zənginliyi ilə deyil, həmçinin əhalinin artım tempinə görə də bir çox inkişaf etmiş ölkələri (eyni zamanda bəzi MDB ölkələrini) qabaqlayır. Deməli, qeyd etdiyimiz kimi təbii sərvətlərin çox olması məşğulluq probeminin həllinə o qədər də təsir göstərmir. Burada hər şeydən əvvəl həmin sərvətlərdən səmərəli istifadə edilməsi tələb olunur ki, bu da ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətdən əhəmiyyətli dərəcədə asılıdır. Yalnız bu halda ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsinə təsir göstərmək olar.

DSK-nın verdiyi məlumatlara görə, 2000-2005-ci illərdə əhalinin sayı 5,2% artıb. Bu dövrdə iqtisadi fəal əhalinin sayı 158,3 min nəfər və ya 4,2%, iqtisadiyyatda məşğul olanların sayı isə 145,7 min nəfər və ya 3,9% artıb (Cədvəl 1).

Cədvəl 1

**İqtisadi fəal əhalinin sayı (min nəfər)**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhali,cəmi, min nəfər | 3641.3 | 3748.2 | 3763.4 | 3777.5 | 3801.4 | 3865 | 3 906,5 |
| İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar, cəmi, min nəfər | 3613.0 | 3704.5 | 3715.0 | 3726.5 | 3747.0 | 3809,1 | 3850,2 |
| Məşğulluq xidmətində rəsmi status alan işsizlər, nəfər | 28314 | 43739 | 48446 | 50963 | 54365 | 55945 | 56343 |
| kişilər | 11411 | 19283 | 21808 | 23088 | 25313 | 26669 | 237265 |
| qadınlar | 16903 | 24456 | 26638 | 27875 | 29052 | 29276 | 29078 |
| işsizliyə görə müavinət alanlar | 2981 | 2768 | 3117 | 3292 | 3111 | 3084 | 2087 |
| kişilər | 1162 | 1313 | 1520 | 1601 | 1808 | 1887 | 1316 |
| qadınlar | 1819 | 1455 | 1597 | 1691 | 1303 | 1197 | 771 |

*Mənbə: «Azərbaycan rəqəmlərdə 2006» qısa statistik məcmuə , Bakı 2006, səh 25*





Qeyd edək ki, 2005-ci ilin məlumatlarında işsizlik səviyyəsi 1,4% olduğu göstərilir. Sözsüz ki, bu reallıqdan çox uzaqdır. Təkcə bir faktı göstərmək kiyayətdir ki, 2003-cü ilin IV rübü, 2004 və 2005-ci illərdə ölkədə 346,4 mindən çox yeni iş yerinin yaradıldığı (DSK-nın rəsmi məlumatlarıdır) bildirilir. Bu məlumatlar real və ciddi saymaq çətindir. Belə ki, bu dövrdə (2004 və 2005-ci illərdə) iqtisadiyyatda məşğul olanların sayı 103,2 min nəfər artıb. Qeyd edilən dövrdə yaradılan yeni iş yerlərinin sayının isə 336,3 min, başqa sözlə 336340 nəfərin işlə təmin olunduğu bildirilir. Məşğul olanların sayında baş verən artımla yaradılan yeni iş yerlərinin sayı arasında bu qədər böyük fərqin (233,1 min nəfər) yaranması bu məlumatların dürüstlüyünü şübhə altına alır.

Reallıqdır ki, iqtisadiyyatda məşğul əhali kimi qeydə alınan əhalinin böyük bir qismi kənd təsərrüfatında çalışır. Belə ki, 2005-cü ildə iqtisadiyyatda məşğul olanların 39,2%-ni kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 1,1%-ni, mədənçıxarma sənayesində, 4,9%-ni emal sənayesində, 5,1%-ni tikintidə, 16,6%-ni topdan və pərakəndə ticarətdə, 7,0%-ini dövlət idarəetməsi, müdafiə və sosial təminat sahələrində, 8,7%-ni təhsildə, qalan hissəsini isə digər sahələrdə çalışanlar təşkil edib (Cədvəl 2).

Cədvəl 2

**Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (min nəfər)**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004' | 2005 | Yekuna görə %-lə |
|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyat üzrə - cəmi | 3704.5 | 3715.0 | 3726.5 | 3747.0 | 3809,1 | 3850,2 | 100.0 |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 1517.2 | 1482.0 | 1495.0 | 1497.0 | 1502,7 | 1510 | 39.2 |
| Balıqçılıq, balıqyetişdirmə | 2.0 | 2.3 | 2.5 | 2.8 | 3,3 | 3,8 | 0.1 |
| Mədənçıxarma sənayesi | 39.6 | 42.1 | 42.2 | 42.3 | 41,9 | 42,2 | 1.1 |
| Emal sənayesi | 169.3 | 163.9 | 169.5 | 169.9 | 181,2 | 188,7 | 4.9 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 40.5 | 41.0 | 39.9 | 39.8 | 39,8 | 3 9+,7 | 1.0 |
| Tikinti | 153.6 | 155.0 | 178.0 | 180.0 | 190,6 | 194,4 | 5,1 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Topdan və pərakəndə ticarət: avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 626.1 | 659.5 | 611.9 | 618.3 | 630,7 | 638,8 | 16.6 |
| Mehmanxana və restoranlarla xidmətin göstərilməsi | 9.8 | 11.0 | 11.3 | 11.8 | 12.4 | 14,2 | 0.4 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 167.0 | 167.5 | 169 8 | 178.5 | 190,5 | 191,5 | 5.0 |
| Maliyyə fəaliyyəti | 13.5 | 13.0 | 13.2 | 13.0 | 13.1 | 13,2 | 0.3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 98.0 | 97.0 | 97.2 | 97.5 | 100,0 | 100,6 | 2.6 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminatın vəzifələri | 257.7 | 267.3 | 265.3 | 265.0 | 269,7 | 270,5 | 7.0 |
| Təhsil | 317.9 | 318.0 | 329.9 | 330.0 | 330,8 | 335,3 | 3.7 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 168.9 | 170.0 | 173.6 | 173.8 | 174.6 | 177,2 | 4.6 |
| Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi | 123.2 | 125.0 | 126.7 | 126 8 | 127,3 | 129,5 | 3.4 |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 0.2 | 0.4 | 0.5 | 0.5 | 0.5 | 0,6 | 0.0 |

*Mənbə: «Azərbaycan rəqəmlərdə 2006» qısa statistik məcmuə, Bakı 2006, səh 27.*

Lakin kənd təsərrüffatında torpağın becərilməsi ilə bağlı ciddi maliyyə, aqrotexniki xidmət, suvarma və s. kimi problemlərin olması, onların məşğul əhali kimi qeydə alınmasına baxmayaraq, gəlir əldə etmə imkanlarını məhdudlaşdırır. Belə bir tendensiya təkcə kənd təsərrüfatında deyil, iqtisadiyyatın digər sahələrində də mövcuddur. Belə ki, iqtisadiyyatın digər sahələrində (neft sektoru istisna olmaqla) əmək haqqının aşağı olması, sənayenin əsas sahələrində (kimya, neft kimyası, maşınqayırma və neft maşınqayırması sahələrində) istehsal





fəaliyyətinin zəifləməsi ümumilikdə əhalinin səmərəli məşğulluğuna və iqtisadi fəallığına mənfi təsir göstərir.

Məlumat üçün bildirək ki, 2003-cü ilin birinci yarısında Beynəlxalq Əmək Təşkilatının dəstəyi ilə yaşı 15 və ondan yuxarı əhali qrupları arasında DSK tərəfindən Əhalinin İqtisadi Fəallığına dair Seçmə Müayinə həyata keçirilib. Müayinənin nəticələrinə görə ölkə əhalisinin iqtisadi fəallıq səviyyəsi 62,9% (kişilər üçün 75,6%, qadınlar üçün 51,1%), məşğulluq səviyyəsi isə 56,2% (kişilər 68,4%, qadınlar 44,6%) təşkil edib.[34] Əhali arasında ən böyük iqtisadi fəallıq istər şəhərdə, istərsə də kənddə 20-44 yaş qrupu arasında müşahidə olunub. Həmçinin YAİİDP üzrə illik hesabatda kənd yerlərində işsizlik və qeyri-fəallığın səviyyəsi yüksək, məşğulluğun səviyyəsinin isə nəzərəçarpacaq dərəcədə aşağı olduğu göstərilir.[35]

Kənd yerlərində belə vəziyyətin yaranmasına bir tərəfdən kəndlinin artıq mühüm yaşayış vasitəsinə çevrilmiş enerji təminatının (işıq, qaz) acınacaqlı vəziyyətdə olması, digər bir tərəfdən isə kənd təsərrüfatı məhsullarının istehsalı, satışı, saxlanılması və s. əlaqədar yaranan problemlər təsir göstərib. Nəticədə kənd əhalisinin yaxşı gəlir əldə etmək, rahat yaşamaq məqsədilə ölkənin iri şəhərlərinə və MDB ölkələrinə axını daha sürətli xarakter alıb. Xüsusilə gənclərin böyük bir qisminin öz doğma vətənini tərk etməsi kənd təsərrüfatı məhsullarının istehsalına da öz təsirni göstərir. Çünki kənd təsərrüfatı ağır fiziki əmək tələb edən sahədir və burada gənclərin potensialına daha çox ehtiyac duyulur.

Bu da onu göstərir ki, indiki şəraitdə Azərbaycanda iqtisadi rayonların daxili potensialından səmərəli istifadə edilmir, rayonlar üzrə xüsusi əhəmiyyət kəsb edən sahələr müəyyənləşdirilməyib, yerli sahibkarlığın inkişaf səviyyəsi aşağıdır və s. Təbii ki, belə bir vəziyyət regionlar üzrə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, əhalinin həyat səviyyəsinin daha da pisləşməsinə təsir göstərir.

İqtisadi rayonların potensialından səmərəli istifadə olunmaması əhalinin yuxarıda qeyd olunan şəkildə miqrasiyasının sürətlənməsinə şərait yaradır. Bu da gələcəkdə kənd yerlərində iş qüvvəsi çatışmazlığı yarada bilər. Bunun qarşısının alınması isə ilk növbədə ölkədə (xüsusilə regionlarda) investisiya mühitinin yaxşılaşdırılmasını, təhsilin

[34] YAİİDP üzrə illik hesabat 2003 səh 20
[35] YAİİDP üzrə illik hesabat 2003 səh 21

keyfiyyətinin, hazırlanan mütəxəssislərin ixtisaslarının əmək bazarının tələb və təklifinə uyğunlaşdırılmasını, işsizlik səviyyəsinin aşağı salınmasını və s. bu kimi məsələlərin həll edilməsini tələb edir. Bu baxımdan dövlətdən məşğulluq siyasətində daha ciddi addımlar atması tələb olunur.

Statistikaya görə 2005-ci ildə məşğulluq orqanları tərəfindən 56343 nəfər işsiz statusu alıb. Onlardan yalnız 3,7%-i (2087 nəfər) müavinət alır. BƏT-in metodologiyası əsasında aparılan sorğunun nəticələrinə görə isə ölkədə işsizlərin sayı 400 min nəfərdən çoxdur. İşsizliyin yüksək olmasına Mingəçevir şəhərinin timsalındada aydınlıq gətirmək olar. Belə ki, 2004-cü ildə Mincəçevir şəhərinin Məşğulluq İdarəsində rəsmi olaraq 2 minə yaxın işsiz qeydə alınıb. Lakin mütəxəssislərin hesablamalarına görə, şəhərdə onların real sayı bu göstəricidən qat-qat çoxdur. Belə ki, hələ planlı iqtisadiyyatın mövcud olduğu dövrlərdə müəssisələr tam gücü ilə işləyərkən bu müəssisələrdə 30 mindən çox insan işləyib, indi isə bu müəssisələrdə, əvvəlki potensialın 10%-ni (3 min nəfərə yaxın) aşmayan işçi qüvvəsi çalışır. Bundan başqa Mingəçevir şəhərində çoxminli qaçqın və məcburi köçkün ordusunun məskunlaşdığını nəzərə alsaq, göstərilən rəqəmlərin reallıqdan uzaq olduğunu demək olar.

Sovetlər birliyi dağıldıqdan sonra ölkədə əksər iri istehsal müəssisələrinin, ö cümlədən kənd təsərrüfatı məhsullarının, xüsusilə şərabçılıq zavodlarının bağlanması nəticəsində həm kənd, həm də şəhər regionlarında ciddi işsizlik problemləri yaranıb.

Müstəqilliyin ilk illərindən yalnız neft sektoru nisbətən inkişaf edib. 1994-cü ildə neft müqavailələrinin bağlanması neft sektoruna diqqətin daha da artırılmasına səbəb olub. Nəticədə neft iqtisadiyyatın aparıcı sahəsinə çevirib. Belə ki, 2005-ci ildə ölkə üzrə ÜDM-in 42%-i, büdcə daxilolmalarının 40-50%-i, ixracatın 76,8%-i, sənaye məhsulları istehsalının 70%-ə qədəri, iqtisadiyyata qoyulan investisiyaların 80%-ə qədəri, əsas kapitala yönəldilən investisiyaların 64,6%-i neft sektorunun payına düşüb. Yeri gəlmişkən, xatırladaq ki, ümumilikdə neft sektorunda iqtisadiyyatda məşğul olanların 1,7%-i və ya 65 min nəfəri çalışır. Göründüyü kimi, ölkənin bir sıra əsas makroiqtisadi göstəriciləri üzrə neft sektoru əsas üstünlük təşkil etsə də, bu sektorda çalışanlar iqtisadiyyatda çalışanların çox az bir qismini təşkil edir. Deyilənlərdən belə qənaətə gəlmək olar ki, neft sektoru (iş qüvvəsi cəlb





etmək baxımından) ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsində məhdud rola malikdir. Lakin buna baxmayaraq əsas iqtisadi göstəricilər neft sənayesiylə bağlıdır. Bu isə iqtisadiyyatın birtərəfli inkişafına təsir göstərir. İqtisadiyyatın birtərəfli inkişafının təhlükəli olduğu dünya təcrübəsində sübut edilib. Buna «hollandiya sindromu» nümunə göstərilə bilər. Neft gəlirlərindən səmərəli istifadə olunması isə qeyd olunan təhlükənin qarşısını ala bilər.

Son bir ildə neftin qiyməti özünün görünməmiş ən yüksək həddinə (1 barrel 70 dollara qədər) çatıb. Belə bir şəraitdə dövlətin qarşısında duran vacib məsələlərdən biri də neft gəlirlərini sənayeninin digər sahələrinin inkişafına yönəltməklə iqtisadiyyatda (makroiqtisadi göstəricilərdə) neftin rolunun azaldılmasından və ölkə iqtisadiyyatını gələcəkdə baş verə biləcək «qiymət böhranından» qorumaqdan ibarət olmalıdır. Bu həm də ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsinə, işsizliyin və yoxsulluğun aradan qaldırılmasına təsir göstərər.

### 3. Kiçik və orta sahibkarlığın inkişafının məşğulluğun təmin edilməsində rolu

Məlumat üçün bildirək ki, inkişaf etmiş ölkələrin təcrübəsində sahibkarlıq fəaliyyəti iqtisadiyyatın makroiqtisadi göstəricilərinin artmasında əsas yerlərdən birini tutur. Belə ki, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi ÜDM-in, əhalinin pul gəlirlərinin, istehsal və xidmətin həcminin, iqtisadiyyata qoyulan xüsusi kapitalın (investisiyaların) və s. bu kimi makroiqtisadi göstəricilərin artımına birbaşa təsir göstərir. Sahibkarlıq fəaliyyəti insanlar arasında münasibətlərin qurulmasını və eyni zamanda, insanlarda özünətələbat prinsiplərinin üstün mövqe tutmasını əsaslandırır. Bu baxımdan sahibkarlıq fəaliyyətinin mahiyyətinin açılması və cəmiyyətin sosial-iqtisadi inkişafında rolunun elmi-nəzəri cəhətdən əsaslandırılması bazar münasibətləri şəraitində xüsusi aktuallıq kəsb edir.

Aydındır ki, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni sahibkarların meydana gəlməsi yeni iş yerlərinin yaranmasına, əhalinin məşğulluğuna və həyat səviyyəsinə təsir göstərən amillərdəndir. Əgər bir neçə il əvvəl ölkədə vəsait çatışmazlığı problemi yaşanırdısa, bu gün artıq başqa problem ortaya çıxıb: «Yığılmış və yaxud da daxil olan külli

miqdirda neft gəlirlərindən necə istifadə etməli?». Sözsüz ki, belə bir şəraitdə neft glirlərindən səmərəli istifadə olunması ilə bağlı geniş elmi-tədqiqat işlərinin aparılmasına, eyni zamanda, ictimai rəyin öyrənilməsinə böyük ehtiyac duyulur.

ANSİRM-in bu barədə ictimai rəyi öyrənmək üçün keçirdiyi sosioloji sorğunun nəticələri bu baxımdan maraq doğurur. Mərkəzin respondentlərə ünvanladığı «Dövlət yoxsulluq prblemini həll etmək üçün neftdən əldə olunan gəlirləri ilk növbədə hansı sahələrə yönəltməlidir?» məzmunlu suala, rəyi soruşulanların yarıdan çoxu (55,8%) yoxsulluğun azaldılması istiqamətində neftdən əldə olunan gəlirlərin əsasən yeni iş yerlərinin açılmasına, kiçik və orta sahibkarlığı stimullaşdırmaq üçün güzəştli kreditlərin verilməsinə yönəldilməsini daha məqsədəuyğun hesab ediblər. Respondentlərin 26,9 %-i neftdən əldə olunan gəlirlərin əmək haqlarının və digər müavinətlərin məbləğinin artırılmasına, 9,3%-i yerli istehsal məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə, 3,2%-i isə ünvanlı sosial yardımların ayrılmasına yönəldilməsini düzgün variant hesab ediblər.

Bu baxımdan sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Xatırladaq ki, son illərdə regionlarda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi vəzifəsi qarşıya qoyulsa da işlərin ləng getməsi lazımi səviyyəyə çatmağa imkan vermir. Qeyd etmək lazımdır ki, regionlarda tarazlı inkişafı təmin etmək üçün Sahibkarlığa Kömək Milli Fonduna ayrılan vəsaitlərin həcmi 2003-ci ildəki 57 mlrd. manatdan 2004-cü ildə 100 mlrd. manata (20,3 mln. dollar) qədər (neft gəlirlərinin artması ilə əlaqədar), 2005-ci ildə isə 200 mlrd. manata qədər artırılıb. Ayrılan vəsaitin əvvəlki illə müqayisədə 2 dəfə artırılmasına baxmayaraq, bu məbləğ qısa müddət ərzində qeyri-neft sektorunun inkişafı üçün kifayət edə bilməz. Bundan başqa, sahibkarlar çox vaxt fəaliyyətə başlayarkən və fəaliyyətdə olduqları dövrlərdə bir çox süni maneələrlə qarşılaşırlar. Məsələn, qeyri-neft sektorunda sahibkarlıq fəaliyyəti ilə məşğul olanların işinə polis və vergi orqanları işçilərinin qeyri-qanuni müdaxiləsi, kreditlərin alınmasında «şapka» tələb olunması, inhisarçılar tərəfindən (ədalətsiz) sıxışdırılma daha geniş xarakter alıb və bu da Azərbaycanda müstəqil sahibkarlıq fəaliyyətinin, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına ciddi əngəl törədir. Hökumətin korrupsiya ilə mübarizə sahəsində gördüyü işlərin qənaətbəxş olmaması bu sahədə vəziyyəti daha da ağırlaşdırır. Bu





vəziyyət sahibkarların kredit almaq maraqlarını zəiflədir və öz növbəsində əmək bazarına və məşğulluq səviyyəsinə təsir göstərir. Bunun nəticəsi kimi, keçən dövr ərzində sənayenin qeyri-neft sektorunun (istehsal yönümlü) ÜDM-də payının aşağı olaraq qaldığını (2005-ci ildə 58%) göstərmək yerinə düşər.

ANSİRM-in ekspertlər və sahibkarlar arasında apardığı sosioloji tədqiqatın nəticələri də qeyri-neft sektorunun neft sektoruna nisbətən əmək tutumlu olduğunu təsdiq edib. Belə ki, **«məhsul vahidinə çəkilən xərclərdə hansı faktorların payı daha yüksəkdir»** sualına cavab verən ekspertlər (60%), eləcə də hər iki sektorun sahibkarları (80%) kapital faktoruna (burada kapital investisiya kimi qəbul edilib) daha çox ehtiyac duyulduğunu bildiriblər. Qeyd edək ki, ekspertlərin və sahibkarların digər faktorlarla müqayisədə kapital faktoruna daha çox üstünlük verməlirinin bir sıra səbəbləri var:

1) bir tərəfdən istehsal müəssisələrinin əksəriyyətinin maliyyə çətinlikləri üzündən tam gücü ilə işləyə bilməməsi;

2) yeni yaradılan müəssisələrdə (qeyri-neft sektorunda) maliyyə vəsaitlərinə daha çox ehtiyac duyulması;

3) ölkədə məşğulluq səviyəsinin aşağı olması və işsizliyin yüksək olmasının əmək faktorunun əhəmiyyətini aşağı salması;

DSK-nın məlumatlarının təhlili göstərir ki, 2000-ci illə müqayisədə 2004-cü ildə rəsmi qeydə alınan kəndli fermer təsərrüfatlarının sayı azalıb. Əgər 2000-ci ildə 3248 fermer təsərrüfatı rəsmi qeydə alınıbsa, 2004-cü ildə onların sayı azalaraq 2659-a düşüb.

2002-ci ildə isə qeydə alınanlarn sayı daha az olub. 2003-2004-cü illərdə isə yenidən qeydyə alınanların sayında artım müşahidə olunmağa başlayıb (Cədvəl 3).

Cədvəl 3

**Kəndli (fermer) təsərrüfatları***

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|
| Rəsmi qeydə alınmış kəndli (fermer) təsərrüfatları | 1999 | 3248 | 2604 | 2589 | 2607 | 2659 |
| Onlara ayrılmış torpaq sahələri, min. ha. | — | 30,4 | 23,4 | 20,1 | 21,7 | 17,6 |
| Torpaq sahəsinin orta ölçüsü, ha | — | 9,4 | 9 | 7,8 | 8,3 | 6,6 |

**hüquqi şəxs yaradan*

*Mənbə: Azrbaycanın statistik göstəriciləri, Bakı 2005 səh.125*

Baş verən artım 2003-2005-ci illəri əhatə edən «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı» və 2004-2008-ci illəri əhatə edən «Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı» qəbul edildikdən sonra kənd təsərrüfatına diqqətin artırılması ilə əlaqədardır.

Məlumdur ki, indiki şəraitdə Azərbaycanda neft sektoru ilə yanaşı başqa sahələrin də inkişaf etdirilməsinə geniş imkanlar var və bu istiqamətdə düzgün, məqsədyönlü investisiya və məşğulluq siyasətinin aparılması tələb olunur. Qeyd edək ki, hökumət sahibkarlığın inkişafına təsir edən (birbaşa və dolayısı ilə) bir sıra addımlar atıb. Belə ki, mənfəət vergisi 1 yanvar 2003-cü il tarixdən 27 faizdən 25 faizə, 2004-cü ildə 24 faizə, 2006-cı ilin yanvarından isə 22 faizə qədər aşağı salınıb. Sadələşdirilmiş verginin tətbiq dairəsi 1 yanvar 2003-cü il tarixindən kifayət qədər genişləndirilib və onun regionlar üzrə dərəcələri müəyyənləşdirilib. Lakin bunlar məşğulluq səviyyəsinin yüksəldilməsinə o qədər də təsir göstərməyəcək. Son illərdə bu istiqamətdə görülən tədbirlərin (vergi yükünün 27-dən 22-yə salınması) məşğulluq səviyyəsinə böyük təsir etmədiyi göz qabağındadır. Çünki əhalinin gəlir əldə etmə imkanlarının genişləndirilməsində və məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynayan sahibkarlığın inkişafına mane olan süni əngəllər (yersiz vergi müdaxilələri, inhisarçı qüvvələr tərəfindən sıxışdırılma və s.) hələ də qalmaqdadır. Bütün bunlar qarşıya qoyulan məqsədə çatmaq imkanlarını məhdudlaşdırır.

Hökumət bu sahədə maneələrin aradan qaldırılması, investisiya prosesinin institusional təkmilləşdirilməsi, onun idarə olunması prosesinin yaxşılaşdırılması, nəticələrin dövlət və özəl sektorların iştirakı ilə birgə müzakirə olunması məqsədilə 2003-cü ildə Sahibkarlar Şurası da yaradıb. Lakin KİV-dən əldə olunan məlumatlar sahibkarların fəaliyyətinə əngəl törədən neqativ halların hələ də aradan qaldırılmağını (baxmayaraq ki, ölkə prezidenti bu məqsədlə fərman da imzalayıb) göstərir. Belə ki, istər KİV, istərsə də beynəlxalq qurumlar öz açıqlamalarında Azərbaycanda rüşvətxorluq və korrupsiya hallarının mövcud olduğunu qeyd edirlər. «Korrupsiya vergisi»nin qaçılmazlığı, inhisarçılıq Azərbaycanın uzunmüddətli iqtisadi inkişafı üçün zəruri olan qeyri-neft sektorunun inkişafını ləngidir. Xarici investisiyaların Məsləhət Xidməti Azərbaycanda işləyən 555 xarici





qeyri-neft firması arasında keçirdiyi sorğudan iki investisiya iqliminin möcudluğunu aşkar edib: biri neft sektoru üçün, digəri qeyri-neft sektoru üçün. Neft sektorunda investisiya iqlimi qeyri-neft sektoruna nisbətən əlverişlidir. Respondetlərin 30%-i korrupsiyanı əsas problemlərdən biri hesab edir.[36]

Qeyd edək ki, YAİİDP-in illik hesabatında sahibkarlığın inkişafı istiqamətində görülən işlər barədə ətraflı məlumat verilmir. Müəyyən təbliğat xarakterli işlərin görüldüyü qeyd olunsa da, sərf olunan vəsaitlər və görülən işlərdən əldə olunan nəticələr barədə məlumat yoxdur.

İnkişaf etmiş ölkələrin təcrübəsindən məlumdur ki, investisiya siyasəti məşğulluq səviyyəsinin artırılmasına təsir götərən amillər sırasında durur. Çünki investisiya mühiti və investisiya fəallığı məşğulluq səviyyəsinin artırılmasının mühüm şərtlərindən biri hesab olunur. Bir şərtlə ki, bu investisiyalar yeni iş yerlərinin yaradılmasına, xüsusilə qeyri-neft sekorunun inkişafına yönəldilsin.

Qeyd edək ki, 1995-ci ildən başlayaraq neftlə bağlı fəaliyyətin (neft müqavilələrinin bağlanması) genişlənməsinin nəticəsi olaraq ölkənin makroiqtisadi göstəricilərində dinamik artım müşahidə olunur. Xüsusilə ölkə iqtisadiyyatına cəlb olunan xarici investisiyaların həcmi daha sürətlə artır. Lakin qoyulan investisiyaların əksər hissəsinin (80%-ə qədəri) neft sektoruna yönəldilməsi əmək qabiliyyətli əhali arasında məhdud məşğulluq imkanları yaradır.

Məlumdur ki, son illərdə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların (xüsusilə xarici investisiyaların) həcmi artıb. 2002-2005-ci illərdə BTC neft və Bakı-Tbilisi–Ərzurum (BTƏ) qaz magistral boru kəmərinin çəkilişinə başlanması hesabına bu göstərici daha da artıb. DSK-nin məlumatlarına görə, 2002-ci ildə iqtisadiyyata cəlb olunmuş investisiyaların həcmi 2,79 mlrd. dollar olub. Bunun da 80,0%-ni (2,2 mlrd. dollar) xarici investisiyalar, 20,09%-ni (561,7 mln. dollar) daxili investisiyalar təşkil edib. 2003-cü ildə isə bu göstərici 42,5% artaraq, 3,98 mlrd. dollar (82,12%-ni xarici investisiyalar) olub. Qeyd edək ki, 2003-cü ildə BTC əsas ixrac neft boru kəməri layihəsi üzrə Azərbaycan Respublikası payının maliyyələşdirilməsinə ARDNF-dən 576 mlrd. manat vəsait ayrılıb. BTC neft boru kəmərinin tikintisində 2500-ə yaxın

[36] Xəzərin neft gəlirləri: qazanan kim olacaq bakı 2003 səh 117

işçi çalışıb. Hazırda tikinti başa çatdırılıb. BTC-nin fəaliyyətində 250 nəfə işçi çalışacaq.

Bu dövrdə ölkəyə cəlb olunan xarici investisiyaların (5832 mln. dolları) 63,9%-i neft sektoruna qoyulub. Statistik rəqəmlərin təhlili göstərir ki. yalnız 2002-ci ildə ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların 75,7%-i neft sektorunun payına düşüb. Belə ki, 2005-ildə bütün mənbələr üzrə iqtisadiyyata investisiya qoyuluşu 6,6 mlrd. ABŞ dolları olub. Qeyd edilən ildə ümumi investisiya qoyuluşunda xarici investisiyaların xüsusi çəkisi 66,7% təşkil edib. 2004-cü ildə isə bu göstərici 76,3% olub. 2004-cü ildə sənayeyə yönəldilən investisiyaların 92,8%-i neft və qaz sektoruna qoyulub. Bu sırada sənaye sahələrinə istiqamətləndirilən daxili investisiyaların 42,2%-i, xarici investisiyaların isə 99,3%-i neft və qaz sektoruna qoyulub. 2005-cü ildə də oxşar tendensiya davam edib, hətta bir qədər də artıb. 2005-ci ildə iqtisadiyyata yönəldilən xarici investisiyaların 91,7%-i neft sektoruna qoyulub. Bu dövrdə xarici investisiyaların həcmi əvvəlki illə müqayisədə 97,1% (2,9% azalıb) təşkil edib. Daxili investisiyaların həcmi isə 65,2% artıb. Göründüyü kimi neft senktoruna qoyulan invenstisiyaların həcminin azalmasına baxmayaraq onun xüsusi çəkisi hələ də yüksək olaraq qalır.

Deməli, qeyri-neft sektorunda «investisiya böhranı» hələ də davam edir. Əgər 1990-cı ildə Azərbaycan iqtisadiyyatına yönəldilən sərmayələrin 14 faizi və ya 700 milyon dolları kənd təsərrüfatının payına düşürdüsə, 2004-cü ildə bu göstərici 19 dəfə azalıb 0,7 faiz və ya 37 milyon dollar təşkil edib.

Təcrübə göstərir ki, müəssisə və təşkilatların ləğvi, yenidən təşkil olunması, yaxud onların mülkiyyətçisinin dəyişdirilməsi nəticəsində sərbəstləşmə ilə əlaqədar işdən azad olunanlar əmək bazarına mənfi təsir edirlər. 1999-2004-cü illər üzrə müəssisə və təşkilatlarda işçilərin işdən çıxma səbəblərinin təhlili sərbəstləşmə ilə əlaqədar işdən çıxan işçilərin sayının azaldığını göstərir.

Son illər məşğulluq sahəsində narahatlıq doğuran problemlərdən biri də əmək bazarında xarici işçi qüvvəsinin iştirakı ilə əlaqədardır. Bu sahədə müvafiq qanunvericilik bazasının yaradılmasına baxmayaraq, əməkçi miqrantların dəqiq qeydiyyat və uçotunun aparılmasına nail olunmayıb. «Əmək miqrasiyası haqqında» qanunun tələblərinə əsasən 2001-ci ilin mart ayından Azərbaycan Respublikasında haqqı ödənilən





əmək fəaliyyətini həyata keçirən əcnəbilər üçün fərdi icazələrin verilməsinə başlanıb. Ötən dövr ərzində 3000 nəfərdən çox əcnəbi üçün fərdi icazə alınıb, lakin bu, onların faktiki sayından azdır.

İşçi qüvvəsinə tələb və təklifin uyğunlaşdırılmasına mühüm təsir göstərən amillərdən biri də təhsil sistemidir. Bu nöqteyi-nəzərdən bazar iqtisadiyyatına keçid və sosial-iqtisadi sistemin idarə edilməsi və tənzimlənməsində baş verən dəyişiklikləri təhsil siyasətinin bilavasitə əmək bazarının tələblərinə uyğunlaşdırılmasının vacib olduğunu qeyd etmək olar. Bu isə öz növbəsində təhsilin bütün pillələrində əmək bazarının və ümumiyyətlə, iqtisadi strukturun inkişafında baş verən dəyişikliklərin əlaqəli surətdə təhlilini tələb edir. Məhz bu təhlil nəticəsində əldə olunan məlumatlar ali və orta-ixtisas təhsili müəssisələrində tələbə qəbulu səviyyəsinin müəyyənləşdirilməsində əsas rol oynamalıdır. Əmək bazarının tələbi ilə təhsil siyasətinin tam şəkildə əlaqəndirilməməsi işsizlər arasında ali təhsilli və orta-ixtisas təhsilli mütəxəssislərin sayının artmasına gətirib çıxarır ki, bu da dövlət büdcəsi tərəfindən maliyyələşdirilən təhsil xərclərinin effektivliyini aşağı salır. Bu sahədəki mövcud vəziyyətin təhlili gələcək fəaliyyət planının müəyyənləşməsində xüsusi rol oynaya bilər.

Qeyd edək ki, əmək bazarında yaranmış əlverişsiz vəziyyət işsizlər üçün işaxtarma müddətinin uzadılmasına təsir göstərir. Belə ki, işsiz statusu verilmiş işsizlərin işsizlik müddətinə görə bölgüsünün təhlili 2002 və 2005-cü illərdə işsizlərin 85 %-dən çoxunun bir ildən çox müddətdə işsizlər siyahısında olduğunu göstərir. Bir ildən çox müddətdə işsiz olan qadınlar arasında isə bu göstərici 86,4% olub.

Eyni zamanda, işçi qüvvəsinə olan tələbatın da dəyişməsini qeyd etmək lazımdır. Əgər 1995-ci ildə dövlət məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 1 boş iş yerinin tutulması üçün 3 işsiz düşürdüsə, 2004-cü ıldə bu nisbət 1-in 7-yə nisbətində olub. Əksər hallarda bu boş iş yerləri aşağı səviyyədə əmək haqqına malik olan sosial sektorun payına düşür. Bununla belə, sosial müdafiə sistemi ilə əhatə olunan (işsizlik statusu və müavinət alan, peşə təlimi keçən və s.) işsizlərin və işaxtaranların sayı bu illər ərzində çox az dəyişib.

Bu məqsəd üzrə nəzərə çarpan nöqsanlı cəhət kimi işçi qüvvəsinə tələb və təklifin uyğunlaşdırılmasının peşə təhsili sisteminin təkmilləşdirilməsi ilə əlaqələndirilməsidir. Qeyd etmək lazımdır ki, işçi qüvvəsinə olan tələb və təklifin uyğunlaşdırılması təkcə peşə hazırlığı ilə

əlaqəli deyil. Burada təhsilin digər növləri də mühüm əhəmiyyət kəsb edir. Çünki təhsil məşğulluq səviyyəsinin yüksəldilməsinə bilavasitə təsir göstərən amillərdən biridir. Belə ki, təhsilin keyfiyyəti və hazırlanan mütəxəssislərin əmək bazarının tələb və təkifləri ilə uzlaşmaması onların sonda işsizlik kimi ciddi problemlə qarşılaşmaq ehtimalını artırır. Bu baxımdan indiki şəraitdə respublikada əmək bazarının tələbinə müvafiq olaraq müasir tələblərə cavab verən texniki peşə, ali və orta ixtisas təhsili üzrə yeni siyasətin işlənməsi, təhsil proqramlarının təkmilləşdirilməsi və ixtisas təsnifatının yeniləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Əhalinin iqtisadi fəallığına dair keçirilən son müayinənin (BMT-nin İnkişaf Proqramı tərəfindən keçirilən müayinə) nəticələrinə görə, məşğul əhalinin yalnız 19,2%-ni ali ixtisas təhsilli, 50,8%-ni isə tam orta təhsilli əhali təbəqəsi təşkil edib. Şəhər yerlərində isə məşğul əhalinin 29,9%-nin ali ixtisas təhsilli olduğu müəyyən edilib. Ümumiyyətlə, əmək bazarının tələbi ilə təhsil siyasətinin uyğunlaşdırılması yeni iş yerlərinin açılması və onların ixtisaslı işçi qüvvəsi ilə təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda bu istiqamətdə uyğunsuzluğun olması işsiz vətəndaşların tərkibində ixtisaslı kadrların xüsusi çəkisinin kifayət qədər yüksək olması ilə nəticlənib. Bu isə öz növbəsində bazar iqtisadiyyatının tələbləri ilə təhsil siyasəti arasında xüsusi tənzimləmənin aparılmadığını göstərir.

Aparılan monitorinqin nəticələrindən belə qənaətə gəlmək olar ki, əmək bazarının tənzimlənməsində əməyin tələbi ilə təklifi arasındakı uyğunluğun təmin edilməsi məqsədi ilə təhsil sistemi məşğulluq siyasəti ilə əlaqələndirilmir. Eyni zamanda, ixtisaslı kadrların regionlar üzrə də qeyri-bərabər paylanması bu sahədəki problemlərin xüsusi tənzimlənməyə ehtiyacı olduğunu deməyə əsas verir. Belə bir şəraitdə bu sahədə mövcud olan çatışmazlıqların aradan qaldırılması zəruri məsələ kimi qarşıya qoyulmalıdır.

Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycanın beynəlxalq əmək bölgüsünə inteqrasiyası, dünya ölkələri arasında əməkdaşlıq meyllərinin güclənməsi, bazar iqtisadiyyatı şəraitində tələbin dinamik şəkildə inkişafı, yeni istehsal sahələrinin meydana gəlməsi, elm tutumlu sahələrin məhsullarına olan tələbatın artması əmək bazarında yüksək təhsil səviyyəsinə malik işçi qüvvəsinə olan tələbatı da artırır. Bu isə öz növbəsində yüksək tələblərə cavab verən bazar iqtisadiyyatının





prinsiplərinə uyğun çevik təhsil siyasətinin həyata keçirilməsini tələb edir. Bu səbəbə görə təhsil siyasəti əmək bazarının inkişaf meylləri ilə əlaqələndirilməlidir.

Bu məqsədlə büdcədən maliyyələşən təşkilatlarda çalışanların əmək haqqının artırılması və onun ödənilməsi sisteminin təkmilləşdirilməsi nəzərdə tutulub. Qeyd edək ki, proqram qəbul edilən dövrdən bu günə qədər büdcədən maliyyələşən bir sıra sahələrdə əmək haqları artırılıb. Belə ki, elm, təhsil, səhiyyə və s. sahələr üzrə əmək haqqı 50% artırılıb. 2004-cü ildə də əmək haqlarının artırılması ilə bağlı fərmanlar verilib. Xüsusilə dövlət qulluqçularının əmək haqları nəzərəçarpacaq dərəcədə artırılıb. Belə ki, yeni artımla Baş nazir 7,7 mln. manat, Milli Məclis Aparatının rəhbəri 6,2 mln. manat, Ali Məhkəmə Aparatının rəhbəri 6,1 mln. manat, Nazirlər Kabineti Aparatının rəhbəri 6,0 mln. manat, nazirlər, dövlət komitələrinin rəhbərləri, Milli Bankın İdarə Heyətinin sədri 6,0 mln.manat əməkhaqqı alır. Dövlət qulluqçuları arasında ən aşağı əməkhaqqı (1,0-1,1 mln.) məhkəmə məsləhətçilərinə verilir. Beləliklə, hələ ki, Azərbaycanda neft gəlirlərindən daha çox dövlət qulluğunda çalışan yüksək vəzifəli şəxslər yararlanıb. Nəticədə dövlət qulluqçularının əməkhaqları iqtisadiyyatda məşğul olanların orta aylıq nominal əmək haqqından bir neçə dəfə yüksək olub. Bu da cəmiyyətdə haqlı olaraq sosial ədalətsizlik kimi qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, sənayenin digər sektolrlarında orta aylıq əmək haqqı 250-600 min manat (neft hasilatı sənayesi istisna olmaqla) arasında dəyişir. Keçən dövr ərzində büdcə təşkilatlarında çalışanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün əmək haqlarının artırılması istiqamətində müəyyən addımlar atılıb. Belə ki, 2002 və 2003-cü illərdə bir çox büdcə təşkilatdarında əmək haqları 50-100% artırılıb. Məsələn, 2003-cü ildə büdcədən maliyyələşən təhsil, səhiyyə, elm, sosial təminat, idman, mədəniyyət, incəsənət, KİV, kənd təsərrüfatı, meşəçilik, balıqçılıq, melorasiya və su təsərrüfatı, ekologiya və hidrometorologiya sahəsində çalışan işçilərin Vahid Tarif Cədvəli (VTC) ilə müəyyən edilmiş aylıq vəzifə maaşları 50% artırılıb. Təbii ki, bu artımların həyata keçirilməsində neft gəlirlərinin də mühüm rolu olub. Lakin əvvəldə qeyd etdiyimiz kimi bu, yoxsulluq səviyyəsinin aşağı düşməsinə təsir göstərməyəcək. Bu fikri aşağıdakı kimi əsaslandırmaq olar:

Birincisi, qeyd olunan sahələrdə əmək haqqının artırılmasına baxmayaraq, onun səviyyəsi MİB-in dəyərindən aşağıdır.

İkincisi, ölkədə son illərdə inflyasiyanın sürətlənməsi nəticəsində tətbiq edilən artımların dəyəri aşağı düşüb. Digər tərəfdən də əmək haqqı və müavinətlərin artması ilə yanaşı rəsmi inflyasiya 2004-cü ildə 6,7%, 2005-ci ildə 9,6% olub. Mütəxəssislərin rəyinə görə isə inflyasiya rəsmi etiraf olunan göstəricidən yüksəkdir. Hazırda mütəxəssislər inflyasiyanın 10-15 faiz arasında, bəzən bundan da çox olduğunu qeyd edirlər. Beləliklə, əmək haqqı artımı ilə yanaşı inflyasiyanın da sürətli xarakter alması nəticəsində artımların yoxsulluğun azaldılmasına təsiri minimuma enir. İnflyasiyanın ən çox istifadə olunan ərzaq məhsullarında daha yüksək olduğunu və əhalinin gəlirlərinin daha çox hissəsinin ərzaq məhsullarına xərcləndiyini nəzərə alsaq, əmək-haqqı, pensiya və müavinətlərin alıcılıq qabiliyyətinin daha da aşağı düşdüyünü qeyd etmək olar.

İqtisadiyyatın bəzi sahələrində orta aylıq nominal əmək haqqının səviyyəsi nəinki MİB-in dəyərindən, hətta proqramda müəyyənləşdirilən yoxsulluq həddindən də aşağıdır. Bütün bunlar əmək haqlarının artırılmasının məşğulluğa təsirini azaldır.

ETM ilə əldə olunmuş materiallara diqqət etdikdə, istehlak xərclərinin 54,7%-nin yalnız ərzaq məhsullarına çəkildiyini görmək olar. «İnkişaf səviyyəsinə görə bir-birindən fərqlənən bir sıra ölkələr üzrə müvafiq göstəricilərin təhlili göstərir ki, əhalinin pul gəlirlərinin tərkibində əmək gəlirlərinin xüsusi çəkisinin 50%-dən az olması həmin ölkədə məşğulluq səviyyəsinin xeyli aşağı olduğunu, pul xərclərinin tərkibində ərrzaq məhsullarının alınmasına çəkilən xərclərin 50%-dən çox olması isə həmin ölkədə əhalinin xeyli hissəsinin yoxsulluq səviyyəsində yaşadığını əks etdirir».[37] Bundan başqa 2004-cü ildə proqram üzrə nəzərdə tutulan yeni VTC təsdiq olunub. Belə ki, Nazirlər Kabineti «Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin VTC ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında» qərar verib. Bu tədbir «Minimum aylıq əmək haqqının artırılması haqqında» prezident fərmanının icrası istiqamətində həyata keçirilir. VTC üzrə maaşların minimum məbləği 100 min manat, maksimum dərəcə (19-cu dərəcə) isə 250, 310, 350 min manat arasında müəyyənləşdirilib. Bu tədbir büdcə

[37] C.B.Quliyev Əhalinin həyat səviyyəsi ilə məşğulluğun qarşılıqlı əlaqəsi Müasir mərhələdə Azərbaycanda demoqrafik inkişafın, məşğulluq və işsizliyin sosial iqtisadi problemləri elmi-praktik konfransın materialları Bakı 2003 səh.49





təşkilatlarında çalışanların əmək haqqında cüzi də olsa artıma təsir göstərməli idi. Lakin əldə olunan son məlumatlarda yeni VTC-nin əmək haqlarının səviyyəsinə təsir göstərmədiyi məlum olub.

Bundan başqa, ticarət dövriyyəsinin 60%-dən çox bir hissəsinin ərzaq məhsulları təşkil etməsi onu göstərir ki, əhali hələ də əldə etdiyi gəlirlərin çox hissəsini ərzaq məhsullarına xərcləyir.

İşsizlərin sosial müdafiəsinə və kütləvi işsizliyin aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi işsizliyin aradan qaldılırmasında mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq normalara görə hər bir ölkədə işsizlik səviyyəsinin 5-7% arasında olması təbii hal kimi qiymətləndirilir. Hazırda rəsmi qeydiyyata alınan işsizlik səviyyəsi, yəni dövlət məşğulluq xidməti orqanlarında işsiz statusu alanların iqtisadi fəal əhalinin sayına nisbəti 1,4% təşkil edir. Bu da dünya üzrə qəbul edilmiş normadan aşağıdır.

1990-2005-ci illərdə Azərbaycanda məşğulluq səviyyəsinin dəyişməsi tempi ÜDM- in həcminin və onun strukturuna daxil olan sahələrdə (sənaye, tikinti, nəqliyyat və rabitə, kənd təsərrüfatı və s.) baş verən dəyişikliklərin dinamikasına uyğun olmayıb. Belə ki, 90-cı illərin əvvəllərində müəssisələr işçiləri ödənişsiz məzuniyyətə buraxmaqla, real əməkhaqqını və iş vaxtı müddətini azaltmaq hesabına, ixtisarların qarşısını alıb və beləliklə, «gizli» işsizliyin yaranmasına şərait yaradıb. Nəticədə istehsal səviyyəsindən asılı olmayaraq məşğulluq yüksək səviyyədə qalıb ki, bu da Azərbaycanda rəsmi işsizliyin aşağı səviyyədə olmasına təsir edən amillərdən biri olub.

Lakin YAİİDP-nin illik hesabatında iqtisadi fəal əhali arasında işi və ya gəlirli məşğuliyyəti olmayan, fəal sürətdə iş axtaran və işə başlamağa hazır olan, yəni BƏT-ın metodologiyasına müvafiq surətdə işsiz kimi təsnif edilən şəxslərin payının 10,7 % olduğu göstərilir. Bu da ümumən ölkə üzrə 404,7 min nəfər işsiz deməkdir. İşsizlərin ümumi sayında 35 yaşınadək gənclərin payı 69,1% olub. İşsizliyin ən yüksək səviyyəsi 20-24 yaşlarında gənclər arasında (23,8 %) təşkil edib. Qeyd olunanlar gənclərin əmək bazarında fəal iştirakının və əhalinin bu kontingentinin müvafiq iş yerləri ilə təmin edilməsi sahəsində görülən işlərin qənaətbəxş olmadığını göstərir.

Məşğulluq sisteminin ardıcıl inkişafı birbaşa kadrların peşə hazırlığı və yenidən hazırlığı sisteminin təkmilləşdirilməsindən asılıdır. 1995-2003-cü illər ərzində məşğulluq xidməti orqanları 15,4 min nəfəri peşə

hazırlığı və yenidən hazırlıq kurslarına cəlb edib. Son iki il ərzində məşğulluq xidməti orqanları bu sahədə aparılan işləri aktivləşdirib və 2003-cü ildə 2206 nəfər işaxtaran vətəndaşı peşə təlimi kurslarına cəlb edib.

Cədvəl 2

**Məşğulluq xidmətinin fəaliyyətinin əsas göstəriciləri (nəfər)**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İşə düzəldilib | 13156 | 12173 | 16703 | 23658 | 18754 | 19095 | 19070 | 17865 | 18272 |
| İşsiz statusu verilib | 5967 | 4601 | 7153 | 5360 | 4800 | 4847 | 7716 | 7655 | 5736 |
| İşsizlik müavinəti verilib (təkrar müavinət nəzərə alınmaqla) | 7814 | 6550 | 8919 | 6602 | 5679 | 5870 | 9339 | 8602 | 7178 |
| Peşə təliminə göndərilib | 2223 | 2280 | 1195 | 1275 | 991 | 1394 | 1507 | 2321 | 2206 |
| Haqqı ödənilən ictimai işlərə cəlb olunub | 1711 | 2427 | 3477 | 4063 | 3064 | 3077 | 2975 | 3310 | 2138 |
| Məşğulluq xidməti orqanlarında rəsmi qeydiyyatda olan işsizlərin sayı (artan hesabla, ilin sonuna) | 28314 | 31935 | 38306 | 42329 | 45211 | 43739 | 48446 | 50963 | 54365 |
| Boş iş yerlərinin tutulması üçün işçi qüvvəsinə olan tələbat (ilin sonuna) | 9083 | 9459 | 10078 | 8034 | 6556 | 5197 | 4748 | 5660 | 7510 |

Mənbə: Dövlət Statistika Komitəsinin materialları





«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)» icrası ilə əlaqədar olaraq işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2004-cü il tarixli qərarı ilə işsizlik müavinətinin və məşğulluq xidməti orqanları tərəfindən təşkil edilmiş peşə hazırlığı, yenidən hazırlıq və ixtisasartırma kurslarına cəlb edilmiş işaxtaran və işsizlərə verilən təqaüdlərin minimum məbləğləri artırılaraq, 100 min manata çatdırılıb.

Azərbaycan Respublikası Nazirlər Kabineti hər il «İşaxtaran və işsiz vətəndaşların sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üzrə Dövlət Proqramı»nı təsdiq edir. 2003-cü ildə işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə 10,5 milyard manat vəsait xərcləndiyi bildirilir. 2004-cü ildə isə 15,4 milyard manat vəsait xərclənib.

Bundan başqa, yuxarda sadalanan faktlar ölkədə əmək bazarı və məşğulluq sahəsində siyasətin ya düzgün müəyyənləşdirilmədiyini, yaxud da qarşıya qoyulan məqsədlərin həyata keçirilmə mexanizminin olmadığını göstərir.

Aparılan tədqiqatın nəticələri Azərbaycanda əmək münasibətlərinin tənzimlənməsi sahəsində ciddi problemlərin olduğunu göstərir. KİV-də verilən məlumatlara görə, işəgötürənlə işçi arasındakı münasibətlərin və işçilərin hüquqlarının tez-tez pozulması problemi mövcuddur. Nazirlər Kabineti tərəfindən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2001-2003-cü illər üçün Baş Kollektiv Saziş 2003-cü ildə də qüvvədə olub. 2004-cü ildə isə yeni Baş Kollektiv Saziş imzalanıb. Lakin bütün bunlara baxmayaraq, işçilərin iş saatından artıq işləməsi, haqsız olaraq işdən çıxarılması, bir çox yüksək əməkhaqqı verilən dövlət strukturlarında regionçuluq faktoruna üstünlük verilməsi və s. kimi problemlər hələ də qalmaqdadır. Bu da Baş Sazişin bağlanmasına baxmayaraq, onun işləmə mexanizminin olmadığını göstərir.

Qeyd edək ki, bu məqsədə uyğun olaraq, 2003-cü ilin əvvəlindən Beynəlxalq Əmək Təşkilatı və BMT-nin İnkişaf Proqramının texniki yardım dəstəyilə DSK tərəfindən «İşçi qüvvəsinə dair sorğu» layihəsinin həyata keçirilməsinə başlanıb. Bu sorğunu DSK-nin aparması isə reallığı əks etdirən rəqəmlərin əldə olunmasına inamı

azaldır. Məlumdur ki, DSK-nın məlumatları iqtisadiyyatın bir çox sahələrindəki real vəziyyəti əks etdirmir və bu təşkilat şişirdilmiş rəqəmlərə üstünlük verir.

Qeyd edildiyi kimi, istehsal prosesində istifadə olunan faktorların payı istehsal sahəsindən, müəssisənin yerləşdiyi ərazidən, istehsal edilən məhsulun növündən, vergi dərəcəsindən və istehsalçının (sahibkarın, menecerin və s.) qəbul etdiyi qərarlardan və s. kimi amillərdən asılı olaraq dəyişir. Bu baxımdan iqtisadiyyatın müxtəlif sektorlarında istehsal olunan məhsullarda istehsal faktorlarının payı da fərqli olur. Hətta eyni növ məhsul istehsalı ilə məşğul olan ayrı- ayrı müəssisələrdə də istehsal faktorlarının məhsulun maya dəyərindəki payı eyni olmur. Buna müəssisənin yerləşdiyi ərazi, işçilərə verilən əmək-haqqı, işçilərin sayı, istifadə olunan texnologiyalar, idarəetmə metodu, sahibkarın bilik və təşkilatçılıq qabiliyyəti və s. təsir göstərir.

Bu il də həmin istiqamətdə ciddi dəyişikliklər gözlənilmir. Kiçik hissələrə bölünmüş torpaq sahələrində çalışanlar ölkəni yerli məhsullarla təmin edə bilməyəcəklər. Belə olan halda əmək qabiliyyətli kəndlilərin ailəsini dolandırmaq üçün iri şəhərlərə (əsasən Bakıya) və xaricə axını güclənəcək. Son illərdə bu artıq müşahidə olunur. Ona görə də, rəqabət qabiliyyətli və səmərəli fəaliyyət göstərən kənd təsərrüfatının, perspektivli sənaye və xidmət sahələrinin inkişafı üçün əlverişli şəraitin yardılması hökümətin birinci dərəcəli vəzifəsinə çevrilməlidir.

Məşğulluq strategiyasının əsas məqsədlərindən biri də dövlət tərəfindən həyata keçirilən makroiqtisadi siyasətin, yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərinin aradan qaldırılması və məşğulluq səviyyəsinin artırılmasını stimullaşdıran şəraitin yaradılmasından ibarətdir.

Bu məqsədə çatmaq üçün əsasən nəzərdə tutulur:

- peşə hazırlığı sisteminin yenidən qurulması;
- qadınlar arasında işsizliyin azaldılması;
- regionlarda çalışan işçilərin əmək haqlarının yüksəldici əmsallarının müəyyən edilməsi;

Bu istiqamətdə bir sıra tədbirlər də həyata keçirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasının əsas şərti olan tam məhsuldar məşğulluğun təmin olunması səviyyəsi, özünü hər şeydən əvvəl əmək





bazarında işçi quvvəsinə tələb və təklif arasında yaranmış nisbətdə göstərir. Qeyd edək ki, Azərbaycanda bu sahədəki vəziyyət qənaətbəxş deyil. Lakin dövlət məşğulluq xidməti orqanları əmək bazarında mövcud vəziyyəti nəzərə almaqla işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin təmin edilməsi istiqamətində müəyyən işlər görüb, ödənilən ictimai işlərdə iştirak edib.

Hesab edirik ki, əgər neftdən gələn və digər maliyyə vəsaitləri dünya və regional bazarlarda baş verən dəyişiklikləri nəzərə almadan köhnə istehsal sahələrinin və oradakı iş yerlərinin əvvəlki səviyyədə bərpasına yönəldiləcəksə, beynəlxalq rəqabət və iqtisadi səmərəlilik amilləri bu cür düşünülməmiş siyasətə ciddi düzəlişlər verəcək ki, bu da əlavə vaxt, küllı miqdarda maliyyə resursu, texnika və iş yeri itkisinə gətirib çıxaracaq.

# VI FƏSİL

# QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASINDA NEFT GƏLİRLƏRİNDƏN İSTİFADƏ

## 1. Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasında ARDNF-in rolu

Nəzərə almaq lazımdır ki, neft, qaz və bu kimi təbii ehtiyatların sürətli istismarına əsaslanan yüksək iqtisadi artım yoxsulluğun azalmasına yalnız daxil olan vəsaitlərdən səmərəli istifadə olunduqda müsbət təsir göstərir. Bu vəsaitlərdən səmərəsiz istifadə olunduqda isə, ölkədə makroiqtisadi idarəçilik çətinləşir, milli valyutanın real mübadilə məzənnəsi yüksəlir, inflyasiya sürətlənir, iqtisadiyyat birtərəfli inkişaf edir. Nəticədə nəinki yoxsulluq azalır, əksinə o daha da dərinləşir, sosial təbəqələşmə və sosial gərginlik artır.

Məlum olduğu kimi, 1988-ci ildən başlayaraq Ermənistan tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırım və işğalçılıq siyasəti nəticəsində Ermənistandan, həmçinin Azərbaycanın Qarabağ və onun ətraf bölgələrindən 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün düşüb. Artıq 10-15 ildir ki, onlar oz doğma yurd–yuvalarından uzaq düşərək qaçqın şəhərciklərində, yataqxanalarda, vaqonlarda yaşayırlar. Münaqişənin həllinin uzanması isə bu insanların uzun müddət acınacaqlı şəraitdə yaşamasına səbəb olub.

Qeyd edək ki, 2001-ci ildə respublika əhalisinin təqribən 10%-ni təşkil edən qaçqın və məcburi köçkünlər arasında (YAİİDP-yə əsasən) yoxsulluq səviyyəsi 63% olub.

Qarabağ münaqişəsinin uzanması artıq bu insanların yaşayış şəraitinin tezliklə yaxşılaşdırılmasını qarşıya vəzifə kimi qoyur. 1994-cü ildə bağlanan neft müqavilələrinin nəticəsi olaraq ölkəyə daxil olan neft gəlirləri dövlətin maliyyə imkanlarını nisbətən yaxşılaşdırıb. Elə bu imkanlar hesabına 2001-ci ildən başlayaraq, bu günə qədər ARDNF-in vəsaitlərindən qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilən aşağıdakı fərman və sərəncamlara uyğun olaraq xeyli vəsait ayrılıb.





1. Qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üzrə tədbirlərin maliyyələşdirilməsi:

- «Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında» 22 avqust 2001-ci il tarixli 562 nömrəli Fərman;
- «Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında» 07 sentyabr 2001-ci il tarixli 577 nömrəli Fərman;
- «Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında» 13 may 2002 tarixli 700 nömrəli Fərman;
- «Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində didərgin düşmüş, Bərdə və Ağcabədi rayonları ərazisində çadır düşərgələrində, eləcə də Bərdə rayonu ərazisində dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti yerləşdirilmiş Ağdam və digər rayonlardan olan məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri haqqında» 04 fevral 2004-cü il tarixli 80 nömrəli Sərəncam;
- «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında» 01 iyul 2004-cü il tarixli 298 nömrəli Sərəncam.

Bu Fərman və Sərəncamlara uyğun olaraq, 1 yanvar 2006-ci il tarixinədək Neft Fondundan 700 milyard manata yaxın vəsait qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması məqsədləri üçün yönəldilib. Bunun nəticəsi olaraq, 2003-cü ildə qaçqın və məcburi köçkünlər arasında

yoxsulluq səviyyəsi 50,3%-ə[38] düşüb. Sözsüz ki, bu göstəricini də real hesab etmək olmaz.

2006-cü ildə isə qaçqın və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsinə 110,3 mln. AZN məbləğində vəsait xərclənməsi nəzərdə tutulub.




**Diaqram 1. ARDNF-in 2001-2005-ci illərdə xərclərinin quruluşu (%-lə)**

Məlumdur ki, Neft Fondunun vəsaitləri hesabına qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onlara aylıq pul yardımları da göstərilir. Bu yardım hər nəfərə 45000 manat təşkil edir ki, həmin məbləğin də 15000 manatı qaçqın və məcburi köçkünlərin kommunal vergi rüsumlarını ödəmək məqsədilə dövlət büdcəsinə ödənilir. Beləliklə onlara Neft Fondu hesabına hər nəfərə 30000 manat məbləğində pul yardımı verilir. Bundan başqa. onlara ARDNŞ hesabına müxtəlif ərzaq yardımları (un, şəkər tozu, düyü, yağ) da göstərilib.

Qeyd edək ki, 2003-cü ildə qəbul edilən YAİİDP-də Ermənistanın təcavüzü nəticəsində öz doğma yurdlarından zorla qovulmuş qaçqın ailələrinin mənzillə təmin olunmasına, çadır

[38] YAİİDP-nin icra hesabatı 2003-2004, Bakı 2005 səh. 52





düşərgələrində, yük vaqonlarında məskunlaşmış 5.019 məcburi köçkün ailəsinin (22.841nəfər) köçürülməsi məqsədilə yeni qəsəbələrin tikilməsinə, məcburi köçkün uşaqlarının təhsillə təmin olunmasına, yeni salınacaq qəsəbələrdə 15 məktəbin tikilməsinə, onların səhiyyə xidmətləri təminatının yaxşılaşdırılmasına vəsait ayrılıb.

Keçən dövr ərzində Mehdiabad qəsəbəsində 50 ailəlik qəsəbənin, Yevlax rayonunda 65 evlik qəsəbənin, İsmayıllı rayonunda 51 yaşayış evinin tikintisinə başlanıb və onların tikintisi 2004-cü ildə yekunlaşdırılıb. 1995-ci ildən yarımçıq qalan 320 evin tikintisi də başa çatdırılıb. Görülən işlər nəticəsində 826 qaçqın ailəsi mənzillə təmin olunub.

Çadır düşərgələrində, yük vaqonlarında məskunlaşan 5081 məcburi köçkün ailəsinin (22841 nəfər) köçürülməsi məqsədilə 27 (Ağdamda 4, Füzulidə 10, Biləsuvarda 13) yeni qəsəbə salınıb və bu qəsəbələrdə müvafiq infrastruktur yaradılıb. Müharibə zamanı zərər dəymiş 1000 evin isə bərpası nəzərdə tutulub. Artıq Gədəbəy rayonunda 17 evin bərpa işləri başa çatdırılıb.

Məcburi köçkünlərin məşğulluq probleminin həlli istiqamətində yeni qəsəbələrə köçürülmüş 5081 ailəyə əkinçilik üçün torpaq sahələrinin ayrılmasına (1 ha.) və əvəzsiz maliyyə yardımının (1 mln. manat) verilməsinə başlanıb və bu məqsədlə 2003-cü ildə 4.909 milyon manat (5 minə yaxın ailəni əhatə etməklə) vəsait xərclənib. Əlavə olaraq məcburi köçkünlər tərəfindən yaradılmış təsərrüfatlara güzəştli kreditlərin verilməsi məqsədilə Dünya Bankının ayırdığı kreditlər hesabına 593 ailəyə hüquqi şəxs qismində, 4920 nəfərə isə, fiziki şəxs qismində mikrokredit verildiyi bildirilir.

Keçən dövr ərzində 986 qaçqın ailəsinin Neft Fondundan ayrılan vəsait hesabına mənzillə təmin edildiyi qeyd olunur. Eləcə də qaçqınlar üçün nəzərdə tutulan 1995-ci ildən yarımçıq qalmış 320 evin tikintisinin başa çatdırılması, Gedəbəy rayonunda 42, Goranboy rayonu Aşağı-Ağca kəndində 364 müharibədən zərər dəymiş evin bərpa olunması, dəmiryolu yük vaqonlarında məskunlaşmış 5081 məcburi köçkün ailəsinin (22841 nəfər) köçürülməsi məqsədilə 27 yeni qəsəbənin (onlardan 4-ü Ağdamda, 10-u Füzulidə və 13-ü Biləsuvarda salınıb) salınması, müvafiq infrastrukturun yaradılması və məcburi köçkünlərin

bu qəsəbələrə köçürülməsinin başa çatdırılması barədə məlumat verilir.[39]

Ötən dövr ərzində Bakı, Sumqayıt və Cəncə şəhərlərində 2960 MK ailəsinin müvəqqəti olaraq sıx məskunlaşdığı 37 obyektin təmirinin həyata keçirildiyi, bundan əlavə Bakı, Sumqayıt, Mingəçevir şəhərlərində, Qazax və Qəbələ rayonlarında məcburi köçkünlərin müvəqqəti olaraq məskunlaşdığı 36 yataqxana ictimai binanın reabilitasiyası məqsədilə **Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu** tərəfindən 36 mikrolayihə həyata keçirildiyi qeyd olunur.[40] Yeni tikilmiş evlərdə yaşayan məcburi köçkünlərin sayı 2003-cü ildə 10511-dən 2004-cü ildə 67779-dək artıb.

Bundan başqa, məcburi köçkünlərin ərzaq təminatını yaxşılaşdırmaq məqsədilə beynəlxalq humanitar təşkilatlar tərəfindən verilən ərzaq yardımlarının dayandırıldığını nəzərə alaraq, həmin yardımlardan məhrum olan 214258 nəfər məcburi köçkünün aylıq zəruri ərzaq məhsulu ilə təmin olunması da nəzərdə tutulub. Bu məqsədlə ARDNF-dən 18,116 min ABŞ dolları məbləğində vəsait ayrılıb.

Ümumilikdə, hazırda Bərdə rayonu ərazisində 12499 ailənin 45933 nəfər üzvü məktəb binalarında, dəmiryolu vaqonlarında, uşaq bağçalarında, idarə və müəssisələrdə, yol kənarlarında və çadır şəhərciklərində yaşayırlar. Onlardan 2417 ailənin 8897 nəfəri hazırda çadır şəhərciyində məskunlaşıb.

Yevlax rayonu ərazisində hazırda 2009 ailənin təmsil olunduğu 11557 nəfər qaçqın və məcburi köçkün yaşayır. Onlardan 264 ailənin 985 nəfəri qaçqın, 1745 ailənin isə 10572 nəfəri məcburi köçkündür. Bunlardan yalnız 65 ailənin 382 nəfər üzvü olan qaçqın 2005-ci ildə Yevlax ərazisində tikilən qəsəbəyə köçürülüb. Qalan 1944 ailədə 11175 nəfər qaçqın və məcburi köçkün hələ də məktəblərdə, idarə və müəssisələrdə, yol kənarlarında yaşayırlar.

Sadaladığımız tikinti işlərinin həyata keçirilməsi sözsüz ki, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması baxımından vacibdir.

Reallıqdır ki, Azərbaycan şəraitində təmir-tikinti işlərində vəsaitlərin mənimsənilməsi ən geniş yayılmış mənimsəmə formasıdır. Burada bir

[39] YAİİDP-nin icra hesabatı 2003/2004 Bakı 2005 səh. 119

[40] YAİİDP-nin icra hesabatı 2003/2004 Bakı 2005 səh. 119





neçə sual ortaya çıxır. Görəsən, bu vəsaitlər təyinatı üzrə tələb olunan səviyyədə istifadə olunubmu, mənimsəmə halları varmı? Görülən işlərin keyfiyyəti hansı səviyyədədir? Bu suallara cavab tapmaq üçün ANSİRM-in regional bölmələri monitorinq keçirib. Monitorinq Ağdam, Bərdə və Yevlaxda qaçqın və məcburi köçkünlərin məşkunlaşdırıldığı 8 yeni qəsəbədə, 1 vaqon şəhərciyi və 3 düşərgədə, eləcə də yol kənarındakı evlərdə aparılıb. Monitorinq dövründə 1000 nəfər qaçqın və məcburi köçkünlə (vaqon şəhərciyində, düşərgə və yol kənarlarındakı evlərdə, eləcə də qaçqın və məcburi köçkünlərin Bərdə və Yevlaxda yerləşdirildiyi digər inzibati binalarda yaşayan qaçqın və məcburi köçkünlər) ünsiyyət saxlanılıb, 70 nəfərdən müsahibə götürülüb, 50 ədəddən artıq fotoşəkil çəkilib və 2 saatlıq videoçəkiliş aparılıb.

Bundan başqa, Gəncə şəhərində yataqxanalarda qocalar evində və s. yerlərdə yaşayan qaçqın və məcburi köçkünlər arasında monitorinq aparılıb.

- Monitorinq dövründə ünsiyyət saxlanan şəxslərin sayı 600 nəfər olub.

o cümlədən

- Kişilər 250 nəfər, qadınlar 350 nəfər
- Müsahibə aparılmış şəxslərin sayı 286 nəfər
- Sorğuya çəlb olunmuş şəxslərin sayı 10 nəfər
- Çəkilmiş şəkillərin sayı 48

Gəncə bölməsinin apardığı monitorinq nəticəsində məlum olub ki:

**Müvəffəqiyyətlər**

**Sosial vəziyyətin yaxşılaşdırılması**

- Məcburi köçkünlərə aylıq pul yardımları göstərilir. Bu yardım hər 1 nəfərə 45000 manat təşkil edir ki, həmin məbləğin də 15000 manatı məcburi köçkünlərin kommunal vergi rüsumlarını ödəmək məqsədilə əlaqədar təşkilatlara ödənilir. Beləliklə hər 1 nəfər MK-nə 30000 manat məbləğində pul yardımı verilir.
- ARDNŞ hesabına müxtəlif ərzaq yardımları (un, şəkər tozu, düyü, yağ) verilir.

**Yaşayış şəraiti ilə təmin olunma**

- Murovdağ qəsəbəsində məcburi köçkünlər üçün 164 mənzildən ibarət şəhərcik salınıb və məcburi köçkün ailələri burada yerləşdirilib.

**Səhiyyə xidmətlərindən istifadənin yaxşılaşdırılması.**

- Murovdağ qəsəbəsində məcburi köçkünlər üçün salınmış şəhərcikdə tibb məntəqəsi tikilib, istifadəyə verilib.

**Təhsil almaq imkanlarının yaxşılaşdırılması**

- Murovdağ qəsəbəsində məcburi köçkünlər üçün salınmış şəhərcikdə köçkünlər üçün məktəb inşa edilib istifadəyə verilib.

**Çatışmazlıqlar**

**Yaşayış şəraiti ilə təmin olunma istiqamətində olan nöqsanlar**
**5 Kommunikasiya sistemində olan nöqsanlar** - su, qaz, telefon, kanalizasiya sistemində ciddi nöqsanlar var.

- Qocalar Evində mənzillərdə su yoxdur. Məcburi köçkünlər onlara lazım olan suyu yaşadıqları yerdən 200 metr məsafədən əllə daşıyırlar.

- Mənzillərdə kanalizasiya boruları işləmir. Kanalizasiya sisteminin işləməməsi, çirkab sularının və tullantıların yaşayış binalarının həyətinə axıdılması ciddi antisanitariya yaradır.

- AzTU-nun 1 və 2 saylı yataqxanalarında təbii qaz ümumiyyətlə yoxdur.
- 46 saylı internat məktəbinin yataqxanasında su, təbii qaz və telefon rabitəsi problemi var.

- monitorinq prosesində məlum oldu ki, məcburi köçkünlər məskunlaşmış məntəqələrin əksəriyyətində yaşamaq üçün yaradılan şərait olduqca acınacaqlıdır və onların şəraitləri olduqca aşağı səviyyədədir.





- Qərərgah və Qocalar evində məskunlaşmış məcburi köçkünlərin də mənzil şəraitləri çox pisdir. Evlərin vəziyyəti normal insanın yaşaması üçün lazım olan normativlərdən olduqca aşağı səviyyədədir. Divarlar su keçirir, mənzillərin əksəriyyətinin tavanı damır.
- AzTU-nun 1 və 2 №-li yataqxanalarda məskunlaşmış məcburi köçkünlərin mənzil şəraiti olduqca acınacaqlıdır. Çünki yataqxanalar olduqca bərbad vəziyyətdədir. Onların bu şəraitlərinin düzəldilməsi və onların özlərinin dediyi kimi, «insan kimi yaşamaları üçün» müxtəlif əlaqədar orqanlara məlumat vermələrinə baxmayaraq, vəziyyət hələ də olduğu kimi qalır.
- 46 saylı internat məktəbinin yataqxanasında məcburi köçkünlərin məskunlaşdığı ikimərtəbəli binaların dam örtüyü bərbad halda olduğundan ikinci mərtəbədə yaşayan sakinlərin mənzilləri damır və bu mənzillər yaşayış üçün yararsız hala düşmüşdür.
- Xanlar rayonunun Murovdağ qəsəbəsində məcburi köçkünlər üçün salınmış şəhərcikdə isə mənzillər demək olar ki, pulla paylanıb və sakinlərin əksəriyyəti ev üçün təxminən 150 – 500 ABŞ dolları məbləğində rüşvət veriblər.

Murovdağ qəsəbəsində hazırda 164 mənzil var. Mənzillər 1 və 2 otaqlıdır. Bundan əlavə onlara evlərin yanında 3 sot həyətyanı sahə də verilib. Maraqlısı budur ki, bu 164 mənzildə 350-dən çox ailə məskunlaşıb. Elə bu səbəbdən də məcburi köçkünlərin bəziləri öz hesablarına mənzillər tikirlər. Onların sayı hələlik yeddidir. Amma onların sayının artma ehtimalı böyükdür. Çünki 1 və 2 otaqlı bu mənzillərin eləsi var ki, orada 3-4 ailə yaşayır. Bu halda 2-3 ailəyə 1 otaqlı ev düşür. Məcburiyyət qarşısında qalan məcburi köçkünlər yeni mənzil əldə etməyi düşünürlər.

Yevlax bölməsinin apardığı montiorinqin nəticələri

*Ağdam və Yevlax* rayonunda salınmış qaçqın və məcburi köçkünlərin artıq köçürüldüyü 8 şəhərcikdə (1 şəhərcik qaçqınlar, 7 şəhərcik məcburi köçkünlər üçün) aparılmış monitorinqin nəticələri təhlil edilərək ümumiləşdirilib. Əldə edilən məlumatlar bu vəsaitlərin istifadəsinin və görülən işlərin keyfiyyətinin qənaətbəxş səviyyədə olmadığını göstərir.

**Müvəffəqiyyətlər**:

**Qaçqın və məcburi köçkünlərin normal yaşayış şəraiti ilə təmin olunması:**

- Qaçqın və məcburi köçkünlərin normal yaşayış şəraiti ilə təmin olunmasından ötrü 8 qəsəbə salınaraq artıq əhali köçürülüb;
- Sonradan tikilən qəsəbələrdə evlərin mətbəxi də var;
- Hər bir evin 12 sot torpaq sahəsi var;
- İki böyük qəsəbə salınıb, hazırda köçürülmə üçün hazır vəziyyətə gətirilir;
- 2001-2005-ci illərdə 1452 ailə yeni tikilmiş 8 qəsəbəyə köçürülüb (onlardan 244 ailə öz hesabına mənzil şəraitini yaxşılaşdırıb);

**Qaçın və məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması:**

- Qəsəbələrə elektrik xətləri çəkilib;
- Uşaq bağçaları tikilib;
- Qəsəbələr üçün ümumi hamam tikilib;
- Artezianlar qazılıb və içməli su xətləri çəkilib;
- Qəsəbələrin bir qismində şadlıq-mədəniyyət evləri tikilib;
- Qəsəbələrə qismən yol çəkilib

**Qaçın və məcburi köçkünlərin məşğulluq problemlərinin həll edilməsi:**

- 4 qəsəbədə məcburi köçkünlərə torpaq sahəsi verilib;
- 4 qəsəbədə məcburi köçkünlərə torpaq sahələrinin əkilməsi üçün birdəfəlik yardım verilib;
- Qəsəbələrdəki çox cüzi olan iş yerlərinin əksəriyyətində qəsəbə sakinləri çalışır;

**Qaçın və məcburi köçkünlərin sağlamlıq hüquqlarının təmin olunması:**

- Hər bir qəsəbədə tibb məntəqəsi üçün bina tikilib;
- Tibb məntəqələrinin avadanlıqlarla təmin olunmasına təşəbbüslər göstərilib;
- Əsasən qəsəbə sakinlərindən ibarət tibbi personalla təminat qismən ödənilib.





**Qaçqın və məcburi köçkünlərin təhsil almaq hüquqlarının təmin olunması:**

- Qəsəbələrdən 7-də məktəb binası tikilib;
- 3 məktəb üçün idman zalı tikilib;
- Məktəblərdə müəllim çatışmazlığı yoxdur;
- Məktəblər əksər avadanlıqlarla təmin olunub;
- 1 məktəbdə kompüter otağı, emalatxana və akt zalı var;

**Çatışmazlıqlar**:

**Qaçın və məcburi köçkünlərin normal yaşayış şəraiti ilə təmin olunması:**

- ümumilikdə evləri normal yaşayış səviyyəsi üçün qənaətbəxş hesab etmək olmaz;
- qəsəbələr üzrə hər bir otağa orta hesabla 2 və daha artıq adam düşür ki, bu da əhalinin çox sıx yerləşdirildiyini deməyə əsas verir;
- sıxlıq müxtəlif cinslərdən olan ailə üzvlərini bir otaqda yaşamağa məcbur edir, bir çox hallarda bir mənzildə bir neçə ailə (2-3 ailə) yaşayır;
- evlərin içindəki arakəsmələr keyfiyyətsiz hörülüb;
- suvaq keyfiyyətsiz vurulub və sement lazımi həcmdə istifadə olunmadığından tez bir zamanda tökülməyə başlayıb;
- evlərin qapıları keyfiyyətsiz və kifayət qədər quru olmayan taxtadan qoyulduğundan şişib və bağlanmır, bəzi evlərdə qapıların yerindən qopma halları var;
- qapılara qoyulmuş kilidlər ən ucuz və çox keyfiyyətsiz olduğundan tez bir zamanda sıradan çıxır;
- pəncərələr quraşdırılarkən lazımi qaydalara əməl edilmədiyindən əksəriyyəti alt hissədən su buraxır;
- əksər evlərdə divarlar nəm çəkir, kiflənir;
- bir çox evlərdə divarların böyük çatvermə halları var;
- evlərdə hamam tikilməyib;
- əvvəl tikilən 4 qəsəbədə evlərin mətbəxi yoxdur;
- mətbəxi olan evlərdə mətbəxə su çəkilməyib;
- ümumiyyətlə ən yaxşı halda su evlərdən 12 metr aralı məsafəyə çəkilib;

- döşəmənin rəngi keyfiyyətsiz vurulduğundan bir neçə ay sonra qopmağa başlayıb;
- evlərin tavanı çox aşağı keyfiyyətli diktlərdən vurulub və keyfiyyətsiz rəngləndiyindən tez bir zamanda qopub tökülməyə başlayıb, diktlər şişib;
- evlərin damma halları var;
- damlar keyfiyyətsiz vurulduğundan küləyə davam gətirmir, bəzi evlərin üstü uçulub.

**Qaçın və məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması:**

- heç bir qəsəbədə telefon xətləri çəkilməyib;
- heç bir qəsəbədə kanalizasiya xətləri çəkilməyib;
- planlaşdırıldığı qədər artezian qazılmayıb, su təminatı şəhər tipli qəsəbələr üçün tələb olunduğu qaydada deyil;
- qəsəbələrdə içməli su çatışmazlığı və ya problemi var;
- yollara asvalt döşənməyib, hətta əksər yerlərdə çınqıl örtüyü də yoxdur;
- qəsəbələrarası və qəsəbə ilə rayon mərkəzi arasında nəqliyyat əlaqəsi təşkil olunmayıb;
- suvarma üçün su xətləri çəkilməyib;
- məcburi köçkünlərin heyvandarlıq təsərrüfatlarının köçürülməsi üçün şərait yaradılması nəzərə alınmayıb;
- qəsəbələr üçün salınmış ümumi hamam 6 qəsəbədə təhvil verilməyib, 2-də təhvil verildiyi bildirilsə də, əhali ondan istifadə edə bilmir. Ümumiyyətlə, şəhər tipli qəsəbələrdə hazırda ümumi hamam tikilməsi praktikası yoxdur və;
- tikilmiş hamamlar əhalinin ən yaxşı halda yarısının ehtiyacını ödəyə bilər;
- qəsəbələrdə icra nümayəndələri olmadığından əhali problemləri ilə bağlı sözünü deməyə instansiya tapmır, sənəd, arayış alınması ilə bağlı problemlər var.





**Qaçqın və məcburi köçkünlərin məşğulluq problemlərinin həll edilməsi:**

- 4 qəsəbədə qaçqın və məcburi köçkünlərə torpaq sahəsi və ondan istifadə üçün birdəfəlik yardım ümumiyyətlə verilməyib;
- torpaq sahəsi və ondan istifadə üçün birdəfəlik yardım verilmiş digər 4 qəsəbədə əhalinin böyük qismi su və yolu olmayan qeyri-münbit, təhlükəli ərazidə yerləşdiyindən torpağından yararlana bilmir;
- torpaq sahəsini əkib becərmək imkanı olan əhalinin böyük bir hissəsi malını satmaq üçün imkanlardan (infrastruktur, şərait və s.) məhrumdur;
- qəsəbələrdə əhalinin işlə təmin oluna bilməsi üçün digər hər hansı tədbir görülməyib.
- Məşğul əhaliyə əmək haqqının vaxtında verilməsində ciddi problemlər var.

**Qaçqın və məcburi köçkünlərin sağlamlıq hüquqlarının təmin olunması:**

- tibb məntəqələrinin binaları keyfiyyətsiz tikildiyindən divarların suvaqları qopur, rəng tökülür, divarların nəm vermə halları var;
- tibb məntəqələri normal işıq, su və isitmə sistemi ilə təmin olunmayıb;
- avadanlıqlar ilkin səhiyyə xidməti göstərilməsi üçün kifayət edəcək qədər və keyfiyyətdə deyil;
- dərman preparatlarının saxlanılması üçün heç bir şərait yoxdur;
- dərman təminatı sıfır dərəcəsindədir;
- tibbi personalın çatışmadığı hallar var;
- tibb məntəqələri əhalinin tələblərinə cavab vermir;
- peyvəndlərin vaxtında vurulması üçün şərait yoxdur.

**Qaçqın və məcburi köçkünlərin təhsil almaq hüquqlarının təmin olunması:**

- 1 qəsəbədə məktəb olmadığından uşaqlar 1 km aralıda olan məktəbə getmək məcburiyyətindədirlər;
- 4 qəsəbədəki məktəbin idman zalı yoxdur;
- 1 sinif otağı çatışmazlığı olduğundan ikinövbəliliyin ləğvi mümkün olmayan hallar var;
- məktəblərin əksəriyyəti ikinövbəli rejimdə işləyir;
- məktəb binalarına su çəkilməyib;
- məktəblərdə ayaqyolu həyətdə tikilib və su çəkilməyib;
- məktəblərin əksəriyyəti sinif otaqlarının sayı, kitabxana, direktor və müəllimlər otağı nəzərə alınmadan tikilib;
- 7 məktəbdən yalnız birində kompüter otağı və emalatxana var;
- 8 qəsəbədən köçürülmədən sonra bu günə qədər yalnız bir nəfərin ali məktəbə qəbul olması təhsilin səviyyəsinin aşağı olmasını deməyə əsas verir;

Bütün bu sadalananlar, bizə ayrılan vəsaitlərin mənimsənildiyini deməyə əsas verir. Bundan başqa, Mərkəz qaçqın və məcburi köçkünlərə ayrılan vəsaitlərin mənimsənilməsi ilə bağlı əldə edilən məlumatları dəqiqləşdlirmək məqsədilə ekspertlər aparasında da sorğu keçirib. Ekspertlərin cavabları da mənimsəmə hallarının olduğunu təsdiq edib. Ekspertlərə ünvanlanan **«Sizcə, Dövlət Neft Fondunun Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı çərçivəsində qaçqın və məcburi köçkünlərin yaşayış vəziyyətlərinin yaxşılaşması üçün ayrılan vəsaitlər təyinatı üzrə xərclənirmi?» sualına cavab verənlərin** 32,8%-i «bəli», 44,8%-i «qismən», 13,8%-i «xeyr», 8,6%-i «bilmirəm» cavabını verib. Bu da mənimsəmənin olmasından xəbər verir. Mənimsəmənin daha çox kimlər tərəfindən edildiyini müəyyən etmək üçün **«Sizcə, qaçqın və məcburi köçkünlər üçün inşa edilən evlər üçün ayrılan pul və tikinti materialları ən çox kim tərəfindən mənimsənilir?»** sualı ilə müraciət edilib.

Respondentlərin 43,1%-i qaçqın və məcburi köçkünlərə ayrılan vəsaitlərin «Qaçqınkom» tərəfindən mənimsənildiyini qeyd edir.





Cədvələ bax.

| | | |
|---|---|---|
| 1 | Qaçqınkom tərəfindən | 43,1 |
| 2 | Podratçı təşkilat tərəfindən | 19,0 |
| 3 | Fəhlələr tərəfindən | 1,7 |
| 4 | Yuxarıda sadalananların hamısı | 1,7 |
| 5 | Bilmirəm | 29,3 |
| 6 | Başqa (özünüz qeyd edin) | 5,2 |
| Cəmi | | 100,0 |

Qeyd edək ki, qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını və digər sosial problemlərinin həllini təmin etmək məqsədilə 1 iyul 2004-cü ildə ölkə Prezidenti tərəfindən «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı» təsdiq edilib. Proqramın icrası 2004-2007-ci illəri əhatə etməklə 22921 ailənin və 110 min məcburi köçkünün həyat şəraitinin yaxşılaşdırılmasını, o cümlədən 21354 ailənin yeni qəsəbələrə köçürülməsini, 1567 ailənin isə müvəqqəti məskunlaşdığı ictimai binanın təmirini nəzərdə tutur. Eyni zamanda, 30 min yeni iş yerinin (25 mini inşaat işlərində, 5 mini isə yeni təşkil olunacaq sexlərdə) yaradılması nəzərdə tutulub. Artıq bu istiqamətdə 3674 məcburi köçkün ailəsinin Ağdam rayonu ərazisində, 149 məcburi köçkün ailəsinin Bərdə rayonu ərazisində və 37 məcburi köçkün ailəsinin isə Laçın taxta körpü ərazisində yeni salınmış qəsəbələrdə yerləşdirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb.[41]

Bütün bunlara baxmayaraq, qaçqın və məcburi köçkünlərin normal yaşayış şəraiti ilə təmin olunması istiqamətində görülən işlər onların acınacaqlı vəziyyətdən çaxmasına imkan yaradıb. Əgər əvvəllər çadır düşərgələrində, vaqonlarda, zirzəmilərdə yaşayırdılarsa, artıq ağağı keyfiyyətli olsa da, əvvəlki ilə müqayisədə yaşayış şəraiti nisbətən yaxşılaşıb.

Qeyd edək ki, sonradan tikilən evlərdə və salınan qəsəbələrdə yaradılan şərait əvvəlkilərdən nisbətən yaxşıdır. Belə ki, yeni qəsəbələrdə mətbəx, torpaq və s. problemlər öz həllini tapıb.

[41] YAİİDP-nin icra hesabatı 2003/2004 Bakı 2005 səh. 119

Qəsəbələrə elektrik xətləri çəkilib, uşaq bağçaları tikilib, qəsəbələr üçün ümumi hamam tikilib, artezianlar qazılıb və içməli su xətləri çəkilib, qəsəbələrin bir qismində şadlıq-mədəniyyət evləri tikilib, qəsəbələrə qismən yol çəkilib. Buna baxmayaraq problemlər hələ də qalmaqdadır.

**Beləliklə, aparılan tədqiqat işi və monitorinqin nəticələri** ARDNF-dən qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün ayrılan vəsaitlərin mənimsənilməsi hallarının olmasını göstərir.

Hesab edirik ki, mənimsəmə hallarının qarşısını almaq üçün tikilən evlərin smeta dəyərinin, həmçinin bu evlərin paylanmasında ictimai təşkilatların və KİV nümayəndələrinin yaxından iştirakının təmin edilməsi problemin həllinə müsbət təsir göstərə bilər. Eyni zamanda, bu, əhali arasında mənimsəmə ilə bağlı formalaşan fikirləri azaldar, çəkilən xərclərin monitorinqinin aparılması asanlaşar, Neft Fondundan ayrılan vəsaitlərin aidiyyatı üzrə xərclənməsində şəffaflığın təmin olunmasına köməklik göstərərdi.





**Kitab HHT-nin nəzdindəki Azərbaycanın Neft Sənayesi üzrə İnformasia və Resurs Mərkəzinin aşağıdakı tədqiqat və monitorinq hesabatları əsasında hazırlanıb:**

1. Neft Fondundan (YAİİDP çərçivəsində) qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına ayrılan vəsaitlərin monitorinqi
2. YAİİDP-nin 2 illik hesabatında qeyri-neft sektoru və neft gəlirlərindən istifadənin monitorinqi
3. Neft gəlirlərinin Azərbaycan iqtisadiyyatına təsirinin qiymətləndirilməsi («Holland sindromu» təhlükəsi)
4. Əmək bazarı və məşğulluğun monitorinqi
5. «Azərbaycan Respublikası Dövlət Neft Fondu:problemlər perspektivlər» (tədqiqat)
6. «Azərbaycanda sosial və iqtisadi proseslərin modelləşdirilməsinin bəzi məsələləri və neft gəlirlərinin səmərəli istifadə olunması istiqamətləri» (tədqiqat)
7. «Azərbaycanın neft sazişləri» (tədqiqat)
8. «Neft gəlirlərinin əhalinin həyat səviyyəsinə təsiri» (tədqiqat)
9. «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı» üzrə təhsilin monitorinqi»
10. «YAİİDP çərçivəsində Neft Fondundan ayrılan və xərclənən vəsaitlərin monitorinqi».
11. «İqtisadiyyatın neft və digər sektorlarında yaradılan məhsullarda istehsal faktorlarının payının müəyyənləşdirilməsi» məqsədilə ekspert və sahibkarlar arasında keçirilmiş rəy sorğusu əsasında hazırlanmış hesabat.
12. «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı çərçivəsində təhsilin yoxsulluğun azaldılmasına təsiri» mövzusunda keçirilmiş sosioloji rəy sorğusu əsasında hazırlanmış hesabat.
13. «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (YAİİDP) və neft gəlirlərindən istifadə məsələləri» mövzusunda keçirilmiş sosioloji rəy sorğusu əsasında hazırlanmış hesabat.

**Ünvan:**
AZ 1073, Bakı-73, Mətbuat prospekti,
529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı
9-cu mərtəbə Tel/Fax: 510-21-55, 510-27-91.
himayadar@mail.ru

Kitab N(o)vib (Hollandiya) təşkilatının
maliyyə dəstəyi ilə çap olunub